Azerbaijan University

# PROCEEDINGS

International Conference on

## GENDER PROBLEMS

## and

## MODERN AZERBAIJAN

November 19, 2021

BAKU | AZERBAIJAN

## ORGANIZING COMMITTEE

**Saadat Aliyeva,** Rector, Azerbaijan University, Baku, Azerbaijan – **Chair**
**Yusif Gasimov**, vice-rector, Azerbaijan University, Baku, Azerbaijan
**Nushaba Guliyeva**, Azerbaijan University, Baku, Azerbaijan
**Rena Ibrahimbeyova**, Baku State University, Baku, Azerbaijan
**Latifa Aghamaliyeva**, Azerbaijan University, Baku, Azerbaijan
**Safar Mammadov**, Azerbaijan University, Baku, Azerbaijan
**Gabil A. Aliyev**, Azerbaijan University, Baku, Azerbaijan
**Paul Gibbs**, Azerbaijan University, Baku, Azerbaijan
**Ulviyya Rahimova**, Azerbaijan University, Baku, Azerbaijan
**Samira Mammadova**, Azerbaijan University, Baku, Azerbaijan
**Victoria de Rijke**, Middlesex University, London, UK
**Jamila Guliyeva**, Baku State University, Baku, Azerbaijan
**Tunzala Verdiyeva**, Azerbaijan University, Baku, Azerbaijan
**Osmar Antonio Bonzanini**, University of Upper Uruqvay and Missions, Brazil

## CONTENTS

**Cavadova Aygün**........................................................ 5
SAHİBKAR QADINLARININ QARŞILAŞDIĞI GENDER ƏSASLI ÇƏTİNLİKLƏR

**Gibbs Paul**........................................................ 7
ACADEMIC FREEDOM SEX AND GENDER

**Hüseynova Firuzə**........................................................ 9
NARKOTİK ASILILIQ VƏ GENDER MƏSƏLƏLƏRİ

**Исмайлова Айбаниз**........................................................ 11
ГЕНДЕРНЫЕ ПРОБЛЕМЫ В ТВОРЧЕСТВЕ ДОРИС ЛЕССИНГ

**Məcidzadə Fərəh**........................................................ 14
MÜASİR CƏMİYYƏTDƏ GENDER BƏRABƏRLİYİN TƏMİN OLUNMASI

**Mədətov Fərhad**........................................................ 16
KAMAL ABDULLANIN HEKAYƏLƏRİNDƏ GENDER PROBLEMİ

**Məmmədova Əminə**........................................................ 19
QUEER NƏZƏRİYYƏSİNƏ TARİXİ YANAŞMA

**Mirzəyeva Sevinc**........................................................ 21
AZƏRBAYCAN NAĞILLARINDA GENDER ASİMMETRİYASININ İFADƏSİ

**Mirzəzadə Günel**........................................................ 23
MƏKTƏB BULLİNQİNİN BAŞ VERMƏSİNDƏ GENDER ASPEKTLƏRİ SƏBƏB KİMİ

**Mollayeva Elza**........................................................ 25
ŞƏXSİYYƏTİN İNKİŞAFINDA GENDER STEREOTİPLƏRİNİN YERİ VƏ ROLU

**Muradlı Aygün**........................................................ 29
CİNSİ VƏ GENDER BƏRABƏRSİZLİKLƏRİNİN MİNİMUMA ENDİRİLMƏSİNDƏ
SOSİAL İŞİN ROLU

**Muradova Fidan**........................................................ 30
DEPRESSİYADA OLAN QADINLARLA İŞLƏYƏRKƏN MOTİVASİYALI İNTERVYUDAN
İSTİFADƏ

**Namazova Səba**........................................................ 32
AZƏRBAYCANIN MAARİFPƏRVƏR QADINLARINDAN
ŞƏFİQƏ ƏFƏNDİZADƏNİN MƏTBUATLA ƏMƏKDAŞLIĞI HAQQINDA

**Novruzov Şalan**........................................................ 33
QADINLAR ARASINDA NARKOTİK VASİTƏLƏRDƏN ASILILIQ
HALLARININ YAYILMASI

**Orucova Esmira**........................................................ 35
ETNİK MÜNAQİŞƏLƏRİN TRANSFORMASİYASI VƏ SÜLH
DANIŞIQLARI PROSESİNDƏ GENDER BƏRABƏRSİZLİYİ

**Osmanova Sənubər**........................................................................................................................ 38
XARİCDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏR ARASINDA GENDER MÜXTƏLİFLİYİ

**Quliyeva Aybəniz**......................................................................................................................... 39
XI-XII ƏSRLƏRİN GÖRKƏMLİ MƏDƏNİYYƏT XADİMİ

**Qurbanova Gülnarə**...................................................................................................................... 41
MODERN DÜNYA ŞƏRTLƏRİNDƏ CİNSİYƏT PROBLEMLƏRİ

**Rəhimova Ülviyyə, Məmmədova Samirə**....................................................................................... 43
TÜRK QADIN OBRAZININ BƏDİİ ƏDƏBİYYATDA TƏCƏSSÜM PROBLEMLƏRİ

**Rəhimli Aynurə**............................................................................................................................ 46
“ZADƏGANLIQ” KONSEPTİNDƏ GENDER MÜNASİBƏTLƏRİNİN
REALLAŞMA SPESİFİKASI

**Rüstəmov Fazil**............................................................................................................................ 48
İNFORMASİYA MƏDƏNİYYƏTİ VƏ GENDER

**Самигулина Наиля**....................................................................................................................... 51
ПРОБЛЕМЫ ГЕНДЕРА В ЭКОНОМИЧЕСКОМ РАЗРЕЗЕ

**Səfərova Yeganə**........................................................................................................................... 53
NİTQDƏ GENDER XÜSUSİYYƏTLƏRİ HAQQINDA

**Verdiyeva Tünzalə**......................................................................................................................... 56
ƏLİLLİK SOSİAL BASQI KİMİ

**Yusifova Zeynəb**............................................................................................................................ 58
GENDER NEOLOGİZMLƏRİNİN PSİXOLİNQVİSTİK ASPEKTDƏN TƏHLİLİ

# SAHİBKAR QADINLARININ QARŞILAŞDIĞI GENDER ƏSASLI ÇƏTİNLİKLƏR

**Aygün Cavadova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan
e-mail: ayguncavadova90@gmail.com

Gender bərabərliyi-qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyətidir. Müasir cəmiyyətdə qadınların da kişilər kimi iş həyatına malik olması gender bərabərliyinə nail olmaq üçün atılan addımlardan biridir. Qadınların iş həyatına malik olması, onların azad maliyyə gəlirlərinin olması qadınları ailədə və cəmiyyətdə iqtisadi cəhətdən azad edir. Müasir dövrdə də gender əsaslı ayrı-seçkilik iş həyatında özünü göstərir. Gender əsaslı qısnama yəni ayrı-seçkilik şəxsin cinsinə və gender kimliyinə əsasən cəmiyyətdə iştirak edə bilmə imkanlarının məhdudlaşdırılımasıdır. Qadınların iş həyatında aktiv ola bilməməsinin bir sıra səbəbləri mövcuddur və hələ də öz aktuallığını saxlamaqdadır. Bu səbəblərə bir neçə amili aid edə bilərik: ev öhdəlikləri, iş yerində xoşagəlməyən əməllər və təzyiqlər, yeni ailə qurmuş qadınların özəl sektorda iş tapmasının çətinliyi, qızların üstünlük verdikləri təhsil sahələrinin məhdud dairəsi, gecəyə kimi işdə olmaq, işlə bağlı səfər etmək və s. Qadınların iş həyatına təsir edən edən amillərdən birincisi qadınların həm də ev öhdəliklərinin olmasıdır. Ev öhdəliklərinin əsas yükünün qadınların üzərinə düşməsi qadınların əksəriyyəti üçün zaman və enerjinin böyük bir qismini tükəndirir. Bu yük qadınların hətta “pul gətirən” işlərlə məşğul olduğu hallarda belə dəyişməz qalır [1, s.25]. Ev öhdəliklərinin yalnız qadınların üzərinə düşməsi onların iş performansının aşağı düşməsinə səbəb olur. Bu da qadının iş qadını olmasına baxmayaraq yenədə istismarına gətirib çıxarır. Ev işlərinin iştirakında kişilərin az rol oynaması işləyən qadınların daha çox yük götürməsi ilə nəticələnir. ... ev işləri ilə kim daha çox məşğul olur” sualına təxminən eyni sayda kişi və qadın (kişilərin 86,5 və qadınların 90,9%-i) “qadınlar” cavabını verib....[2] Yeni körpə doğulan ailələrdə anaya məzuniyyət verildiyi kimi ataya da məzuniyyətin verilməsi məsələsi aktuallaşsa ev işlərində kişilərin iştirakı da arta bilər. Çünki, atalıq məzuniyyəti zamanı kişi bu məsələlərdə daha yaxından iştirak edə bilər. Kişilərin verdiyi məlumata görə 6,1%, qadınların verdiyi məlumata görə isə 2,9% kişi atalıq məzuniyyətinə çıxmışdır [2].

Gender əsaslı çətinliklərin qadınların iş həyatını məhdudlaşdırması aysberqin görünən tərəfidir. Belə ki, qadınların işə az cəlb olunması ümumilikdə iqtisadi göstəricilərə təsir edir. Dövlət statistika mərkəzinin gender göstəriciləri üzrə statistika cədvəlinə nəzər yetirdikdə görmək olar ki, qadın işsizlərin sayı çoxluq təşkil edir. 2020-ci il dövlət statistikasına əsasən qadın işsizlər 57,5%, kişi işsizlər 42,5% təkil etmişdir [4].

İş həyatında sahibkar qadınların qarşılaşdığı məsələlərdən biri də onların müvəffəqiyyətinə olan qısqanclıq və qəbul edilməmələridir. Bu qəbul edilməmə əsasən digər qadınlar tərəfindən baş verir. Kişilərin 58,5, qadınların isə 47,9%-i siyasəti kişilərin öhdəsinə buraxmaq lazım olduğunu

hesab etsə də, qadınların yarısından bir qədər çoxu (53,5%-i) ilə müqayisədə kişilərin dörddə üçü (77,6%-i) “qadınlarla müqayisədə kişilərdən daha yaxşı siyasi rəhbərlər çıxır” fikri ilə bağlı öz razılığını ifadə edib [2].

Azərbaycanda qadın sahibkarlığın inkişafı üzrə Milli Hesabat və Respublikamızda fəaliyyət göstərən qadın sahibkarlar haqqında milli hesabata əsasən sahibkar qadınların qarşılaşdığı çətinliklərə aid edə bilərik:

1. Ciddi iqtisadi çətinliklər və istehsalı aşağı düşməsi;
2. Qadınların əmək bazarındakı vəziyyətinə dair lazımi milli siyasətin olmaması;
3. Məşğulluq və biznes imkanları haqqında məlumatsızlıq;
4. Kredit və maliyyə bazarlarından istifadə olunmasında çətinliklər;
5. Qadınlarda özünəinamın aşağı olması. [5]

Qadınlara qarşı cəmiyyət və ailə tərəfindən bir sıra tələblər qoyulur. Bu tələblər bir çox qadının iş həyatına, aktivliyinə mənfi təsir göstərir. Qadına qarşı çoxsaylı tələblər irəli sürülür: təvazökarlıq, tabeçilik və kişilərin qərarları ilə razı olmadıqları hallarda belə sükunətlərini qorumağı bacarmaq [3, s.86]. Qadın güclü sahibkar olmasına baxmayaraq bir çox hallarda yoldaşı tərəfindən təzyiqlərə məruz qala bilir və işi məhdudlaşdırıla bilir. Çünki, bizim cəmiyyətdə qadına qarşı inam hələ tam formalaşmamışdır. Baxmayaraq ki, bu istiqamət üzrə bir sıra maarifləndirmə işləri görülür, təlimlər həyata keçirilir. Burdan belə nəticəyə gəlmək olar ki, görülən bir sıra maarifləndirmə işləri kütləyə tam formada çatdırılmır.

Beləliklə, biz yuxarıda iş qadınlarının qarşılaşdığı problemləri nəzərdən keçirdik. Aydın oldu ki, iş qadınlarının qarşılaşdığı problemlər əsasən cəmiyyətdə hələ də mövcud olan streotiplərin bir çox ailələri idarə etdiyindən yaranır. Bu məsələ üzrə maarifləndirmə işləri gücləndirilməli və kütləyə geniş şəkildə çatdırılmalıdır.

**Açar sözlər**: qadın, kişi, sahibkar, gender.

## Ədəbiyyat

1. Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər., Gender qiymətləndirmə hesabatı, BMTİP, 2018, 64 s.
2. Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar, Bakı, 2018, 72 s.
3. Ağayeva K. Qafqazada gender məsələləri, Bakı, 2017, 436 s.
4. https://www.stat.gov.az/source/gender/
5. http://gender-az.org/doc/az/development/economic/woman-enterpreneers-az.pdf

# ACADEMIC FREEDOM SEX AND GENDER

**Paul Gibbs**
Middlesex University, UK
Azerbaijan University, Baku, Azerbaijan

The principle of academic freedom ought to be critical to the notion of western higher education and many have argued its contribution to democracy. It is an absolute good of higher education (Gibbs 2019). Removing academic freedom from the framework of moral duty and enshrining it in external rules risks conflicts of interest which may forbid doing the right thing in favour of doing the more expedient thing for reasons of personal or institutional self-interest or national, cultural or political reasons [2].

*Background*

At present in the UK a debate on the rights of free speech around the issue of transgender people is burning intensely and I will offer a small insight into it here. The key conflict is between a view of transgender rights as based on a person's beliefs about their gender identity and women's rights as based on their biological sex. It is hardly ever constructed in terms of male rights.

From one perspective the key line of argument is that a person who identifies with a gender that differs from their sex should be treated in line with the gender with which they identify, with access to female or male single-sex spaces and services respectively. This is underpinned by the idea that everyone has an innate gender identity, and for trans people, this identity is not aligned with their sex as recorded at birth.

The fundamental argument underpinning the sex-based rights perspective is that the physical, economic and social consequences of being born female are so significant that women require specific protections in law and policy for reasons of safety, privacy, dignity or fairness, including single-sex services and spaces. This view was reflected in the UK legislation, especially the Sex Discrimination Act 1975, which stated clearly that it was concerned with discrimination against a woman "on the ground of her sex" and defined a woman as a female of any age. This definition was then carried forward to the Equality Act 2010, under which 'sex' is a protected characteristic.

*Academic freedom on Campus*

In the UK the same issue is playing out on university campuses, at times in ways that depart from established academic standards of evidence, analysis and discourse. In this sense the debate has descended into slogans, which functions not as an empirical statement but as a demand to adhere to the ontological position that claims about people's 'gender identity' trump claims about their biological sex. 'Identifying as a woman', thereby constitutes their 'gender identity', and this equates to the claim that such a person is a woman.

The heated nature of the debate on sex and gender identity is affecting the ability and confidence of researchers and students to freely engage in intellectual debate in several ways. Most evidently, discussion on women's sex-based rights has been subject to disruption and defamatory comment. In some cases, this has led to events being postponed or cancelled. Less noticeably, research, discussion or events on sex-based rights have simply not taken place, by dint of self-censorship. In relation to events, this may be due to practical hurdles, such as the need to plan for additional security and deal with spam bookings. There is also the psychological stress; the anticipation that an event or discussion on sex-based rights will be met by hostile social media and abusive commentary. Activists have campaigned for the dismissal of female academics who do not share a belief in innate identity. At the Universities of Oxford and Sussex, feminist scholars have required security for their lectures and other have lost their jobs when their views do not match the views of the activists.

The upshot is that some academics are bypassing important social issues that, in ordinary times, would be subject to rigorous discussion. These include questions about power and inequality, the reliability of population data and other statistics, the balance of rights between different vulnerable groups, as well as wider societal shifts on gender identity, such as the unexplained sharp increase in referrals to gender identity services by young girls.

It is true that trans people are marginalised in UK society, facing well-documented discrimination ranging from government policy to physical violence and this situation raises urgent questions as to how universities should respond to and manage the evident tension between different groups and viewpoints, and facilitate academic freedom.

*Japan*

It is interesting to see how Japan is dealing with this situation. Over the past few years, a number of universities have announced that they will begin to allow transgender students to matriculate at their institutions. Currently, transgender people in Japan must undergo medical intervention and surgical sterilisation in order for the government to legally recognise their gender. Additionally, the law mandates that the earliest that transgender individuals can have their gender legally recognised is when they reach the age of majority, 20 years old. This means university students who are transgender women are not even eligible for their gender to be legally recognised while they are of typical university age. Japan's gender recognition law creates significant discriminatory barriers for students who want to access education according to their gender identity. The procedure's rigid requirements and the limited information available to children means the process of becoming legally recognised can be fraught with anxiety, coercion and fear for the future.

*Conclusion*

The argument functions at two levels; that of the right to express views and the content of these views. This tends to be conflated in the arguments made in the UK, for all parties to the debate argue for the recognition of transgender people, their rights and their dignity. It seems that we would make more progress if we started from respect for all humans rather than trying to hold a socio-ontological debate while restricting a wide range of views.

**References**

1. Gibbs P. (2019), Why academics should have a duty of truth telling in an epoch of post-truth? *Higher Education*, 78:3, 501-510.
2. Oleksiyenko A.V. (2021), Is academic freedom feasible in the post-Soviet space of higher education? *Educational Philosophy and Theory*, 53:11, 1116-1126.

## NARKOTİK ASILILIQ VƏ GENDER MƏSƏLƏLƏRİ

**Firuzə Hüseynova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: firuza.huseynova@au.edu.az

Narkotiklərdən asılılıq bütün bəşəriyyət üçün böyük bir bəladır. Hər iki cinsdə şəxsiyyətdə baş verən deqradasiya prosesləri eyni sürətlə və eyni intensivlikdə baş verir.

Narkotik asılılıqda cinslər arası müəyyən fərqli xüsusiyyətlər mövcuddur. Bu fərqlər həm qadın orqanizminin özünəməxsus fizioloji xüsusiyyətləri ilə, həm də asılılıq mexanizminin yaranması, müalicə, profilaktika, reabilitasiyanin xüsusiyyətləri ilə bağlıdır.

Hormonların tsiklik aylıq təsiri altında qadınlarda emosional sferanın dəyişkən olması onları psixotrop maddələrin təsirinə qarşı daha həssas edir. Menstural tsiklin follikulyar fazasında estradiolun səviyyəsinin yüksək, progesteronun səviyyəsinin aşağı olması onları luteinləşmə fazasına nisbətən follikulyar fazada kokainin təsirinə daha dayanıqsız olurlar [3].

Həmçinin qadın orqanizmində bu maddələri parçalayan fermentlərin, xüsusən qaraciyər fermentlərinin sürəti kişilərə nisbətən daha zəifdir, bu səbəbdən bu maddələr qadın orqanizmində daha uzun müddət dövr edir [3].

Dünya səviyyəsində statistik məlumatlar göstərir ki, kişi istifadəçilərin sayı qadinlardan daha çoxdur. Qadınlar kişilərə nisbətən daha çox əsəbilik, yuxusuzluq, depressiv vəziyyətdən əziyyət çəkirlər və bu səbəbdən qadınlar arasında yuxugətirici, sakitləşdirici, trankvilizatorlar kimi dərman maddələrindən tez-tez və nizamsız istifadə bu maddələrdən asılılığa gətirib çıxarır. Bu dərman maddələri özləri asılılıq yaratmaqla yanaşı həm də uzun müddət onlardan istifadə edən şəxslərin alkoqol, narkotik və digər psixotrop maddələrə qarşı tolerantlığı azalır və psixi asılılıq daha tez inkişaf edir [1].

Ümumiyyətlə araşdırmalar göstərir ki, kişilər epizodik istifadədə qadınlara nisbətən daha uzun müddət qala bilirlər, qadınlarda tolerantlıq və abstinensiya kişilərdən təqribən 2 dəfə tez yaranır [2].

Kişilər uzun müddət qeyri-inyeksion formalardan istifadə etsələr də, qadınlarda bu keçid daha tez baş verir [1]. Kişilər narkotiklə tanışlığa daha zəif təsirli(məs: marixuana) narkotiklərlə başlayırlar. Qadınlar isə ilkin təcrübəni morfin, heroin, kokain kimi daha təhlükəli və daha qabarıq

təsirli maddələrlə qazanırlar, çünki qadınlar ilk dəfə kimsə tərəfindən (bu əksər hallarda onların cinsi partnyorları olur) "qonaq" edilir. Onlar çox zaman istifadə etdiyi narkotikin növü, dozası və s. xüsusiyyətləri barədə məlumata malik olmurlar. Araşdırmalar göstərir ki, qadın istifadəçilərin əksəriyyəti ilk 6 ay ərzində hansı narkotiki və hansı dozada qəbul etməsi barədə məlumatlı olmayıblar.

Kişilərdə asılılıq yaradan səbəbələrə maraq, kriminal mühit, cəmiyyətdə özünə yer tapa bilməmək, şəxsiyyətin formalaşmasında natamamlıq aiddirsə, qadınlarda bu səbəblərə cinsi partnyoru tərəfindən təhrik olunma, passivlik, acizlik, tənhalıq hissi, gender tələbləri, ailə problemləri, şəxsiyyətin patologiyaları aiddir. Erkən siqaret və alkoqol istifadəçiləri hər iki cinsin nümayəndələri üçün risk qrupunu təşkil edirlər.

Narkotik maddələrin müntəzəm istifadəsi qadın orqanizmində yumurta hüceyrənin atrofiyası, menstural tsiklin pozulmaları kimi patologiyalara səbəb ola bilər. Bu da narkotik istifadəçisi qadının sonsuzluq, spontan abort, yarımçıq doğuş və xəstə uşağın doğulması halları ilə üzləşmə ehtimalını yüksəldir. Ata asılılıqdan əziyyət çəkərsə, genetik mutasiyalar sayəsində də xəstə uşaq doğula bilər. Sadəcə istifədəçi anadan xəstə uşağın doğulma ehtimalı daha yüksəkdir. Ananın hamiləlik boyunca narkotik istifadə etməsi yenidoğulmuş körpədə ”kəsilmə sindromu”nun yaranmasına səbəb ola bilər. Bu tonik və klonik qıcolmalarla müşayət olunan ağır bir haldır [1]. Qadınların müalicəyə cəlb olunması da çox aktual və spesifik məsələdir. Qadınlar müalicəyə kişilərə nisbətən az cəlb olunurlar. Burada cəmiyyətin qınağından qaçmaq, ailə tərəfindən rədd edilmək və s. faktorların rolu var.

Belə bir mif mövcuddur ki, qadınlar müalicəyə tabe olmur və ya müalicənin effekti çox az olur. Lakin bu kökündən səhv fikirdir. Araşdırmalar göstərir ki, müalicə o zaman effektiv olur ki, ailə bu prosesdə xəstənin yanında olur və yaxından iştirak edir. Həmçinin qadınlarda remissiya dövrü kişilərdən uzun və dayanıqlı olur. Müalicədə effekt əldə olunarsa, qadınlarda bu effekt kişilərdən daha möhkəm olur. Müalicədən sonrakı dövrdə qadınlar kişilərə nisbətən daha az hallarda köhnə vərdişə qayıdırlar [4].

Sadalanan fərqlərin hər biri nisbi xarakter daşıyır və narkotiklərin hər iki cinsin nümayəndələri, ümumilikdə bəşəriyyət üçün dəhşətli fəlakət olduğu gerçəkliyini dəyişdirmir.

**Açar sözlər:** gender, narkotik, narkotik asılılıq, psixotrop maddələr, qadın orqanizmi.

## Ədəbiyyat

1. Sofuoglu M. et al. Sex and menstrual cycle differences in the subjective effects from smoked cocaine in humans, Experimental Clinical Psychopharmacology, vol. 7, No. 3, 1999.
2. UNODC, The Non-Medical Use of Prescription Drugs: Policy Direction Issues (Vienna, 2011).
3. Whiteford H.A. et al. Global burden of disease attributable to mental and substance use disorders: findings from the Global Burden of Disease Study 2010", The Lancet, vol. 382, No. 9904 (2013).
4. International Labour Organization and others, "Compulsory drug detention and rehabilitation centres".

# ГЕНДЕРНЫЕ ПРОБЛЕМЫ В ТВОРЧЕСТВЕ ДОРИС ЛЕССИНГ

**Айбаниз Исмайлова**
Азербайджанский Университет Языков, Баку, Азербайджан
e-mail: aybanizismayilova26@gmail.com

Гендерная проблема находилась в центре внимания философии, социологии и культуры еще с древних времен, и в настоящее время все еще сохраняет свою актуальность. Американский социолог Э. Гидденс приводит следующее определение гендера: «Если пол имеет отношение к физическим, телесным различиям между женщиной и мужчиной, то понятие «гендер» затрагивает их психологические, социальные и культурные особенности» [4].

В литературоведении гендерный аспект раскрывает новые возможности для интерпретации художественного текста. На современном этапе, актуальными и приоритетными являются вопросы, связанные с гендерной поэтикой. Как отмечает известный русский литературовед Охотникова С.Р., “формирующееся в литературоведении гендерологическое направление, объектом которого являются зафиксированные в литературе социально-психологические стереотипы фемининности и маскулинности, воплощаются в особой картине мира, особой точке зрения автора и героя, особой системе персонажей, в особом характере авторского сознания, объектно-субъектной системе, реализуются в особом типе женской-мужской литературы (речевых жанрах), репрезентирующихся в особенностях речевого поведения мужчин и женщин, особом стиле женской и мужской поэзии и прозы, а также в жанровой системе, имеющей также гендерное измерение. Речь в данном случае не идет о создании новых жанров, а об эволюции и трансформации существующей жанровой системы” [3].

В этой связи следует упомянуть имя английской писательницы Дорис Лессинг (1919–2013), лауреата Нобелевской премии по литературе 2007 г., чье творчество сосредоточено на гендерной проблематике. Писательница, которая считается непревзойденным мастером романа, преуспела во многих литературных жанрах, и описывает фундаментальные проблемы женщин. Интерес к социальным темам и женским проблемам принес Лессинг международное признание и славу бескомпромиссной писательницы и феминистки. Со свойственным ей тонким чутьем Лессинг показывает психологические конфликты, существующие между браком и любовью, материнством и карьерой; несправедливость двойных стандартов, одиночество и отчуждение одинокой женщины-карьеристки; потерю традиционных ценностей брака в современном обществе.

Литературные произведения Лессинг представляют собой глубокое исследование семейных, социальных, культурных, экономических, политических, психологических, расовых конфликтов и сексуальных домогательств, с которыми сталкиваются женщины в

патриархальной системе. Лессинг пытается показать новый горизонт для реализации власти, свободы, и прав женщин в современном мире. Посредством своих феминистских произведений Лессинг пытается пробудить у женщин протест против патриархального общества.

Исследование причин психологического конфликта между мужчинами и женщинами и отчуждения между людьми является основной целью романа Д.Лессинг «Трава поет» (1950). В романе раскрываются отношения между Мэри Тернер, женой белого фермера, и ее черным слугой Моисеем.

Отчуждение, финансовые трудности и эмоциональный раскол доминируют над всей жизнью Мэри. После замужества она страдает от состояния неопределенности и осознания бессмысленности своего неудачного брака. Общество вынуждает ее принять брак без любви, который также наблюдался в семье ее родителей. Она росла в разделенной семье, находится во власти отчуждения и равнодушия; социальная незащищенность, сексуальные домогательства и пустота довлеют над ее жизнью. Ее борьба против этих жизненных невзгод обостряется по мере того, как расовые и патриархальные тиски подрывают ее психологию.

Гендерная дискриминация, а также расовые конфликты являются доминирующей причиной затруднительного положения и отчуждения в жизни Мэри. Огромная пропасть непонимания и одиночество, образовавшаяся в ее супружеской жизни, становятся причиной ее отчуждения от общества и семьи. Ярким примером расовой дискриминации в романе служат отношения между Мэри и ее африканским рабом Моисеем. В романе Лессинг изображает Мэри жертвой патриархального общества. Жизнь Мэри Тернер характеризуется психологической изоляцией, которая сопровождает ее до самой смерти.

Новаторский роман Лессинг «Золотая тетрадь» (1962) выражает женский протест, стремление женщин к физической, интеллектуальной и эмоциональной свободе. Роман считается основополагающим феминистским произведением, и сосредоточен на особенностях взаимодействия мужчин и женщин с точки зрения канонов XX в. и фрагментации общества в эпоху постмодерна. Это произведение фокусируется также на теме искусства и исследует проблему субъективности.

Лессинг представляет читателям психологический мир современных свободных женщин, изображая сложные отношения между мужчинами и женщинами, используя свои уникальные приемы повествования и самоанализа героини. Она озабочена женскими проблемами и использует их как средство для изображения панорамы современного общества, а также психологического отчуждения женщин.

Психологические конфликты Анны Вульф отражают болезнь внешнего мира, в котором ей приходится сталкиваться со множеством препятствий. Такая фрагментация приводит к трагическому падению Анны, как матери и как писателя. Разочаровавшись в неудачных отношениях с мужчинами и политических взглядах, связанных с коммунизмом, Анна в свои сорок лет чувствует себя безнадежной и беспомощной женщиной. Чтобы избавиться от невыносимого внутреннего кризиса, она решает описать суровые картины своего горького опыта в четырех разноцветных тетрадях: черной, красной, желтой и синей. В

основе романа «Золотая тетрадь» лежит самопознание героини, необходимое для ее душевного равновесия и эмоциональной стабильности.

В романе «Расщелина» (2007) Лессинг представляет вниманию современной читательской аудитории мифическое общество, свободное от мужчин, заговоров, ревности, мелкого соперничества. «В этом романе Лессинг напрямую ставит вопросы, которые вдохновляют ее ранние работы, а именно, как мужчины и женщины, два схожих и совершенно разных существа, умудряются жить бок о бок в космосе, и как гендерные особенности влияют на все аспекты человеческого существования» [1].

Основная идея романа заключается в том, что все страдания женщин, их комплекс неполноценности и чувство отстраненности, а также разрушение и деградация экологической системы, природы происходят из-за неэффективности патриархальной власти.

Художественные произведения Лессинг, включая романы «Золотая тетрадь», «Трава поет» и «Расщелина», внесли важный вклад в развитие английской литературы, поскольку они идеально представляют современную социальную картину мира. Независимо от того к какому историческому периоду относятся героини Лессинг, мы ощущаем их присутствие в современном обществе в различных аспектах человеческой жизни.

**Ключевые слова**: гендер, интерпретация художественного текста, гендерная поэтика, отчуждение, социальные проблемы.

## Литература

1. Hossain M.A. (2018), Doris Lessing’s Fiction as Feminist Projections. International Journal of English and Cultural Studies, 1(1), 23-29.
2. Akhter T. (2020, December). Gender Inequality and Literature: A Contemporary Issue. In 6th International Conference on Social and Political Sciences, (p. 593). Atlantis Press.
3. Охотникова С. (2002). Гендерные исследования в литературоведении: проблемы гендерной поэтики. Гендерные исследования и гендерное образование в высшей школе. Ч.2, 273-279.
4. Бакаева С.А. (2014). Проблема гендерной репрезентации во французской литературе. Вестник Университета Российской академии образования, 4, 28-33.

## Doris Lessinqin yaradıcılığında qender problemləri

Bu tezisdə, "Qızıl dəftər", "Çəmən oxuyur" və "Yarıq" əsərləri əsasında məşhur ingilis yazıçısı Doris Lessinqin yaradıcılığının qender aspekti araşdırılır. Lessinq, bənzərsiz təhkiyə üsullarından istifadə edərək, kişi və qadın arasındakı mürəkkəb əlaqələri təsvir edir və müasir azad qadınların psixoloji dünyasını oxuculara təqdim edir. Yazıçı qadın problemlərinə böyük maraq göstərir və müasir cəmiyyətin mənzərəsini yaratmaq və qadınların psixoloji yadlaşmasını təsvir etmək üçün onlardan bir vasitə kimi istifadə edir. Lessinq romanlarında qadınların əzablarının, özlərini aşağı səviyyədə görmə kompleksinin və təcrid olunma hisslərinin patriarxal cəmiyyətin səmərəsiz olmasından qaynaqlandığını göstərir.

# MÜASİR CƏMİYYƏTDƏ GENDER BƏRABƏRLİYİN TƏMİN OLUNMASI

**Fərəh Məcidzadə**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Bu gün cəmiyyəti narahat edən problemlərdən biri və bəlkə də elə birincisi gender bərabərliyi məsələsidir. Axı, niyə gender bərabərliyi mövzusunda müzakirələr aparıldıqda problem hər zaman qadın faktoru üzərindən araşdırılmağa başlayır? Bu sualın cavabı elə kökü qədimlərə dayanmış bu məsələnin həlli istiqamətində açardır. Məsələni mezo səviyyədə araşdırdıqda bu problemin lokal olmadığını görürük. Dünyanı narahat edən, hətta sonu bəzən faciə ilə bitən gender bərabərliyi məsələləri hər zaman dövlətin diqqət mərkəzində saxlanılmışdır. Bu gün ən aktual, qərəzli, həlliçətin problemlərin həllini özündə ehtiva edən Azərbaycan Respublikasının Konstitusiyası ali qanunlar toplusudur. Kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğunu göstərən Konstitusiyamızın 25-ci maddasinin ikinci bəndi gender bərabərliyi probleminin dövlətin prioritet istiqamətlərindən olduğunun əyani sübutudur.

Üzücü haldır ki, tez-tez gender və cins məfhumları qarışdırılır. Unutmaq olmaz ki, cins kişi və qadının bioloji və anatomik xüsusiyyətidir, gender isə cinsdən asılı olaraq cəmiyyətin insana həvalə etdiyi xüsusiyyətlərin toplusudur. Genderin formalaşması insanın bütün həyatı boyu davam edir, ona mentalitet, təhsil, mədəniyyət, iqtisadiyyat və s. təsir edir. Zaman keçdikcə müəyyən dəyişikliyə məruz qalır. Bu dəyişikliyin fonunda kişi və qadın münasibətləri də dəyişir. Kişi və ya qadın olmaq cəmiyyətdə təkcə bu və ya digər anatomik xüsusiyyətlərdən yox, həmçinin onların daşıdığı vəzifələrdən, onlara verilən hüquqlardan asılıdır.

Təəssüflər olsun ki, gənc nəsil arasında da gender bərabərliyi təfəkkürünün zəif olması günümüzün reallığıdır. Bu məsələni lokal olaraq qiymətləndirsək regionlardakı vəziyyətin heç də qənaətbəxş olmadığını görə bilərik. Bu istiqamətdə region gəncləri üçün təlim və layihələrin həyata keçirilməsi qaçınılmazdır. Bu təşəbbüsdə əsas məqsəd regionlarda yaşayan və könüllü fəaliyyət göstərən gənclərin gender bərabərliyi haqqında maarifləndirilməsi və gələcək fəaliyyət dönəmlərində gender bərabərliyinə əməl etməklə sağlam vətəndaş cəmiyyətinin qurulmasına öz töhfələrini verməkdən ibarət olmalıdır.

Tariximizdə qadınların rolu böyükdür. Azərbaycan həm də dünyada qadınlara səsvermə hüququ verən ilk dövlətlərdən biridir. Ölkəmizdə qadınlar yüksək dövlət vəzifələrində çalışırlar. Birinci vitse-prezident çox hörmətli Mehriban Əliyevanın təmsil etdiyi vəzifə bunun əyani sübutudur. Reallıq bundan ibarətdir ki, bu gün Azərbaycan qadınları parlamentdə, mərkəzi və yerli icra orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə və İKT sahəsində, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında təmsil olunurlar və böyük uğurlar qazanırlar. Hazırda ölkəmizdə VI çağırış Milli Məclisdə 22 qadın mandat əldə edib. Bununla Azərbaycan G20 üzvü olan bir çox ölkəni qabaqlayır. Bu heç də təsadüfi deyil. Gender bərabərliyi Azərbaycanın demokratik keçmişindən qaynaqlanır.

Xatırlatmaq yerinə düşərdi ki, milli azlıqların və etnik qrupların demokratik parlamentdə təmsil olunması üçün əlverişli şəraitin yaradılması Xalq Cümhuriyyətinin mühüm uğurlarından biri

idi. Müsəlman dünyasında ilk dünyəvi parlament respublikasının ən vacib uğurlarından biri də qadınlara seçki hüququnun verilməsidir. Bu, qadınlara Azərbaycanın ictimai-siyasi həyatında iştirak etməyə imkan yaratdı. Etnik, dini və sosial mənşəyindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi bütün müsəlman və türk dünyasında baş verən çox vacib hadisə idi.

Ümummilli Lider Heydər Əliyev sovet dövründə və müstəqillik illərində Azərbaycan qadınlarının problemlərinin həllinə, ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında onların rolunun artırılmasına böyük diqqət yetirmişdir. Əsası ulu öndər tərəfindən qoyulmuş müasir Azərbaycanın inkişafında qadınların rolu xeyli artmışdır. 1991-ci ildə müstəqilliyimizi əldə etdikdən sonra biz gender bərabərliyinin təmin edilməsi istiqamətində qəti addımlar atmışıq. Azərbaycan 1995-ci ildə “Qadınlar Konvensiyası” adlandırılan “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın ratifikasiyası ilə prosesə qoşulub. Vurğulamaq yerinə düşərdi ki, Qadın Problemləri üzrə Dövlət Komitəsi 1998-ci ildə Azərbaycan Prezidentinin fərmanı ilə yaradılıb. 2000-ci ildə Ümumilli Lider Heydər Əliyev tərəfindən imzalanmış “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” sənəd Azərbaycan Respublikasının bütün dövlət strukturlarında qadın və kişilərin bərabər şəkildə təmsil olunmasını təmin etmişdir. İnsan hüquq və azadlıqlarının və onların tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi həmişə Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Bu gün Prezident İlham Əliyev ulu öndər Heydər Əliyev yolunu ən yüksək səviyyədə davam etdirməklə, onu yeni standartlarla zənginləşdirməklə dövlət qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin edir.

Yeni reallıqlar fövqündə vurğulamaq zəruridir ki, ən yüksək səviyyədə dövlət orqanlarında, ailədə, ümumilikdə cəmiyyətdə kişi və qadınların bərabər iştirakını və təmsil olunmasını təmin etmək üçün qadınlara qarşı zorakılıqla mübarizənin innovativ yollarının tapılmasına ehtiyac var. Bu mübarizə yolunda daha böyük vəzifənin üzərinə düşdüyü cəmiyyətin müəyyən kəsimi gənclər qrupudur. Biz gənclər, bu vacib mövzuda sağlam yarışmağa, müasir texnologiyaların tətbiqi ilə mövcud çağırışların həllinə töhfə verməyə dövlətimiz, cəmiyyətimiz və bəşəriyyətimiz naminə borcluyuq.

**Açar sözlər**: gender bərabərliyi, ailə, cins məfhumları.

**Ədəbiyyat**

1. Mirzəzadə R., Gender: siyasi-hüquqi təhlil.
2. Mirzəzadə R., Siyasət. İnsan hüququ. Cəmiyyət. Gender.
3. Mirzəzadə R., Dövlətçilik. Modernləşmə. Gender.
4. https://www.makers.com/blog/21-facts-you-never-knew-about-international-genderinequality

# KAMAL ABDULLANIN HEKAYƏLƏRİNDƏ GENDER PROBLEMİ
## ("Çəngəl çiçəyi" və "Gülü Qah-Qah xanımın nağılı" )

**Fərhad Mədətov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: madatovfarhad65@gmail.com

Ədəbiyyatımızda Gender problemi göründüyü kimi zaman-zaman diqqət mərkəzində olsa da, son dönəmlərdə ona maraq daha da çoxalmışdır. K.Abdullanın çoxcəhətli yaradıcılığında da bu məsələlərə geniş yer ayrılmışdır. Onun "Çəngəl çiçəyi" hekayəsində başqa məsələlərlə birlikdə gender problemi də diqqəti cəlb edir: Misir fironu ölkəsinin ərazi bütövlüyünə nail olandan sonra bu qərara gəlir ki, indi də xalqının tarixinin, dilinin qədimliyini sübut etsin. Buna nail olmaq üçün iki nəfər körpə - dili hələ açılmamış uşaqları insanlardan tamamilə uzaq bir yerdə iki nəfər qadına tapşırır ki, onları bəsləsinlər və dili açılanda əgər Misir dilində danışsalar, deməli bu xalqın mədəniyyətinin və dilinin qədimliyi sübut ediləcəkdir. Aydındır ki, cəmiyyətdən kənarda uşaqlar dil aça bilməzlər. Lakin ədib boyük sənətkarləqla şərtiliklərdən istifadə edərək məqsəd və məramını əks etdirməyə nail olur. Onlara yamək gətirməyi isə iki nəfər finikiyalı çobana tapşırırlar. Son dərəcə ciddi yasaq olunmuş məsələ o idi ki, uşaqların yanında heç kəs qətiyyən danışmasın, əks təqdirdə bütün səylər puça çıxadır. Vaxt yetişir, körpələrin ilk sözü finikiya dilində işlənən "çörək" sözü olur. Bu söz fironu sarsıdır. Məlum olur ki, çobanlar çörək gətirərkən bu sözü ucadan demişlər. Burada ən ən böyük yükü qadınlar daşıyırlar. Onlara böyük etimad göstərilmiş, taleyeklü vəzifə tapşırılmışdı. Çünki çobanlar yadelledirlər, onların bu işdə o qədər də maraqlı tərəf deyillər. Firon amansız qərarı belə olur: qadınlar, çobanlar və uşaqlar diri- diri çəngələ taxılaraq qızmar günəş altına qoyulsun. Cəzaya məhkum edilmişlər pörtmüşdülər və "çəngəl çiçəyi"nə bənzəyirdilər. Firon sevdiyi bir sözü xatırladı: insan çiçəkdir, deməli çiçək də insandır. İlk baxışda firon əzazil bir hökmdar təsiri bağışlayır. Qadınlara, xüsusilə məsum körpələrə tutduğu divanı bağışlamaq ağlasığmır. Lakin hekayədəki bütün obrazların hər biri özünəməxsus bir bədii yükün daşıyıcısına çevrilmişdir. (Qurani-Kərimdə Xızır peyğəmbər uşağı qətlə yetirərək gələcəkdə böyük qırğınlara son qoyur.) Burada söhbət uşalardan yox, uşaq kimi düşünənlərdən gedir. O, adamlardan ki, yadellilərin təsirinə uyaraq Vətəninə xəyanət edir, onun şərəfini ayaqlar altına salır. Qadınlr da bağışlanmaz günah sahibləridirlər. Onlar müvəqqəti də olsa, xalqın mənafeyi naminə söz azadlığından tamamilə məhrun edilmişdilər. Dövlət sirrinin, xüsusilə müharibə şəraitində hər hansı bir informasiyanın sızmasının törətdiyi fəsadların ağır nəticələrə gətirməsi bağışlanmaz günahlardan hesab olunur. Çobalar da cəzadan xilas ola bilmirlər. Bir neçə qadın və kişinin eyni cür cəzalandırılması nəticəsiz qalmır.

Əsərin finalı ilə tanış olduqda hər şeyin ölçülüb-biçildiyinin şahidi oluruq: altı nəfər çiçəyə çevriləndən sonra hamı gördü ki, çəmənlikdəki saysız-hesabsız güllər də öz rəngində insan libasına bürünərək xalqa qoşuldular. Bu cəza tədbirindən sonra Misir xalqının gücü və qüdrəti daha da artdı, vətənpərvər insanların üzə çıxmasına təkan verdi. Saf təbiətdə böyümüş, çiçəklərdən, saf insanlar yarandı.

"Gülü Qah-Qah xanımın nağılı" da diqqətəlayiqdir. Burada milli və ümumbəşəri məsələlər fonunda gender problemləri öz əksini tapır. Əsərin əsas qəhrəmanı olan Gülü... xanım öz dərin ağlı, kamalı, gözəlliyi və cazibədarlığı ilə insanların sevgisini qazanmışdır. Doğrudur, onun gözəlliyindən əsərdə heç bir yerdə söhbət açılmasa da, yazıçı sənətkarlıqla bunlara oxucusunu inandıra bilmişdir; bütün varlığı ilə iki qüdrətli pəhləvanın ona aşiq olması və bu sevgi yolunda ölüm-dirim savaşına çıxması bu qadının əvəzolunmazlığından, gözəlliyindən soraq verir. Onların hər ikisi bu vuruşmadan salamat çıxmalarını heç ağıllarına belə gətirə bilməsələr də, geriyə dönməyi də böyük rüsvayçılıq hesab edirlər. Kimin uğrunda ölümə getdikərindən heç kəsin, hətta Gülü xanımın belə xəbəri olmadığı onlara ölümdən daha dəhşətli görünur və hər biri qərara gəlir ki, bu barədə ona xəbər göndərsinlər...

Bu gərgin səhnə oxucunu həyəcanlandırır, gözləri qarşısında bəşəriyyəti təhdid edən, dünyanın varlığını məhvə aparan, ölkələr daxilində qorxulu qarşıdurmalar yaradan müxalifət qarşıdurmalarını yada salır. Elmi texniki tərəqqi dövrünün məhsulu olan kütləvi qırğın silahlarının yer üzünün insansız xarabalıqlara çevrilməsi kimi dəhşətli nəticələri oxucunu bir daha sərt reaqllıqlarla üz-üzə qoyur. "Bəşəriyyəti gözəllk xilas edəcək" kimi məşhur kəlam son dövrlərdə daha çox gündəmə gəlmiş, söz ustaları bundan daha çox bəhrələnərək insanları doğru yola çəkməyə çalışmışlar. H. Cavidin "Şeyx Sənan" əsərinin qəhrəmanlrı xristian-müsəlman qarşıdurmasına rəvac verən din xadimlərinin güclü müqavimətindən xilas ola bilmirlər. N. Nərimanovun "Bahadır və Sona", Elçinin "Mahmud və Məryəm" romanında da bu motivlər hiss olunur. Zamanın güclü qüvvələri gəncləri faciələrə sürükləyir. Bu problemi Kamal Abdulla daha da genişləndirmiş, yeni bir müstəviyə çıxarmışdır.

Nəhayət, pəhləvanlar ayrı-ayrılıqda öz nümayəndələrini Gülü xanımın hüzuruna göndərirlər. Onlardan biri xanıma qiymətli daş-qaşlar, digəri isə sehrli bir üzük (üzülk barmağa taxılarkən insan görünməz olur) hədiyyə göndərir, onun uğrunda ölümə getdiklərini etiraf edirlər.

Bütün bu çıxılmaz hadisələr fonunda Gülü xanım ağır bir yükün altına girdiyini dərindən dərk edir və kədərlənir. Dünyanın taleyinin onun əlində olduğunu hiss edir və həm də başa düşür ki, həlli müşkül, sehrli görünən məsələlərin hər birindən çıxış yolu var və bunu həll edə bilən o nadir insanı tapmaq lazımdır...

Ədib hekayədə xırdaçılıqlardan, uzunçuluqda qaçmaq üçün şərtiliklərdən məharətlə bəhrələnir; çağrılmış sehrbaz məsələni çözür və Gülü xanıma deyir ki, əgər razı olsan, sənə bənzər, səndən heç cür seçilməyən bir qadın da yarada bilərəm və hər iki pəhləvanı razı sala bilərik. Hekayə belə bir xoşbəxt sonluqla sona yetir.

Əsərd adi ailə-məişət fonunda bütün insanları daima gərginlikdə saxlayan, Qordi düyününə çevrilmiş qlobal problemlər, ondan məhəbbətin qüdrəti ilə çıxış yolları obrazlı şəkildə əks olunmuşdur. İnsanlar arasındakı münasibətlər sevgi-məhəbbət çərçivəsini aşaraq dünyaya sığmır. Müxtəlif dinlər, ideologiyalar, dövlətlər, onların daxilində gedən antiqonist çarpışmalar və bunları tənzimləyən qarşılıqlı sevgi, qarşılıqlı məhəbbət! Budur Azərbaycan multukulturalizini bütün dünyaya yayan Kamal Abdullanın böyük məhəbbətinin məqsəd və məramı. Ədib bütün dünyaya

Azərbaycan zirvəsindən nəzər salır və təbii ki, öz dərd-sərimiz, uğurlarımız də diqqətdən kənarda qalai.

Ali baş komandanın yer üzünün diqqətini ölkəmizin haqq işinə yönəldə bilməsi və analoqu olmayan, orijinal sərkərəlik istedadı II Qarabağ müharibəsini qalibiyyətlə və minimum itki ilə (Belə müharibələrdə itkilərin saysız-hesabsız olması tarixdən məlumdur!) sona çatdırdı. O, ölkəmizi müharibəyə məcbur etmiş canilərə qarşı nə qədər sərt mövqe nümayiş etdirsə də, adi, günahsız erməni xalqını bu kateqoriyaya daxil etmədi. Artıq sülh müqaviləsinin imzalanması çox da uzaqda deyil. Əsərdə hər iki tərəf razı qaldığı kimi, həyatda da hər iki ölkə üçün böyük əhəmiyyətə malik məsələlər təsdiqini tapacaqdır.

Gulu xanım obrazını həm də ölkəmizin simvolu kimi düşünmək olar. Müharibə şəraitində atılan hər bir addım, təbii ki, qapalı bir mühitdə, dönə-dönə ölçülüb-biçildikdən sonra reallaşır. Hədiyyə olunmuş üzuyün görünməzlik donuna bürümə qabiliyyəti əvvəlki cümlədəki fikirlərlə uzlaşır. Digər pəhləvanın hədiyyəsində belə bir xüsusiyyət olmasa da, o da Gülü xanımı – Vətəni sevir. Lakin belə gərgin bir situasiyada o, birinci pəhləvan qədər manevr etmək imkanı yoxdur. Hekayə müharibədən xeyli əvvəl yazılsa da, müharibədən sonrakı hadisələr yazıçının uzaqgörənliyini təsdiq etdi; böyük bir qələbəni qələbə kimi qəbul etməyən bəzi müxalif yönlü qruplaşmalar insanları çaşdırmağa çalışırdılar. İnsanların əksəriyyəti tərəfindən dəstəklənməyən bu fikir tərəfdarları yaxın zamanlarda gözlənən sülh müqaviləsindən sonra yanıldıqlarını daha aydın başa düşəcəklər.

Göründüyü kimi hekayə böyük tutuma malikdir və dünya modeli təsiri bağışlayır. Azərbaycan isə bunun mərkəzində yerləşmişdir. Həm coğrafi mövqeyi, həm də bayrağındakı üç rəngin kombinasiyası ona Şərqlə Qərbin arasında möhtəşəm bir körpü rolunu oynamağa imkan verir. Gülü xanım burada da nəhəng bahadırların bir məxrəcə gəlməsində öz vasitəçilik missiyasını unutmur. Kamal Abdullanın "Gülü Qah-Qah xanımın hekayəsi" də onun başqa əsərləri kimi yüksək bədiiliyi və lakonikliyi ilə seçilir. Onun əsərlərinin dərin qatlarına baş vura bilən bütün oxucuların öz vətəni, onun gələcəyi ilə fəxr etməsi şübhəsizdir. Eyni zamanda dünyanın sabitləşməsinə Azərbaycanın da töhvələri hiss olunur. Məncə, "Barmağında üzük" olan yurdumuz intibah dövrünə qədəm qoymağa yaxınlaşır və K. Abdullanın bütün yaradıcılığı da bu dövrə koklənmişdir və o, intibah ədəbiyyatımızın analoqu olmayan əsərlərini yaratmaqdadır. Deyilənlərin təsdiqini zamanın öhdəsinə buraxıram, ən dolğun cavabı o verəcəkdir.

**Açar sözlər**: Kamal Abdulla, Gender problemi, "Çəngəl çiçəyi".

# QUEER NƏZƏRİYYƏSİNƏ TARİXİ YANAŞMA

**Əminə Məmmədova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Amina.Mammadova@student.au.edu.az

Bəzi mədəniyyətlərdə digər cinslər tanınsa da, Qərb cəmiyyətində insanların zahiri cinsinə uyğun gələn iki gender rolundan birinə uyğunlaşması gözlənilir, məsələn, kişi və qadın. Bir çox araşdırmalara görə gender kimliyi məsələləri cinsi oriyentasiya məsələlərindən fərqlidir. Belə ki, cinsi oriyentasiya anlayışında tək kişi və qadın cinsindən bəhs edilmir, bura müxtəlif terminlər əlavə olunur. Müasir dövrdə də bir çox şəxsləri əhatə edən və cəmiyyətin əksər üzvləri tərəfindən qəbul edilməyən LGBTQİA+ anlayışı məhz cinsi oriyentasiyaya aid edilir [5, s.330], [9, 11].

LGBTQİA+ termininə daxil olan queer termini bir sıra cinsi oriyentasiyaları və gender kimliklərini təsvir etmək üçün bir vaxtlar alçaldıcı termin kimi istifadə olunsa da, hal-hazırda heteronormativliyə və homonormativliyə müqavimətin siyasi ideyalarını əhatə edir. Belə ki, LGBTİQA+ şəxsiyyətlərinin tam spektrini təsvir etmək üçün tez-tez çətir termini kimi də istifadə olunur [6, 9].

"Queer" ingilis dilində "qəribə" sözü olub, zaman keçdikcə qismən LGBTQİA+ hərəkatı kontekstində, mədəni olaraq marjinal cinsiyyətə sahib olan şəxslərin bir reaksiya olaraq qəbul etdiyi və mənfi mənalarına baxmayaraq özlərini tanımağa başladıqları bir sözə çevrildi. "Queer" sözü, xüsusilə 1990 -cı illərdə ənənəvi lezbiyan və gey araşdırmaları zamanı ortaya çıxan yeni bir nəzəri perspektivin adı oldu. Queer nəzəriyyəsi adlanan bu konseptuallaşdırma modeli heç bir sabit və ya verilmiş şəxsiyyət kateqoriyasını qəbul etmədiyi üçün demək olar ki, hər sahədə müzakirə mövzusu ola bilər və özünəməxsus perspektiv yarada bilər. Queer nəzəriyyəsi, lezbiyan və gey tədqiqatları kontekstində irəli sürülmüş və postmodernizmlə əlaqələndirilə bilən ən son akademik nəzəri yanaşmalardan biridir [4, s.11], [1, s.6], [10].

"Queer" sözü XIX əsrdə homoseksualları təsvir etmək üçün istifadə edildiyindən queer nəzəriyyəsi də özünü şəxsi və ictimai formalarda cinsiyyətin öyrənilməsində izləyir. Beləliklə, cinsi bərabərliyə queer yanaşma şəxsiyyətə əsaslanan LGBT təbliğatını çətinləşdirir, çünki queer düşüncə daha çətin və axıcı perspektivi ifadə edir. 1990-ci ildə "Kuir Nəzəriyyəsi"nin əsasını qoyan məşhur Amerikalı filosof və gender nəzəriyyəçisi Judith Butlerin düşüncələrinə görə isə, queer qatı, stabil olmayan, hər hansı bir bioloji cins və gender kimliklərini qəbul etməyən şəxslərdir. Kuir nəzəriyyəsinə görə, qadınlıq və kişilik sosial rollardır və dövrün iqtidar strukturları tərəfindən müəyyənləşdirilir [1, s.6], [12].

Butler, queer nəzəriyyəsinin əsas nöqtəsi olaraq görülən "Gender Trouble" (Gender Trouble, 1990) kitabında feminist hərəkatın kişi və qadın dixotomiyası əsasında şəxsiyyətləri ikiqat artırmasını, fiksasiya etməsini və məhdudlaşdırmasını tənqid etmiş, fərqli şəxsiyyətlərə qarşı maye kimliklər təklif etmişdir. Qərb feminizminin özünü digər feminizmlərə universal bir nəzəriyyə

olaraq təqdim etməsi və bunun vasitəsilə bir növ çoxalması və tətbiq edilməsi tənqidi edirdivə Butler heteroseksuallığın özünü bir norma olaraq təqdim etdiyini vurğuladı [2, s.396,397].

Genderin performativ olduğunu deyən feminist Judith Butler 1990-cı ildə "Gender Problemin"i yazanda qeyd edib ki, "ifadələr" bizim cinsimizin nəticəsi deyil, onun yaradıcılarıdır. Digər tərəfdən, yalnız iki fərqli cins, qadınlıq və kişilik olmadığını, həm də müəyyən stereotiplərə sığmayan bir çox cinslərlə qarşılaşdığımızı əsas gətirən Butler performativ gender konsepsiyası heteronormativliyi rədd etdi və daim normalardan yayınmağı təklif etdi. Onun fikrincə, gender sosial olduğu qədər də mədəni mənşəli bir quruluşdur. Butlerin poststrukturalist nəzəriyyəçi olduğunu söyləmək olar [7, 8].

Queer nəzəriyyəsini Butlerdən əvvəl Paul Godman 1969-cu ildə "The politics of Being Queer" kitabında bəhs etmiş, lakin 1990-ci illərdən daha geniş istifadə olunmağa başlamışdı. Məsələn, bu adı birbaşa iddia edən ilk LGBT təşkilatı Queer Nation mart ayında qurulmuş və "Queer nəzəriyyəsi" ilk dəfə Theresa de Lauretis tərəfindən Kaliforniya Universitetində keçirilən konfransın adı kimi təqdim edilmişdi [3, s.17].

Michel Foucault tərəfindən "The History of Sexuality" əsərində isə yazırdı ki: "Cinsəllik zalım gücə qarşı azadlıq mübarizəsinin motivi deyil, onun fəaliyyətində mərkəzi rol oynayan mexanizmdir. Bu mexaninizmdə Judith Butler və onu izləyən queer nəzəriyyəçiləri əsas dayaqlarından birini təşkil edir. Bu nəzəriyyəçilərin fikrincə, bioloji "mahiyyət"ə aid olduğu güman edilən "(bioloji) cins" anlayışı əslində bu sistemin hökmranlığı altındadır və buna görə də "bioloji bədən"in təbiiliyi şübhə altına alınmaldır" [3, s.18], [8].

Queer nəzəriyyəsindən bəhs edən Annamarie Jagose "Queer teori:bir giriş" adlı kitabında qeyd edir ki: "queer xromosom cinsi analitik modelləri cins və cinsi istək arasında dəyişməz, lakin uyğun olmayan əlaqələri effektiv şəkildə ortaya qoyan ifadələrlə müəyyən edir" Jagose kitabında qeyd etdiyi kimi, "queer" nəzəriyyəsi tez-tez lezbiyan və gey tədqiqatlarının bir hissəsi və ya davamı olaraq görülür, başqa sözlə desək, "queer" nəzəriyyəsi bizə bütün fərqli şəxsiyyətləri qiymətləndirərkən sabit meyar kimi qəbul etdiyimiz "kişi" və "qadın" kimi sualsız qəbul etdiyimiz anlayışların doğruluğunu şübhə altına almağa vadar edir [4, s.11,13].

Belə nəticəyə gələ bilərik ki, Queer nəzəriyyəsinin xüsusiyyətləri aşağıdakılardır:

- Heteroseksist mütləq kimlik və cinsəlliyin bütün təriflərinə ziddir.
- Teorinin şəxsiyyət anlayışı çoxsaylı, ziddiyyətli, parçalanmış, tutarsız, qeyri -sabit və axıcıdır. Bu mənada onun perspektivi homoseksual hərəkatdan fərqlənir.
- İnterseks və ya biseksual kimi qeyri-müəyyən cinsi əlaqəni asanlıqla problem yaratmağa cəhd edə bilər.
- Fərdi cinsi oriyentasiyaları tənqid etmir.
- Təkliyin universallaşmasına qarşı çıxır.
- O, hüquqa əsaslanan bərabərlik və azadlığı müdafiə edən şəxsiyyət siyasətini və onun əsasını təşkil edən oxşarlıq siyasətini şübhə altına alır.
- Sorğuladığı yanaşmaları "fərqlilik" siyasəti ilə əvəz edir.
- Ən ümumi tərifində norma və normallığa ziddir.

**Açar sözlər:** queer, gender, heteronormativlik, cinsi oriyentasiya, sosial roller.

**Ədəbiyyat**

1. Əliyeva Ü., Kamilsoy N. Gender Bələdçisi. Bakı, 2019, 38 s.
2. Altunbek L. Cinsel Yönelimler ve Queer Kuram, 2014, sayı 65-66.
3. Güçlü Ö., Yardımcı S. Queer Tahayyül
4. Jagose A., çeviren Toprak A Queer Teori Bir Giriş. NotaBene-KaosGl, 2015, 160 s.
5. Zastrow C. Sosyal Hizmete Giriş, 2014, 834 s.
6. https://aifs.gov.au/cfca/publications/lgbtiq-communities
7. https://birikimdergisi.com/dergiler/birikim/1/sayi-308-aralik-2014/2477/queer-teori-ekseninde-lgbti-hareketi-ve-feminizm/6599
8. https://www.sosyologer.com/queer-teori-nedir-ne-degildir/
9. https://outrightinternational.org/content/acronyms-explained
10. http://postdergi.com/dogru-ve-duzgun-olmayanlarin-siyaseti-olarak-queer-bir-kimliksizlik-projesi/
11. https://www.clgs.org/multimedia-archive/an-lgbtqia-vocabulary-resource-for-faith-communities-2/
12. https://www.e-ir.info/2018/01/07/queer-theory-in-international-relations/

# AZƏRBAYCAN NAĞILLARINDA GENDER ASİMMETRİYASININ İFADƏSİ
## (İngilis nağıl mətnləri ilə müqayisədə)

**Sevinc Mirzəyeva**
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
e-mail: eminsevinc1@mail.ru

Məlumdur ki, gender münasibətlərinin tənzimlənməsində ən vacib oriyentirlərdən biri kişi və qadın haqqlarının bərabərliyinin tanınması rol oynayır. Gender bərabərliyi – cins özəlliyindən asılı olmayaraq və təbii olan cins fərqliliklərinin spesifikasından sui-istifadə etmədən bütün cəmiyyət fərdlərinin insan hüquqlarının eyni dərəcədə qorunmasını ehtiva edir. Beləliklə, bu kontekstdə eləcə də o da nəzərdə tutulur ki, qadınların kişilərə nisbətən, əsas etibari ilə daha zəif fizioloji göstəricilərə malik olması, onların ikinci dərəcəli insan olması anlamına gələ bilməz. Lakin istər Azərbaycan dilində, istərsə də digər Dünya dillərində müşahidə edilən söz və ifadələrin etimoloji təhlili və ya lüğəvi izahı onların (həmin leksemlərin və frazeologizmlərin) heç də hamının və həmişə bu prinsipi gözlədiyini düşünməyə əsas vermir. Belə ki, tolerantlıq doktrininin XX əsrdən etibarən (yəni, postmodern eranın "qədəm qoymasından" sonra) hegemon doktrinə keçməsi ötən yüzilliyin son iki onilliyində gender araşdırmalarına diqqəti gücləndirməklə bərabər, gender

dilçiliyin formalaşıb öz tədqiqat aparatı, təhlil metodları və araşdırma "yol xəritəsi" ilə zənginləşməsinə təşviq etdi [6, s.5-14].

"Androsentrizm" olaraq səciyyələndirilən gender asimmetriyasının dildə təzahür xüsusiyyətlərini araşdırmış bir çox tədqiqatçıların ortaq rəyinə görə, dil cəmiyyətdə gedən prosesləri adekvat şəkildə əks etdirdiyinə görə, real olaraq, sosiumda müşahidə edilən kişi dominantlığını inikas etdirməyə bilməzdi [5, s.1384] . Yəni, müasir dünya düzəni öz kökündə patriarxat formatı ilə yaradılmış cəmiyyət quruluşuna istinad etdiyindən, cəmiyyətin hətta ən yüksək inkişaf səviyyəsinə çatmasına, kosmosu fəth edib, işıq sürətli məlumat ötürücüyünə malik qadcetlər yaratmasına baxmayaraq, bəşər dilində rudiment səviyyədə daha erkən təfəkkür dönəminə xas olan elementlər yaşadılmaqdadır. Müqayisə üçün onu xatırlatmaq olar ki, müasir insan öz təfəkkür səviyyəsinə və intellektual məlumatlılıq göstəricələrinə görə, əcdadlarından çox irəli getmişdi və Dünyanın quruluşu, onun Günəş sistemindəki mövqeyi ilə bağlı informasiyalara ən erkən yaşlarından bələddir. Lakin bununla belə, bir çox inkişaf etmiş dünya dillərində "Gün çıxdı", "Gün batdı" kimi ifadələrin öz içləkliyini saxlanması "sadəlöhv dünya mənzərəsinin" rudiment izləri kimi səciyyələndirilə bilər. Yəni, təfəkkürün inkişafı fonunda dildə "daşlaşmış" ifadələr səviyyəsində Dünyanın düz formada olması, Günəşin "batıb-çıxması" kimi primitiv inanclar "mühafizə" edilməkdədir. Eynilə gender asimmetriyasında da analoji situasiyaları müşahidə etmiş oluruq. Belə ki, rus, ingilis, çex, polyak, [2], [1, s.85-88], eləcə də Azərbaycan [3, s.126-130] və bir çox başqa inkişaf etmiş Dünya dillərinin materailları əsasında aparılan təhlillər gender asimmetriyasının universal hadisə olmasına heç bir şübhə yeri qoymur.

Azərbaycan xalq nağıl mətnlərinin gender asimmetriyasının təzahürlərinin təhlili aspektində araşdırılması onu deməyə əsas verir ki, Azərbayacan dilində də maskulin anayışların femin anlayışlardan üstün tutulması, maskulinliyin müəyyən etalon göstəricsi kimi nəzərdən keçirilərək müvafiq frazeologizmlər üçün semantik nüvə təşkil etməsi və s.hallar kütləvi şəkildə müşahidə olunur. Məsələn, *Amma orasını bilirəm ki, mən, kişiyəm, ona da* ***kişi kimi söz vermişəm****.* ("Daşdəmirin nağılı" ); *Fatmaxanımın atası* ***qorxaq və arvadağız bir kişi idi****.* ("Dünya gözəli ilə sarı inəyin nağılı" ). Nümunələrdən də aydın şəkildə göründüyü kimi, "**kişi kimi**" burada birmənalı şəkildə pozitiv anlam ifadə etdiyi halda, **arvadağız** isə epiteti qeyd-şərtsiz olaraq, peyorativ funksiyasını icra edir. Müqayisə üçün xatırladaq ki, ingilis dilində "**kişi kimi söz vermək"** frazeologizminin semantik nüvəsinə yaxın olan **gentleman's agreement** frazeoloji vahidi mövcuddur. Və son dövrlər dildə gender neytrallığının bərqərar olunmasının tərəfdarları kimi çıxış edən bir qisim alimlər (konkret olaraq, Cardiff Metropolitan University araşdırmaçıları) həmin ifadənin **Unwritten agreement, agreement based on trust** ifadələri ilə əvəzlənməsini təklif etmişlər [4]. Eləcə də, Azərbaycan nağıllarının dilində həyat yoldaşına və ya hər hansı bir qadına "**arvad**" deyə xitab halları kütləvi şəkildə yer alır (***Arvad****, çörəkdən-zaddan bağla, mən uzun bir səfərə gedirəm.* ( "Şəms-Qəmər" nağılı ). Müqayisə üçün deyək ki, ingilis nağılları mətnlərində həyat yoldaşına **my love** romantik məzmunlu vokativi ilə müraciətlərə daha tez-tez rast gəlinir (.. *and Mr. Vinegar said: "****My love****, I will climb up into a tree, drag up the door, and you shall follow.*" ("Mr. Vinegar"); "*All right,* ***my love****," says Mrs. Miacca, and off he goes.* ("Mr. Miacca" ). Heç şübhəsiz ki, bu faktların tam əks mahiyyət kəsb etməsində Azərbaycan mentallığında ər-arvad

sevgisinin nümayişinə qoyulan qəti və şərtsiz tabu faktoru həlledici rol oynamışdır. Nümunə üçün xatırladaq ki, məhz, həmin tabunun qarşılığında "**evin xanımı, uşaqların anası**" kimi evfemistik ifadələr meydana gəlmişdi.

**Açar sözlər:** Gender asimmetriyası, Azərbaycan xalq nağılları, ingilis xalq nağıl mətnləri, kişi, arvad.

### Ədəbiyyat

1. Васина А.В. Сексизм или гендерная ассиметрия в языке (на материале английского языка) Культура народов Причерноморья, 2006, № 76, с. 85-88.
2. Doležalová L. Гендерная асимметрия в языке на материале русского, польского и чешского языков https://philol-forum.uni-sofia.bg/wp-content/uploads/2016/06/10-Lenka-Dole%C5%BEalov%C3%A1-49-52.pdf
3. Əliyeva K.R. Azərbaycan dilində gender stereotiplərini ifadə edən frazeoloji vahidlər haqqında ("AİLƏ" konsepti çərçivəsində), Gəncə Dövlət Universiteti, 2015, №2, Gəncə, 2015, s.126-130.
4. Hirkic M. "Gentleman's Agreement" And "Mankind" Banned In Favour Of Gender-neutral Terms, YouthTime magazine, 14. 03. 2017 https://youth-time.eu/gentleman-s-agreement-and-mankind-banned-in-favour-of-gender-neutral-terms/
5. Исламова Ф.А. К вопросу о гендерных отношениях в языке, Вестник Башкирского университета, 2015, Т 20, №4, с. 1383-1385.
6. Кирилина А.В. Особенности и тенденции развития гендерных исследований в российской лингвистике, Гендер: язык, культура, коммуникация, М.:МГЛУ, 2001, с.5–14.

## MƏKTƏB BULLİNQİNİN BAŞ VERMƏSİNDƏ GENDER ASPEKTLƏRİ SƏBƏB KİMİ

**Günel Mirzəzadə**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Gunel.Mirzazada@student.au.edu.az

Təəssüf ki, hər gün məktəbdə uşaqlar aralarında fiziki, psixoloji-sosial, verbal və digər növ manipulyativ bullinq halları yaşanır. Lakin bullinq halları təkcə növünə görə yox, cinsiyyət amillərinə görə də fərqlənir. Mövzunu daha ətraflı araşdıran zaman da görürük ki, oğlan və qız uşaqları bullinq törədərkən müxtəlif taktikalardan, metodlardan istifadə edə bilirlər. Ən sadə misalla deyə bilərik ki, bir çox araşdırmalar qadınların daha çox "relation agression" dediyimiz münasibətlərlə bağlı sosial-psixoloji, verbal; kişilərin isə daha çox fiziki bullinq törətdiyini qeyd edir. Əlbəttə bu o anlama gəlməməlidir ki, qadınlar qətiyyən fiziki şiddətə əl atmırlar və ya kişilərdə bullinqin emosional, sosial, psixoloji formaları görünmür. Lakin bu faktı da gözdən qaçırmamalıyıq

ki, bullinq cinsiyyətdən təsirlənməyə meyillidir. Ümumiyyətlə cinsi kimlik uşaqların həmyaşıdlarına fərqi formalarda ayaq uydurmasına, uyğunlaşmasına və ünsiyyət qurmasına yol aça bilər. Bu gün gender stereotipləri uşaqların cinsi rollarını qazanmalarında, sosiallaşma proselərində böyük rol oynayır. Məsələn oğlanlar güclü, müstəqil, dominant olaraq sosiallaşırsa qızlarda bu daha çox anlayışlılıq, həssaslıq, duyarlılıq və s. kimi özünü göstərir. [2] Bu səbəbdəndir ki, oğlanlar qızlara görə daha çox fiziki bullinq törədirlər. Zorbalığa, aqressiyaya meyilli olanlar zəiflik göstərən qurbanları seçib zorba davranışlarını sərgiləyirlər. Hətta bəziləri etdiyinin başqaları tərəfindən də qəbullanması və alqışlanmaq üçün hadisəni sadəcə kənardan izləyənlərdən ibarət olan qrup da təşkil edir. Beləliklə bullerlər adətən hadisələrin onlara gətirdiyi statusu və populyarlığı çox sevirlər, nəticədə daha təhlükəlisi, bu tip təhdidkar davranışlardan daha çox həzz almağa başlayırlar.

Bu kimi bir sıra fərqlərdən dolayı oğlan və qız uşaqları istər buller, istər qurban olaraq bullinqi fərqli təcrübə edirlər. Cəmiyyət tərəfindən impozə edilmiş rollara gör hərəkət etməyənlər isə adətən bəyənilmir və bir çox hallarda elə bu səbəbdən də bullinqə məruz qalan olurlar. Oğlanlarda zorbalıq böyük bir qisimdə "oğlan uşağı" kodlanmasından təsirlənir. Oğlanlar oğlan olmağın tələb etdiyi bir sıra "qayda və qanunları" mənimsəməyə toplum tərəfindən bir növ məcbur edilirlər. Cəmiyyət haqsız bir şəkildə oğlanlardan dominant, maço, güclü, atletik olmağı gözləyir. Cəmiyyətin gözləntisini doğrultmasan bu özəlliklərə sahib həmyaşıdlar tərəfindən bullinqin potenisal hədəfinə çevrilə bilirsən.

Cinsiyyətdən ən çox təsirlənən iki bullinq növü isə fiziki və sosial zorablıqdır. Bunlardan əlavə cinsi bullinqin də bir çox hallarda gender streotiplərindən qaynaqlandığını görə bilərik. Lakin oğlanların həmçinin psixoloji, sosial bullinq törətmələrini də istisna etməməliyik. Bir çox insan manipulyasiya, təcritemə, lağ, söz gəzdirmə kimi bullinq aktlarını oğlanlara uyğunlaşdırmır, halbuki bu hallar tez-tez baş verir. Tədqiqatçılar həmçinin qeyd edir ki, oğlanlar həm qızlara, həm oğlanlara qarşı bullinq törədir və onlar zorbalıq məsələsində daha açıq olmağa meyillidirlər, hansı ki, bu valideylər, müəllimlər və digər əlaqəli şəxslərin problemin daha erkən fərqinə varmaları üçün əslində bir ipucu ola bilər. Və bu faktı da nəzərə almaq lazımdır ki, bu cür hallar oğlanlar arasında daha tez sonlanmağa meyillidir. Çünki oğlanlar arasında bullinq hallarına daha çox rast gəlinir və onlar bu davranışları qızlardan daha çox qəbullana bilirlər. Bu səbəbdən bir oğlan ona qarşı bullinq edən bir bullerlə münasibətini saxlaya və ya hətta yenidən dost ola bilər. [2]

Qızlar arasında isə daha çox dolayı yollarla, münasibətlərlə bağlı sosial-psixoloji bullinqin geniş yayıldığını görə bilərik. Təcridetmə, söyləntilər yaymaq, dediqodu və s. aid edildiyi bu bullinq formalarını bullerlər çox yaxşı gizlətdikləri üçün ortaya çıxarmaq olduqca çətin olur. Oğlanlar kimi buller qızlar da qruplarını yarada bilirlər, lakin bu qruplar daxilində hər zaman bir rəqabət var və heç vaxt bir - birinə tam güvənmirlər. Məsələn lider qrupda ona yaxın gücdə olan birindən gücünü, liderliyini əldə edə bilər deyə hər zaman çəkinir. Ümumiyyətlə qızlar qrupda daha çox sosial status qazanmaq üçün buller ətrafına toplanırlar. Hətta etdiklərinin yanlış olduğunu bilsələr belə bu zorbalığa boyun əyirlər. Bunlardan əlavə cinsi bullinqə qızlar oğlanlardan daha çox məruz qalırlar. Cinsi tərkibli söyləntilər, mesajlarla bu cür zorbalığı yaşayırlar. [3]

Beləliklə görürük ki, araşdırmalar cinslər arasında bullinq hallarının baş vermə səbəbləri, formaları arasında fərqləri göstərdiyindən bu fərqləri təsbit edə bilmək də baş verəcək mənfi

halların əvvəlcədən qarşısının alınması nöqteyi nəzərindən çox önəmlidir. Əks təqdirdə bütün bu cür hallar gizli qalaraq bir çox məktəblinin həyatına hər yöndən təsir etməkdə davam edəcək. Ən pisi odur ki, gizli dövr nə qədər uzun sürsə o qədər şiddət artır və daha sonra öhdəsindən gəlmək də o qədər çətinləşir. Bu baxımdan tədqiqatçılar gender və gender streotiplərinin bullinqdə oynadığı rolun anlaşılmasının bullinq müdaxilələrində və bullinqin qarşısının alınma proqramlarında olduqca vacib bir komponent olduğunu irəli sürürlər. Məsələn bullinqin cinsi amillərdən necə təsirləndiyini anlayaraq müəllimlər, sosia işçi və psixoloqlar bullinq önləmə proqramlarını və strategiyalarını buna görə təşkil edə bilərlər. O cümlədən uşaqları çox kiçik yaşlarından cəmiyyətin gender streotiplərindən kənar tutaraq onların fitrətlərindən uzaqlaşmadan olmaq istədikləri biri olmaları üçün güvənli bir şərait yaradılmalıdır.

**Açar sözlər:** Bullinq, məktəb, gender, həmyaşıd, zorakılıq, buller, gender streotipləri.

## Ədəbiyyat

1. Silva M.A., Pereira B., Mendonça D., Nunes B., de Oliveira W.A. The Involvement of Girls and Boys with Bullying: An Analysis of Gender Differences” https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC3881143/
2. Blaylock B. Responding to Bullying by Gender https://scholarsarchive.byu.edu/cgi/viewcontent.cgi?article=1159&context=intuition
3. https://www.aauw.org/resources/research/crossing-the-line-sexual-harassment-at-school/

# ŞƏXSİYYƏTİN İNKİŞAFINDA GENDER STEREOTİPLƏRİNİN YERİ VƏ ROLU

**Elza Mollayeva**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: elzamollayeva@rambler.ru

Müəyyən sosial-tarixi şəraitdə yaşayan şəxsiyyətin formalaşmasına bir sıra amillər öz təsirini göstərir. Bu amillər içərisində stereotiplər əsaslı rola malikdir və cəmiyyət hələ də onlardan azad ola bilmir. Çünki stereotiplərin təfəkkürdə möhkəmlənməsi bir neçə onilliyin deyil, qərinələrin, əsrlərin yaşı ilə ölçülür. Stereotip yunan dilində «möhkəm iz» mənasını verir və öz mahiyyətinə görə etnik və sosial stereotiplər qrupuna bölünür. Etnik stereotiplər müəyyən xalqın və ya etnosun mental dəyərlərindən, adət-ənənələrindən qaynaqlanır. Sosial stereotiplər isə sosiallaşma şəraitində, şəxsiyyətlər arası münasibətlərdə təzahür edir. Hər iki kateqoriyadan olan stereotiplər güclü təsirə malikdir və bu gün də insanlar öz gündəlik həyatlarında onlarla ayaqlaşmalı olurlar. «Sosial stereotiplər» terminini ilk dəfə 1922-ci ildə U.Lipman «İçtimai fikir» əsərində işlətmişdir.

Sosial stereotiplər içərisində daha geniş yer tutan gender stereotipləri cəmiyyətdə mövcud olan stereotiplər içərisində güclü psixoloji-sosioloji və pedaqoji təsir gücünə malikdir. «Onlar

qadın və kişilərin həyatda davranışına dair cəmiyyətdə tərtib edilmiş, ümumiləşdirilmiş təsəvvürlərdir» [1].

Gender stereotipləri «qadın» və «kişi» anlayışlarına aid davranış və xüsusiyyətlərin standartlaşdırılmış təsəvvürüdür və onlar insanın özünüdərketməsində, şəxsiyyətlərarası münasibətlərdə özünü göstərir. İ.S.Klesinaya görə «gender stereotipləri qadın və kişilərin özünüreallaşdırmasına, fərdi inkişafında maneələri dəf etməsinə öz mənfi təsirini göstərir» [2, s.73].

Gender stereotiplərindən danışarkən bir məsələni xüsusilə vurğulamaq lazımdır: Qərb ölkələrinin gender stereotipi kimi qəbul etdiyi bəzi xüsusiyyətlər Şərq ölkələrində mental dəyərlər kimi qəbul edildiyindən bu məsələdə həssas yanaşma vacibdir.

Gender stereotiplərinin təsir gücünü üç səviyyəyə bölmək olar:

1.Yüksək səviyyə-bu səviyyədə cəmiyyətdə mövcud olan şəxsiyyətlərarası münasibətlərdə patriarxal model, feminlik-maskulinlikdəki stereotiplər güclüdür və bu qadın-kişi əmək bölgüsündə, ailə daxili vəzifələrin bölgüsündə ifadə olunur. Bu səviyyə daha çox avtoritar ailə tipinə üstünlük verən Şərq ölkələri üçün xarakterikdir.

2.Orta səviyyə- gender təsəvvürləri qarışıq modelə əsaslanır, belə ki, burada patriarxal model ilə eqalitar modelin xüsusiyyətləri birləşir.

3.Aşağı səviyyə-gender davranışı və dünyagörüşü eqalitar modelə əsaslanır.

Gender stereotipləri mahiyyətinə görə üç qrupa bölünür:

Birinci qrupa daxil edilən maskulinlik və feminlik haqqındakı stereotiplər maskulinlik və feminlik haqqındakı sosial-psixoloji keyfiyyətləri, davranış tərzini və şəxsi keyfiyyətləri əks etdirir. Mənbəyi hələ antik dövrdən başlayan bu stereotiplərə vaxtilə qədim yunan mütəfəkkirlərindən Platonun, Aristotelin əsərlərində rast gəlmək olar. Aristotel kişini işıq, qadını qaranlıq və ya kişini nizam, qadını isə xaos kimi səciyyələndirirdi. «Kişi-maskulin»lik müsbət, əhəmiyyətli, dominantlıq edən, rasional, mədəni, fəal-yaradıcı, «qadın-feminlik» isə mənfi, ikincidərəcəli, emosional, günahkar, passiv-reproduktiv sayılır.

A.Maslouya görə «kişi» və «qadın» məfhumu heç də təzahürün mahiyyətini əks etdirmir, belə ki, bir çox hallarda cəmiyyət tərəfindən kişiyə aid edilən xüsusiyyətlərə qadınların bir çoxunda rast gəlinir, və ya əksinə [4, s.85].

Bu qrupa daxil olan gender stereotipləri daha davamlı və uzunömürlüdür. Onlar sosil münasibətlər zəminində əhalinin çox hissəsi tərəfindən nəsildən-nəsilə ötürülür. Belə stereotiplərin hökmran olduğu şəraitdə yaşayan və buna baxmayaraq öz imkanlarını, qabiliyyətlərini reallaşdırmaq istəyən qadın, cəmiyyətin qadın və kişi haqqındakı patriarxal səciyyəli təsəvvürləri ilə qarşılaşır. Qadının kişilərə məxsus yüksək statuslu, yaxşı ödənilən işə keçməsi yolundakı mədəni, hüquqi və təhsil baxımından maneələr onun özünü reallaşdırmasına mane olur.

İkinci qrupa daxil olan gender stereotipləri ailə və peşə rollarının bölünməsi ilə bağlı olub, qadını ailədəki rolu ilə, kişi isə peşə sahəsindəki rolu ilə xarakterizə edir və onların şəxsi uğurları bu sahədə əldə etdikləri nailiyyətləri ilə ölçülür. Beləliklə də qadın özünü mikromühitdə (ailədə, məişətdə), kişi isə makromühitdə (işdə, siyasətdə, elmdə) reallaşdırmalıdır. Qadının fəaliyyətinin yalnız ailə və məişətlə uzlaşdırılması barədə sosioloqlar, psixoloqlar və pedaqoqlar arasında müəyyən fikir ayrılığı vardır. Ancaq ailədəki rolu ilə qadını səciyyələndirən müəlliflərdən fərqli

olaraq, digərləri onun bu passiv fəaliyyətini mənfi hal kimi qiymətləndirirlər, çünki işləyən qadın daha müstəqildir və o, ərinin, uşaqlarının problemini daha yaxşı başa düşür. Q.V.Tureskayaya görə «iş qadınları» özləri də «uğura görə qorxu» sindromuna görə iki qrupa bölünürlər: birincisi karyeraya, ikincisi isə ailəyə istiqamətlənib [3, s.42]. Ancaq hər ikisi ailəyə kifayət qədər diqqət ayırmadıqlarına görə özlərini günahkar hesab edirlər .

Kişinin ailədə, ailə tərbiyəsindəki rolu da gender stereotipləri aspektindən aktualdır. Kişi demək olar ki, ailə işlərinə özünü bütünlüklə həsr etmir, onun «kişi» vəzifələri ailədənkənar çərçivəyə çıxır.

Üçüncü qrup gender stereotipləri qadın və kişi əməyinin məzmununu özündə ifadə edir. Qadın əməyi daha çox icraedici və xidmət sahəsinə, kişi əməyi isə instrumental fəaliyyət (yaradıcı, rəhbər) sahəsinə aid edilir. Bundan başqa qadınlar kişilərə nisbətən əmək bazarında daha çox işsizlik və diskriminasiyaya məruz qalırlar.

Müasir dövrdə ən geniş yayılmış gender stereotiplərini tədqiqatçı L.S.Safonova belə təsnifatlandırmışdır: 1. Ərli olmaq, ərlilik –norma əlamətidir. 2. Qadın həmişə yaxşı görünməlidir. 3. Ərli qadın daha yaxşıdır. 4. Kişi sərxoş da olsa bu onu pozmur. 5. Qadın dünyaya uşaq gətirməlidir. 6. Qadın tipik kişi peşəsinə yiyələnməyə can atmamalıdır. 7. Kişi yaxşı qazanandır. 8. Kişi müdafiəçidir. 9. Kişi əsasdır və o nəslin davamçısıdır. 10. Kişi bacarır, qadın nəyi isə etməyə borcludur. 11. Qadın öz davranışını kişiyə uyğunlaşdırmalıdır. 12. Qadın və kişi öz münasibət-lərində seksual tərəfmüqabili kimi görünürlər. 13. Qadın seksual və cəlbedici olmalıdır.14. Qadın bakirə qız olaraq ərə getməlidir. 15. Ailədaxili münasibətlərdə məsuliyyət qadının üzərinə düşür. 16. Analıq qadın həyatının əsasıdır.17. Qadın asanlıqla ələ keçirilməməlidir, kişi qadını əldə etməli, qazanmalıdır [4, s.243-244].

Maskulinlik və feminlik stereotiplərinin tədqiqatından belə nəticəyə gəlmək olur ki, universal şəkildə olan bioloji determinasiya ilə müqayisədə fərqlərin sosial və mədəni determinasiyası xüsusi əhəmiyyətə malikdir. Cins kişi və qadınlar arasındakı fərqlərin yalnız 5%-ni izah etdiyi halda, fərqlərin 95%-i isə sosiallaşma şərtləri ilə bağlı olur.

Müasir dövrdə sürətli qloballaşma prosesi cəmiyyətə bütün rakurslarda yenidən baxışı aktuallaşdırır və artıq mental dəyərlər, stereotiplər bu prosesin təsiri ilə dəyişmə dövrünə qədəm qoyur. «Gender senzurası» cinslərin özünüreallaşdırmasında bioloji deyil, sosial amilləri önə çəkməklə, məsələni bioloji müstəvidən sosial müstəviyə keçirir. Əlbəttə cinslər arasındakı fizioloji fərqlər inkaredilməzdir və hər bir cinsin bioloji-reproduktiv funksiyası mövcuddur. Cəmiyyətdə qadın və kişi müxtəlif sosial rolları yerinə yetirirlər. Ancaq bu rolların yerinə yetirilməsində «cinslərin təbii təyinatı» haqqındakı mifə deyil, real həyata əsaslanmaq lazımdır. Çünki gender «sosial cinsdir» və o, cinsindən asılı olmayaraq insanların cəmiyyət həyatında bərabər sosial iştirakını vurğulayır.

Qərbə inteqrasiya kursunu bütün sahələrdə prioritet vəzifələrdən biri kimi qəbul edən Azərbaycan Şərq ölkələrinə məxsus mental dəyərlərə malikdir. Bu dəyərlər içərisində mütərəqqi, Avropanın özünün belə ibrət götürəcəyi davranış normaları (ağsaqqal, ağbirçəklərə hörmət), ailədaxili münasibətlər sistemi var. Bu dəyərləri gender stereotipləri kimi qəbul edib milli

xüsusiyyəti stereotiplərlə dəyişik salmaq olmaz. Stereotiplər daha çox mürtəce xarakterə malikdir və bu üzdən, cəmiyyətin həm kişidən, həm də qadından ailəyə, peşə seçiminə, siyasətə, adət-ənənəyə riayət edilməsində, ordu və müharibəyə, uşaqların tərbiyə və qayğısına qalmasında, yüksək gəlir əldə edilməsinə, nikaha girməsinə münasibətdəki fərqlər dərindir. Eyni zamanda kişilərin davranışındakı müstəqillik və qadın davranışına kişilər tərəfindən ciddi nəzarətin olması, peşə seqreqasiyası, cəmiyyətdəki cinsi diskriminasiya da gender stereotiplərinin reqressiv mahiyyətini göstərir.

Gender stereotiplərinin təhlili cəmiyyətdə kişilərin gender rolu haqqında mifləri və qadının cəmiyyət həyatındakı məhdud fəaliyyətini üzə çıxarmağa kömək edir. Bu mərhələdə gəlinən nəticəyə görə gender stereotiplərinə kor-koranə riayət edilməsi cinsindən asılı olmayaraq insanın özünüreallaşdırmasına və ümumilikdə həyat səviyyəsinin yüksəldilməsinə mənfi təsir göstərir.

Gender stereotiplərindən azad cəmiyyət hər bir üzvü üçün fərdi inkişafı nəzərdə tutmaqla balanslaşdırılmış sosial siyasətə əsaslanır. Avtoritar üsluba əsaslanan ailədaxili münasibətlərdən funksiyaların bərabər bölüşdürüldüyü eqalitar münasibətlərə keçid ilə cəmiyyət ənənəvi cinsi-rol haqqında təsəvvürlərdən kənara çıxır və bu da nəticədə stereotiplərin laxlamasına gətirib çıxarır. Bu gün gender stereotiplərinin sıxışdırılıb aradan qaldırılması üçün gender ekspertizasına əsaslanan tənqidi təfəkkür və gender bərabərliyi vacibdir.

**Açar sözlər:** şəxsiyyət, gender stereotipləri, sosial inkişaf, maskulinlik, feminlik.

## Ədəbiyyat

1. Gender terminlərinin izahlı lüğəti. (Tərtib edən və redaktoru R.İbrahimbəyova). Bakı: Bakı Universiteti nəşriyyatı, 2005.
2. Клецина И.С. Гендерная социализация. М., 1998.
3. Турецкая Г.В. Страх успеха: психологическое исследование феномена, Психологический журнал. 1998, № 1, с. 37-46.
4. Гендерные стереотипы и их влияние на поведение человека. Практикум по гендерной психологии. Под ред. И.С.Клециной. СПБ, Питер: 2003.

# CİNSİ VƏ GENDER BƏRABƏRSİZLİKLƏRİNİN MİNİMUMA ENDİRİLMƏSİNDƏ SOSİAL İŞİN ROLU

**Aygün Muradlı**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: aygun.muradly@au.edu.az

Gender bərabərliyi qadınlar və kişilər üçün bərabər hüquqlar, vəzifələr və imkanlar deməkdir. Gender bərabərliyi qadın və kişilərin fərqli qruplarının müxtəlifliyinin tanınması, qadın və kişilərin maraqlarını, ehtiyaclarını və prioritetlərini nəzərə almaq mənasını daşıyır. Qadın və kişi bərabərliyi yalnız fitri insan hüquqları deyil, həm də davamlı insan mərkəzli inkişafın əsas şərti və göstəricisidir [1].

Sosial işçilər sosial risk altında olan ailələrə sosial xidmət göstərirlər. Başqa sözlə, sosial işçilər profilaktika və müdaxilə tədbirləri ilə ailələrdə gender bərabərliyinə nail olmağa töhfə verə bilən insanlardır. Sosial işçilər sosial iş sektorunda gender bərabərliyini təmin edən, qadınların ictimai və şəxsi həyatda vəziyyətini yaxşılaşdıran müsbət dəyişiklikləri təşviq etmək potensialına malik olduğunu görərək gender stereotiplərini azaldmağa çalışırlar [3].

Ailədə bərabər rollar ailə münasibətlərinin keyfiyyəti ilə təşviq edilir. Mehriban mikroiqlim və yaxşı ünsiyyətin təsiri ailədə gender bərabərliyini axtarmaq üçün çox vacibdir. Həmçinin, ailədə gender bərabərliyinin arzuolunan olması üçün qarşılıqlı anlaşma vacibdir: "İlk növbədə, kişi və qadın gender bərabərliyinin nə olduğunu eyni şəkildə başa düşməlidirlər, çünki iki nəfər ailəyə fərqli dəyərlər gətirir [3].

Sosial işçilərin sosial risk altında olan ailələrdə gender bərabərliyi ilə bağlı perspektivlərini ümumiləşdirsək, qeyd etmək lazımdır ki, vəzifə və məsuliyyətlər ehtiyac və qabiliyyətlərə görə bölündükdə ailədə gender bərabərliyi qarşılıqlı razılaşma yolu ilə əldə edilə bilər. Qeyri-sabit sosial fəaliyyəti və münasibətləri olan sosial risk altında olan ailələr gender rolları ilə bağlı stereotiplərdən təsirlənirlər [4].

Sosial risk altında olan fərd və ya ailədə gender bərabərliyini təşviq etmək imkanlarını reallaşdırmağa çalışan sosial işçilər gender bərabərliyini təşviq etmək üçün bir sıra imkanlar təqdim edirək şəxslər ilə social iş prosesinə başlayırlar [2].

Peşəkar sosial işçilər hər iki cins üçün gündəlik fəaliyyət təqvimlərinin hazırlanması kimi iştiraklı gender təhlili metodlarından istifadə etməklə gender məlumatlılığının artırılmasında daha da önəmli nəticələr əldə edə bilərlər [5].

Sosial iş peşəsinin əsas məqsədləri arasında ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaq və kişilər və qadınlar arasında bərabərliyi təşviq etmək oladuğunundan gender əsaslı sosial iş çalışmaları bu tipli bərabərsizliklərin öhdəsindən gəlməyə kömək edəcəkdir [5].

Sosial stereotiplərə görə cinsindən asılı olmayaraq şəxsin bütün qabiliyyətlərini vurğulamağa başlamaq lazımdır, buna kiçik yaşlarından başlamaq lazımdır. Müxtəlif institutların və

mütəxəssislərin əməkdaşlığı da genderin əsas istiqamətə yönəldilməsi üçün vacibdir. Ailələrlə birbaşa təmasda olan və ya sosial işçilərlə komanda şəklində işləyən müxtəlif təşkilatların nümayəndələri ailədə gender bərabərliyini təşviq etmək kimi ümumi məqsədə nail ola bilərlər [1].

Mezzo və makro səviyyədə müdaxilələr cəmiyyətin sıravi üzvlərinə gender problemləri ilə bağlı sadə və başa düşülən məlumatların yayılmasını və xüsusilə uşaqların gender bərabərliyi mövzusunda maarifləndirilməsini əhatə edir. Fərqli qurumların və peşəkarlarla işbirliyi, gender sahəsində məlumatların əhatə dairəsinin genişlənməsi üçün də vacibdir.

**Açar sözlər:** gender bərabərliyi, sosial ədalət, insan hüquqları, sosial iş.

**Ədəbiyyat**


1. Gender Mainstreaming: Strategy for Promoting Gender Equality (2001). Access from the Office of the Special Advisor on Gender Issues and Advancemen of Women http://www.un.org/womenwatch/osagi/pdf/factsheet1.pdf (2015, May 24).
2. Guidelines for the Implementation of the Principle of Gender Equality for Lithuanian Municipalities (2005).
3. Bucait Vil e-Vilkė J., Quality of Family Relationships and Procreational Intentions, Gender Policy and the Future of Birth. Monograph. Kaunas: Vytautas Magnus University Publishing House, p. 153-175 (2012).
4. Šidlauskiene V., Politika Gender and Gender Equality Policy in Education: Construction of Gender - Oriented Models in Gender Education. Review of research papers. Šiauliai: Šiauliai University Press (2011).
5. https://www.iiste.org/Journals/index.php/RHSS/article/viewFile/14325/14633


## DEPRESSİYADA OLAN QADINLARLA İŞLƏYƏRKƏN MOTİVASİYALI İNTERVYUDAN İSTİFADƏ


**Fidan Muradova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: fidan1996@rambler.ru


Depressiya-hər bir insanın həyatı boyunca ən azı bir dəfə rastlaşdığı psixi pozuntudur. Gündəlik həyatımızda qarşılaşdığımız emosional dəyişkənliklərin hamısını depressiya kimi adlandıra bilmərik. Depressiyanın özünəməxsus əsas və əlavə simptomları vardır. İnsanda özünü biruzə verən simptomların sayından və bu simptomların özünü ifadə dərəcəsindən aslı olaraq yüngül,orta və ağır depressiya dərəcələri mövcuddur. Statistikaya diqqət etdikdə açıqca görürük ki, qadınlar kişilərə nisbətdə depressiyaya daha meyillidirlər. Bunun bir çox səbəbləri vardır: hormonal səbəblər,kişilərin öz xarakterik xüsusiyyətləri ,kişilərin emosiyalarını şiddətlə bildirməyə daha meyilli olmaları və s. Kişilər arasında ayrı yaşayan və boşanmış kişilərdə evli kişilərə nisbətən daha çox depressiya halı mövcuddur. Statistika göstərir ki, subay və ya dul qadınlarda evli qadınlara

nisbətdə depressiyaya daha çox rast gəlinir [3]. Qadınlar arasında iqtisadi vəziyyəti çox aşağı səviyyədə olan hamilə qadınlar və psixoloji xəstəlikləri olan uşaqların analarında depressiyaya daha çox rast gəlinir. Bu 2 qrup qadınlarda depressiyanın müalicəsi daha çətindir. Alan Zuckoff, Holly A. Svartz və Nancy K. Grotenin araşdırmasında görə bilərik ki, ruhi xəstəliklər dispanserinə övladını gətirən qadınların 61% -də depressiyanın əlamətlərinə rast gəlmək mümkündür. Və bu qadınların 2\3 hissəsi müalicə almırlar. Bu qrup qadınların müalicə almaması səbəbləri çox zaman oxşar olur. Bu səbəblərə misal olaraq:iqtisadi problemlər, pasientlərin ümidsiz olması,uşaqların baxımı,depressiyanı qəbul etməmə,utanma hissi və s [1]. Depressiyada olan qadınların çoxunda müalicəyə başlamaqla bağlı fikirlərində ambivalentlik özünü göstərir. Onlar həm müalicəyə başlamaq istəyirlər həm də yuxarıda sadaladığımız müxtəlif səbəblərə görə müalicədən çəkinirlər. Bu zaman konsultant pasienti müalicəyə cəlb etmək üçün "Motivasiyalı intervyu" (M.İ)-dan istifadə edə bilər. M.İ-nun altında yatan mesaj " Sənin ehtiyacın olan şeyə sahibəm və bunu sənə verəcəyəm" deyil, "Ehtiyacın olan şeyə sahibsən və bunu birlikdə tapacağıq şəklindədir". V.Miller və S. Rollnick tərəfindən M.İ- "mərkəzində klient dayanan və qərarsızlığı tapıb aradan qaldırmaq,daxili motivasiyanı yüksəltmək üçün yol göstərən metod" kimi təsvir edilmişdir. M.İ-insanları aldatmaq yolu ilə dəyişdirmək metodu deyildir,bu metod insanların daxili motivasiyalarını və resurlarını tapıb aktivləşdirmək yolu ilə dəyişməsidir. Motivasiyalı intervyuda təməl olaraq davranış dəyişikliyi və klientin dəyişikliyə olan münasibəti götürülür. Miller və Rollnik kitabın I buraxılışında "Motivasiyalı intervyu"nun tərifini verməmişdir, buna görədə I I I buraxılışda M.İ-nun tərifini belə açıqlamışlar: "Motivasiyalı intervyu-söhbətin birlikdə aparılmasının bir stili olub,insanın şəxsi motivasiyasının gücləndirilməsinə istiqamətlənən və insanın dəyişikliyə hazır olunmasıdır". Tərifdən də görüldüyü kimi M.İ ilkin olaraq qarşılıqlı söhbətdir. Bu söhbət uzun və ya qısa ola bilər,individual və ya qrup şəklində aparıla bilər ama o öz mahiyyətini hər bir halda qoruyacaqdır. Burada konsultant müraciətçiyə əməkdaşlıq edəcəyi bir partnyor kimi baxmalıdır,bu zaman müraciətçi özündə dəyişmək üçün lazım olan gücə malik olduğunu hiss edəcəkdir. M.İ-da əməkdaşlıq müəllim və şagird arasında olan münasibəti nəzərdə tutmur. Burada əməkdaşlıq hər 2 tərəfin aktiv rol oynadığı bir münasibətdir. M.İ-da olan əməkdaşlığa bənzətmə kimi rəqsi göstərə bilərik. M.İ-da insan rəqsdəki kimi digəri ilə birlikdə hərəkət edir,ona qarşı deyil. Ancaq rəqsdə olduğu kimi burdada liderlik edən tərəf vardır.Liderlik edən tərəf hərəkətlərin ardıcıllığına nəzarət edir və maneəsiz başa çatması üçün əlindən gələni edir. Əməkdaşlıq olmadan M.İ ola bilməz. Çünki məqsəd digər bir insanın dəyişməsidirsə ,bu zaman konsultant tək hərəkət edə bilməz. M.İ-da əməkdaşlıq həmçinin qarşıdakı insana dərin hörmətlə yanaşılmasını nəzərdə tutur [2].

Depressiyada olan qadınlarla işləyərkən təməli M.İ olan "İştirak" seansından istifadə çox yaxşı nəticələr verir. . Alan Zuckoff,Holly A.Svartz və Nancy K.Grotenin araşdırmasında görürük ki, bir qrup ruhi xəstəlik dispanserində müalicə alan yeniyetmələrin anaları "İştirak"seansına dəvət edilmişdir. 13 qadından 11-i təklifi qəbul etmişdir və 8 seansdan 7-sinə qatılan 11 qadından 10-nu seansları davam etdirməyi,terapiyalara başlamağı qəbul etmişdir. İştirak seansı terapiyaya başlamazdan əvvəl pasienti prosese cəlb etmək üçün istifadə olunur. İştirak seansı 45-60 dəqiqə

ərzində keçirilir və 5 mərhələsi vardır:Hekayəni ortaya çıxarmaq,Psixotəhsil və rəy bildirmək,Sıxıntının keçmişini kəşf etmək,Qərarlılığı ortaya çıxarmaq [1].

Depressiya bütün dünyada gün keçdikcə artan bir psixi pozuntudur. Əsas problemlərdən biridə bu psixi pozuntusu olan insanların çox zaman depressiyanı ciddi qəbul etməməsi ,müalicə barədə düşünməməsidir. M.İ vasitəsiylə biz depressiyada olan insanları müalicəyə cəlb edə və müalicə ilə bağlı ikili fikirdədirlərsə onları düzgün istiqamətə yönləndirə bilərik.

**Açar sözlər**: depressiya, motivasiya, davranış, əməkdaşlıq.

## Ədəbiyyat

1. Arkowitz H., Westra H.A., Miller W.R., Rollnick S. Motivational Interviewing in the Treatment of Psychological Problems. The Guilford Press, 2008.
2. Miller W.R., Rollnick S. Motivational Interviewing, Helping People Change,third edition.The Guilford Press, 2013.
3. https://nevroloq.az/depressiya-nedir-elametleri/

# AZƏRBAYCANIN MAARİFPƏRVƏR QADINLARINDAN ŞƏFİQƏ ƏFƏNDİZADƏNİN MƏTBUATLA ƏMƏKDAŞLIĞI HAQQINDA

**Səba Namazova**
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
e-mail: seba8080@mail.ru

XX əsrin başlanğıcında azərbaycanlı qadınlar arasında təhsilin, maarifçiliyin yayılması naminə çoxsaylı çətinliklərdən, maneələrdən keçilmişdir. Bu yöndə yüksək təşəbbüskarlıq göstərən, fəaliyyəti ilə dəstək olan maarifçi qadınların da rolu məxsusi qeyd edilməlidir. Həmin maarifpərvər qadınlardan biri də Şəfiqə Əfəndizadə idi.

Şəfiqə xanım ilk qadın jurnalist kimi publisistik fəaliyyətlə məşğul olmuş, 1903-cü ildə ilk qələm təcrübəsini "Şərqi-rus" qəzetində dərc etdirmişdir. O, sonralar da qəzetdə yer alan məqalələrində qadınları maarifə, təhsil almağa səsləyirdi.

Şəfiqə Əfəndizadə "Dəbistan" jurnalında dərc olunmuş məqalələrində də qadınların savadsızlığına qarşı çıxır, gənc qızların təhsil almasının vacibliyini vurğulayırdı.

Şəfiqə Əfəndizadənin jurnalistika mühitinə gəlişində 1911-1912-ci illərdə nəşr olunmuş ilk qadın qəzeti "İşıq" mühüm rol oynamışdır. Azərbaycan mətbuatında qadın imzasına olduqca az təsadüf edildiyi bir dönəmdə Şəfiqə xanımın "Şərqi-rus", "Dəbistan", "Rəhbər", "Məktəb", "Füqara füyüzatı", "Şərq qadını" ilə yanaşı, milli məfkurəyə söykənən "Dirilik", "Açıq söz", "Azərbaycan" kimi mətbu orqanlarında yazılarını mütəmadiyən görmək olurdu. Şəfiqə Əfəndizadə qələmə aldığı məqalələrində ictimai həyata, dövrün aktual problemlərinə müəllif münasibətini konkret faktlar və hadisələr əsasında bildirməkdən çəkinmir, cəmiyyətin inkişafına

mane olan ünsürlərə qarşı etiraz səsini ucaldırdı. O, qadınların mənəvi-ictimai təkamülünü əsasən onların azadlığında, özlərini dərk etmələrində görürdü.

**Açar sözlər:** Şəfiqə Əfəndizadə, maarifpərvər, qadın azadlığı, məqalə, publisistika.

**On the cooperation of Shafiqa Efendizadeh, one of the enlightened women of Azerbaijan, with the press**

At the beginning of the twentieth century, Azerbaijani women went through many difficulties and obstacles in order to spread education and enlightenment. The role of women educators, who show high initiative and support in this direction, should also be noted. One of those enlightened women was Shafiqa Efendizade.

Mrs. Shafiqa was engaged in journalistic activity as the first female journalist, and in 1903 she published her first pen experience in the "Eastern-Russian" newspaper. She later called on women to get an education in her newspaper articles.

In her articles published in "Dabistan" magazine, Shafiqa Efendizadeh also opposed women's illiteracy and stressed the importance of educating young girls.

"Ishiq", the first women's newspaper published in 1911-1912, played an important role in Shafiqa Efendizadeh's entry into journalism. At a time when women's signatures were very rare in the Azerbaijani press, Shafiqa's writings were regularly seen in the press such as "East-Russian", "Debistan", "Leader", "School", "Civil Fuyuzati"", "Eastern Woman", "Life", "Open Word", "Azerbaijan" based on national ideology . In her articles, Shafiqa Efendizadeh did not hesitate to express the author's attitude to public life, the current problems of the time on the basis of concrete facts and events, and raised her voice in protest against the obstacles to the development of society. She saw the spiritual and social evolution of women mainly in their freedom and self-awareness.

## QADINLAR ARASINDA NARKOTİK VASİTƏLƏRDƏN ASILILIQ HALLARININ YAYILMASI

**Şalan Novruzov**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: salan.novruzov@gmail.com

Zərərli vərdişlərin istifadəsi və bu halların yaratdığı problemlər günü-gündən dünyada və ölkəmizdə artmaqdadır. Zərərli vərdişlərin istifadəsi istər sosial, istər iqtisadi, istərsə də fiziki cəhətdən problemlər yaradır və şəxsin inkişafına bir-başa təsir edir. Zərərli vərdişlərin istifadəsi və asılılığın inkişafında fərdi və sosial faktorlar mühüm rol oynayır. Bu amillərdən biri də cinsiyyətdir. Yaxın vaxtlara qədər zərərli vərdişlərin istifadəsinin kişilər arasında daha çox yayğın olduğu fikri artıq öz hökmranığını itirməyə başlayıb. İstər qlobal səviyyədə, istərsə də lokal səviyyədə artıq qadınlar arasında da zərərli vərdişlərin yayılması halları ilə tez-tez rastlaşırıq. Misal üçün,

Azərbaycanda 2020-ci ilin sonuna olan məlumata əsasən 33 788 rəsmi qeydiyyatda olan narkotik istifadəçiləri var. Rəsmi qeydiyyata alınanlardan 618-i isə qadınlar təşkil edir

Narkotik vasitələrdən istifadə fərdin mərkəzi sinir sisteminə xoş təsir yaratması səbəbi ilə təsir göstərir və asılı hala gətirir. Bu məqsədlə istifadə edilən maddələr tütün məmulatları, spirtli içkilır, qeyri-qanuni və qanunsuz maddələr olaraq təsnif edilə bilər.

Narkotik maddələrin istifadə səviyyələri və formaları cins, yaş, irq, əmək haqqı, bacarıq, rol növü və s. göstəricilərə görə çox zaman fərqlər olur. Narkotik maddələrin istifadəsini cinsiyyət baxımından nəzərdən keçirdikdə, kişi və qadın arasındakı struktur dəyişikliklərinin kişi və qadınlar arasında maddə istifadə nisbətinə və formasına təsir etdiyini söyləmək olar. [1]

Qadınların maddə istifadəsinə səbəb olan risk faktorları aşağıdakı kimi sıralana bilər:

- Qadınlar fiziki olaraq istifadə olunan narkotik maddələrin təsirinə daha çox həssasdırlar, buna görə də asılılığa daha çox meyllidirlər.
- Bəzi inkişaf faktorları (orta məktəbdən universitetə keçid, evlənmək və s.) qadınların maddə istifadəsi baxımından daha riskli zamanlar sayılır.
- Qadınlar özünə inamı artıra, gərginliyi azalda, problemlərin öhdəsindən gələ, təzyiqləri azalda və arıqlaya bilmək səbəbləri ilə siqaret, spirt və ya digər dərmanlardan istifadə edirlər.
- Qadınlar kişilərdən daha çox cinsi və fiziki zorakılığa məruz qaldıqları üçün narkotik vasitələrdən istifadə halı və bu faktor arasında güclü əlaqə var. Cinsi zorakılığa məruz qalan qadınlar narkotik maddələrin istifadəsinə daha çox meyllidirlər və erkən istifadəyə başlama və asılılıq halının yaranması ehtimalı daha çoxdur.
- Bədənlərini sataraq pul qazanan qadınlar arasında narkotik vasitələrdən istifadə halları daha kəskin şəkildə yayılıb. Hansı ki, artıq bu qadınlarda asılılıq yarandığı üçün çox zaman istismar olunurlar və çox zaman zorakılığın qurbanı olurlar. [2]

Bəzi tədqiqatlarda narkotik istifadəçilərinin əksəriyyəti kişilər olsa da, HİV-daşıyıçısıolan narkotik istifadəçilərinin yarıdan çoxu qadınların olduğu ortaya çıxmışdır. Qadınlar arasında cinsi yolla keçən digər xəstəliklərin də riskinin daha yüksək olduğu bildirilir. Bundan əlavə, yüksək riskli cinsi aktlarla məşğul olmaq və qadınlar üçün qeyri-qanuni maddələrdən istifadə arasında daha yüksək korrelyasiya olduğu bildirilir.

Qadın narkotik istifadəçilərinin əksəriyyəti narkotik aludəçisi olan həyat yoldaşları yaxud partnyorları ilə yaşayır və bu həyat yoldaşlarının əhəmiyyətli bir hissəsi qadınlara qarşı fiziki zorakılığa məruz qalması hallarının yüksək olmasına səbəb olur. Narkotik maddə asılılığı olan qadınların yetkinlik dövründə narkotikdən istifadə etməyən qadınlara nisbətən daha tez-tez (əsasən həyat yoldaşları tərəfindən) zorakılığa məruz qaldığı göstərilmişdir. Araşdırmalarda maddə istifadə edən qadınların əksəriyyətinin şiddətli və zorakılıq (bəzən həyatı üçün təhlükə yaradan) əlaqələrdə olduğu müşahidə edilmiş, lakin qadınlar bu əlaqələrdən çıxa bilmədiklərini hiss etdiklərini ifadə etmişlər. Fiziki zorakılıq törədən şəxslərlə evli olan narkotikdən asılı olan qadınların müalicə zamanı bu faktorunda yaxşı reaksiya vermə ehtimalına təsir edir [3].

**Açar sözlər**: narkotik vasitələr, narkotik aludəçisi, qadınlar.

**Ədəbiyyat**

1. Ögel K. Özel Popülasyonlar səh. 21.
2. Poole N., Dell C.A. Girls, women and substance use. Canadian Centre on Substance Abuse (CCSA) Ottawa: 2005, p. 1-15.
3. Tümerdem Y., Ayhan B., Özsüt H. Orta ve yüksek öğrenim gençleri ve alkol kullanımı. 22. Ulusal Psikiyatri Kongresi 2001, 22-27.
4. Ögel K. Bağımlı Aileleri Için Rehber Kitap.

## ETNİK MÜNAQİŞƏLƏRİN TRANSFORMASİYASI VƏ SÜLH DANIŞIQLARI PROSESİNDƏ GENDER BƏRABƏRSİZLİYİ

**Esmira Orucova**
AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu, Bakı, Azərbaycan
e-mail: orucovaesmira@mail.ru

Dünya təcrübəsində insan inkişafının əsas göstəriciləri təhsil, səhiyyə, iqtisadiyyat, gender və ətraf mühitə bağlı olan meyarlarla dəyərləndirilir. Gender göstəricisi milliyyətindən, dini mənsubiyyətindən, siyasi əqidəsindən asılı olmayaraq, kişi və qadınlar arasında fərqə yol verməməklə bütün məhdudiyyətlərin aradan qaldırılmasına əsaslanır. Gender bərabərliyi siyasəti mahiyyət etibarı ilə qadın və kişilər arasındakı sosial bərabərlik, hər ikisinə eyni imkanların verilməsi və bunlardan istifadə imkanlarıdır. Müxtəlif ölkələrdə gender bərabərliyi həmin ölkənin sosial - iqtisadi və mədəni şəraitindən, vəziyyətindən asılıdır. Nədənsə, bu gün gender bərabərliyi cəmiyyətdə daha çox qadınların hüquqlarının müdafiəsi və qorunması kimi başa düşülür.

ABŞ-ın Mədəniyyətlərarası Dialoq Mərkəzinin direktoru Vendi Lids-Hurvits qadının cəmiyyətdə mövqeyini yüksək qiymətləndirmiş və mühüm irəliləyişlərə nail olmaq üçün qadınların böyük qüvvə və tərəfdaş olduğunu qeyd etmişdir [7].

BMT-nin baş katibi Antoniu Quttereş gender haqqında belə qeyd: “cins bərabərliyinə nail olmaq, qadın və qızlara güc vermək, çağımızın bitməmiş problemi və bu gün dünyada ən böyük insan haqları problemidir” [3].

BMT Baş Assambleyasının 10 dekabr 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 2-ci maddəsində qəbul edildiyi kimi hər bir insan cinsinə və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan bütün hüquq və azadlıqlara malik olmalıdır [1].

XX əsr bəşəriyyətin yaddaşında tərəqqinin yüksək nailiyyətləri ilə yanaşı həm də kütləvi insan qırğınları və faciələrinə səbəb olan silahlı münaqişələr, həmçinin müharibələrlə qaldı. 2015-ci ilin Nobel mükafatı laureatı, Belorus yazıçısı Svetlana Aleksiyeviçin təbirincə desək “müharibə qadın simalı deyil” [2]. Lakin qadın simalı olmayan müharibələr qadınlara çox ağır faciələr və travmalar yaşadıb və yaşadmaqda davam edir. Silahlı münaqişələr, müharibələr, həmçinin əksər inkişaf etməkdə olan ölkələrdəki daxili qarşıdurmalar zamanı ölən və yaralananların 90 faizini

mülki əhali, o cümlədən qadın və qızlar təşkil edir. Qadın və azyaşlı qızlar da kişilər kimi qətlə yetirilir, yaralanır, şikəst edilir, işgəncə, təhqir, təcavüz və alçaldıcı hərəkətlərə məruz qalırlar. Bəziləri zorla üsyançı və hərbi birləşmələrə qoşulmağa məcbur edilir, bəziləri isə xəstələrə və yaralılara qulluq edirlər. Bir qismi isə şiddəti, yaxınlarının ölümünü, əmlaklarının itkisi kimi travmaların ağır fiziki və psixoloji fəsadlarını yaşamaq məcburiyyətində qalırlar.

Müharibə və silahlı münaqişələrə "qadın baxışı" və "qadın gözü" ilə baxmağa çalışsaq, görərik ki, qadınlar hər zaman sülh tərəfdarıdırlar. Elə bu xüsusiyyətlərinə görə də XX əsrin sonlarına yaxın dünyanı bürüyən silahlı münaqişələr və müharibələrin tənzimlənməsi prosesləri zamanı qadınların iştirakı vacibdir. Onlar dünyanın hər hansı bölgəsində etnik münaqişələrin transformasiyası və aparılan sülh danışıqlarından kənarda qalmamalıdırlar. Müxtəlif sahələrdə gender bərabərliyinin təminatı nəzərə alınsa da nədənsə bu istiqamətdə görülən işlərdə bərabərsizlik müşahidə olunur.

Sülh quruculuğu və danışıqlar prosesində qadınların iştirakını təhlil edərkən, ənənəvi olaraq, qadınların dünya səviyyəsində, bu sahədə çox məhdud şəkildə təmsil olunduqlarını görmək olar.

Beləliklə, 1995-ci ildə Bosniya münaqişəsində Dayton barışıq danışıqlarında qadınlar iştirak etməmişdi;

1999-cu ildə Kosovo münaqişəsi ilə bağlı aparılan Ramboullet danışıqlarında yalnız bir qadın iştirak etmişdi.

Qadınların idarəetmə və qərar qəbuletmə səlahiyyətlərini ehtiva edən vəzifələrə cəlb edilməsinin zəruriyyəti dünyanın 189 ölkəsinin iştirakı ilə 1995-ci ildə Pekində keçirilmiş IV Ümumdünya Qadın Konfransında bəyan edilmişdir.

2000-ci ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 1325 nömrəli qətnamənin qəbul edilməsi, qadınların qərar qəbuletmə prosesində iştirakının artırılması üçün məsələnin yüksək səviyyədə müzakirələrin əhəmiyyətinə diqqət çəkdi. Qətnamə silahlı münaqişələrin qadınlar və uşaqlar üzərində təsirini, eləcə də, sülhməramlı əməliyyatlarda gender perspektivlərini tətbiq etməyin vacibliyini qeyd etmişdir.

BMT katibi Qətnamənin icrası üçün BMT-yə üzv dövlətləri milli fəaliyyət istiqamətlərini əks etdirən Milli Fəaliyyət Planı (MFP) hazırlamağa çağırmışdı. 2020-ci ilin oktyabr ayında dünyanın 88 ölkəsində qadınlar, sülh və təhlükəsizliklə bağlı Milli Fəaliyyət Planı qəbul edmişdilər. Dünyada Qətnamənin tətbiqinə dair bəzi müsbət nümunələr də var:

2002-ci ildə Şri-Lankada aparılan sülh danışıqları zamanı Şri Lanka hökuməti ilə silahlı müxalifət LTTE qrupunun qadın nümayəndələri arasında aparılan danışıqlar üçün Gender Alt Komitəsi yaradılmışdı [6];

2014-cü ildə Filippin hökuməti və Moro İslam Qurtuluş Cəbhəsi uzun müddət davam edən münaqişənin həllinə gətirən sülh müqaviləsi imzaladı. Həmin prosesdə qadınlar hökumətin danışıqlar qrupunun 50%-ni, imzalayanların 25%-ni təşkil edirdi.

Bu tendensiya onu göstərir ki, liberal qərb ölkələrinin ənənəvi olaraq qadınların xarici işlər və müdafiə nazirliklərində, eləcə də, sülh quruculuğu təşəbbüslərində daha yüksək gender bərabərliyi səviyyəsinə təmsil olunmaqları ilə bərabər, bu gün inkişaf etməkdə olan ölkələrdə də müsbət dəyişikliklər nəzərə çarpır. Gürcüstanda bir neçə qadın layihələri icmalararası dialoqun

təşviqində, icma əsaslı fəallıqla sülh quruculuğu təşəbbüslərinin qurulmasında və rəsmi diplomatiya ilə ortaq körpü yaradılmasında böyük rol oynamışdır. Bu cür layihələrdən biri olan "Qadınlar Sülh Naminə" təşəbbüsü münaqişə tərəfləri arasında dialoq üçün bir platforma yaratmış, yerli icmaların (Abxaziya, Cənubi Osetiya və Gürcüstan) qadınlarını siyasi və sülh quruculuğu proseslərində daha fəal iştirak etməyə təşviq etmişdir.

Dağlıq Qarabağ münaqişəsində qadınların danışıqlar prosesinə cəlb edilməsi olduqca məhduddur. Cənubi Qafqazda qadınların rolu, ənənəvi olaraq siyasi fəal kimi deyil, daha çox ana və ya ailə üzvü kimi qəbul olunur. Bu da onların yüksək səviyyəli müzakirələrdə iştirak etməməsinə səbəb olur [5].

Əksər münaqişələrin transformasiyası və həlli proseslərində də gender bərabərsizliyinin şahidi oluruq. Xarici ölkələrdə qadınlar tərəfindən yüz illərdir ki, bu istiqamətdə təşəbbüslər irəli sürülsə də etnik münaqişələrin ocağı olan Qafqazda buna imkan verilməmiş, xüsusilə də Şimali Qafqazda qarşısı alınmışdır [4].

Yüksək tolerantlıq və demokratiyanın dəstəkləndiyi müstəqil Azərbaycanda gender bərabərliyi dövlətin insan inkişafı siyasətinin davamlı prioritet istiqamətlərindəndir. 27 sentyabr 2020-ci ildən 9 noyabr 2020-ci ilə kimi davam etmiş 44 günlük Vətən müharibəsi Dağlıq Qarabağ münaqişəsində yeni bir reallıq yaratdı. Son illər Azərbaycanda fəaliyyət göstərən qadın təşkilatlarının fəaliyyəti danılmaz olsa da, lakin sülh danışıqları prosesində onların iştirakını görə bilmirik.

**Açar sözlər:** sülh danışıqları, etnik münaqişə, ayrıseçkilik, gender bərabərsizliyi, qadın hüquqları.

### Ədəbiyyat


1. http://www.supremecourt.gov.az/uploads/files/beynelxalq-senedler/
2. Алексиевич С. У войны не женское лицо. Издательство «Время», 2013, с.352.
3. Гендерное равенство. https://www.un.org./ru/sections/issues-depth\\gender-equality/
4. www abkhazia.com. женщины Кавказа
5. https://kvinnatillkvinna.se/wp-content/uploads/2021/01/Arsredovisning-Kvinna-till-Kvinna-2019.pdf
6. O'Reilly M., Suilleabhain A., Paffenholz T., (2015), Reimagining Peacemaking: Women's Roles in Peace Processes, International Peace Institute, https://www.ipinst.org/wp-content/uploads/2015/06/IPI-E-pub-Reimagining-Peacemaking.pdf
7. https://centerforinterculturaldialogue.org/

# XARİCDƏ TƏHSİL ALAN TƏLƏBƏLƏR ARASINDA GENDER MÜXTƏLİFLİYİ

**Sənubər Osmanova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Sanubar.Osmanova@student.au.edu.az

Cəmiyyətimizdə gender məsələləri ilə bağlı fərqli yanaşmalar irəli sürülmüşdür. Bəzi müəlliflərə görə, gender kişinin qadına nisbətən daha üstün olma iyerarxiyasının nəticəsidir. Bu nəzəriyyəçilər qadınlara əks cinsin nümayəndələrinə nisbətən daha az hüquqlar verən, eyni zamanda təhsilə daha az çıxış imkanı yaradan, fiziki təhlükəsizlik və maliyyə dəstəyi üçün kişilərdən asılı olmalarını tələb edən sosial strukturları dəstəkləyirlər. Həmçinin qadınların sosial sferada aşağı statusa malik olmasını vurğulayırlar. Digər gender nəzəriyyəçiləri isə biologiyanın kişilər və qadınlar arasındakı fərqlərdə böyük rol oynadığı fikrini rədd edirlər. Bizim gender münasibətlərini ayırd etməyimiz tamamilə mədəni əsaslarla səciyyələnir [3].

Təhsil-gender bərabərliyi, yəni kişi və qadınların iqtisadi, sosial, mədəni, həmçinin, siyasi inkişafı baxımından bərabər imkanlara malik olması deməkdir.Tələbələr yüksək səviyyədə akademik biliklərə yiyələnmək və öz şəxsi potensiallarını inkişaf etdirmək məqsədi ilə xaricdə təhsil almağa önəm verirlər. Ali təhsil almaq üçün xaricə getmək istəyən tələbələrin sayı hər il artmaqda davam etsə də,gender üzrə onların nisbəti dəyişir. Hal-hazırda beynəlxalq tələbələr arasında universitetlər və kolleclər üzrə siyahıya alınmada nəzərə çarpan fakt budur ki, kişilərə nisbətən qadınlar sayca çoxluq təşkil edirlər. Bəzi araşdırmalar göstərir ki, qadın namizədlər xaricə getməyə və təhsil almağa kişi həmkarlarından daha çox həvəslidirlər. Qadınlar əks cinsin nümayədələrinə nisbətən dəyişikliklərə daha açıqdırlar, özlərini yeni-yeni stereotiplərə uyğunlaşdırırlar və digər tərəfdən onlar problemlərin öhdəsindən gəlməkdə təbii qabiliyyətə malikdirlər. Bunun əksinə olaraq kişilər isə həddindən artıq dəyişiklikdən və ya həssas vəziyyətlərə adaptasiya olmaqdan çəkinirlər.

Harvard universitetinin klinik psixoloqu Dan Kindlon “Alpha Girls” (2006) kitabında gender rollarının artıq ənənəvi standartlara uygun davranış sərgiləmədiyini belə ki,qadınların xüsusilə Amerika qadınlarının liderliyə həvəskar, daha əzmli və uğur qazanmaqda kişi həmkarlarından üstün olmaq üçün motivasiya olunduğunu qeyd edir [2]. Ali təhsil almaq artıq beynəlxalq bir fenomenə çevrilmişdir və bu fonda illərcə formalaşan stereotiplər Şərqi Asiya qadınları tərəfindən nəzərəçarpacaq dərəcədə dəyişikliyə məruz qaldı. Beynəlxalq tələbələrin uyğunlaşmasına təsir edən bir çox amillər arasında dil biliyi ən önəmli faktorlardan biri hesab olunur. Dil imkanlarının geniş olması ev sahibliyi edən ölkə mədəniyyətinə uyğunlaşmada və eyni zamanda akademik nailiyyətlərin əldə edilməsində mühüm rol oynayır. Dil biliyi hər iki gender üçün önəmli amildir. Belə ki, nitqin axıcılığı xüsusi əhəmiyyət kəsb edir və bu mövzuda qadınların xüsusi fərqləndiyi qeyd olunur [4]. İkinci dilin mənimsənilməsi üçün qadın tələbələr kişilərə nisbətən daha çox öyrənmə strategiyasından istifadə edirlər. Nümunə olaraq qadın tələbələr kişi tələbələrə nəzərən dil səviyyəsini inkişaf etdirmək üçün yeni dildə söhbətlərə başlamaqda, dost qazanıb ünsiyyət

qurmaqda və digər alternativ yollar tapmaqda daha fəaldırlar. Təcrübələrdən belə qənaətə gəlmək olar ki, gender üzrə sosial dəstək axtarışı fərqli formada xarakterizə olunur: qadınlar kişilərə nisbətən daha tez-tez kömək mənbəyi axtarmağa və sosial dəstək almağa ehtiyac duyurlar, böhran zamanı ailə üzvlərinə,yaxınlarına və dostlarına daha sürətli bir şəkildə müraciət edirlər. Məhz elə bu kimi hallarda tələbələr arasında kişilərə nisbətən qadınlarda qorxu instinkti daha çox nəzərə çarpır [1]. Zərif cinsin nümayəndələri hesab edilən qadınlarda bu hislərin formalaşması yalnızlıqdan və onları əhatələyən mühitə olan daha az güvəndən qaynaqlanır. Bununla yanaşı, belə hallarda əksəriyyət qadınlar "ehtiyatlı və tədbirli olmaq" ehtiyacı hiss edirlər. İctimai yerlərdə şəxsi təhlükəsizliklərini qorumaq üçün tədbirlər görür və imkan daxilində kollektiv şəkildə yaşamağa, səyahət etməyə və akademik fəaliyyət göstərməyə təşəbbüs göstərirlər.

Ümumiyyətlə araşdırmadan bizə belə məlum olur ki, tələbələrin xaricdə təhsil təcrübələrində mədəniyyətə uyğunlaşma prosesi, dil öyrənmə bacarığı, sosial təhlükəsizlik, təhsildə gender üzrə kəmiyyət fərqinin mövcud olması xarici mədəni faktorlara, şəxsi keyfiyyətlərə və onları əhatə edən ətraf- mühit amillərinə görə dəyişir. Nəticədə sürətlə dəyişikliyə məruz qalan dünyada qlobal problemləri həll etmək üçün birlikdə əməkdaşlıqetmə bacarığımız digər xalqların mədəniyyətlərinə uyğunlaşmaq, onlara hörmətlə yanaşmaq və dəyər vermək qabiliyyətimizdən asılıdır.

**Açar sözlər:** Beynəlxalq tələbə, gender müxtəlifliyi, xaricdə təhsil, adaptasiya, gender, stereotip.

## Ədəbiyyat

1. Gordon M.T., Riger S. (1989). The Female Fear. New York: The Free Press.
2. Kindlon D. (2006). Alpha girls. New York: Rodale
3. Martin P.Y. (2004). Gender as Social Institution.
4. Maccoby E.E., Jacklin C. (1979). The pscyhology of sex differences. Stanford. CA: Stanford University Press.

# XI-XII ƏSRLƏRİN GÖRKƏMLİ MƏDƏNİYYƏT XADİMİ

**Aybəniz Quliyeva**
Azərvaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: aybenizkuliyeva@mail.ru

VII əsrdə Ərəb dövlətinin əsası qoyuldu və bu dövlət islam bayrağı altında ərazilərini genişləndirməyə başladı. İran və Qafqazın digər bölgələri ilə bərabər, Azərbaycan torpaqları da Ərəb Xilafətinə tabe edildi və 200 ilə qədər bu dövlətin tərkibində qaldı. Bu zaman Azərbaycan xalqının islamı qəbul etməsi və Xilafətə daxil olan xalqlarla və ölkələrlə mədəni yaxınlaşması prosesi baş verdi. Hələ Sasani imperiyasının tərkibində olarkən Azərbaycanın şimal və cənub torpaqları arasında iqtisadi və siyasi əlaqələrin genişlənməsi, yeni türk axınları nəticəsində Azərbaycan türk dilinin ümumişlək dilə çevrilməsi, ölkəmizdə yaşayan tayfaların qaynayıb-

qarşması və vahid xalqın formalaşması prosesi gücləndi. İslam dininin yayılması ilə vahid mənəvi dəyərlərin, adət-ənənələrin formalaşması bu prosesin qəti başa çatmasına gətirib çıxardı.

Bunun üçün əvvəlki yüzilliklərdə əlverişli tarixi zəmin yaranmışdı. Geniş əraziləri əhatə edən Sasani və Xilafət imperiyalarının tərkibində qaldığı uzun tarixi dövr ərzində Yaxın və Orta Şərqin məşhur mədəniyyət mərkəzləri ilə yaranan qarşılıqlı münasibətlər, yurdun ayrı-ayrı bölgələri arasında əlaqələrin canlanması mədəniyyətin inkişafına müsbət təsir göstərmişdi. Azərbaycan mütəfəkkirləri Mərkəzi Asiya və Hindistan hüdudlarından Pireney yarımadasıınadək çox geniş əraziləri əhatə edən Xilafət imperiyasının sərhədləri daxilində baş vermiş mədəni oyanışda – "Müsəlman intibahı" adlanan mədəniyyətin yaradılmasında yaxından iştirak etmişdilər. Yüzillər boyunca Sasani və ərəb işğalına və əsarətinə qarşı mübarizədə birləşmək zərurəti Azərbaycan ərazisində yaşayan müxtəlif türk, həmçinin qeyri-türk tayfalarının qaynayıb-qarışmasını sürətləndirdiyi kimi, vahid dilin və mədəniyyətin formalaşmasına da mühüm təsir göstərmişdi.

IX yüzilliyin ortalarından başlayaraq Ərəb Xilafəti ağalığına son qoyulması, Məzyədilər (Şirvanda), Sacilər, Salarilər, Rəvvadilər (Azərbaycanın cənubunda), Şəddadilər (Kür və Araz çayları arasında) sülalələrinin hakimiyyətə gəlməsi, xalqın yadellilərə qarşı inadlı mübarizəsi nəticəsində əldə olunan siyasi müstəqillik mədəniyyətin oyanışına münasib şərait yaratdı. Azərbaycanda müstəqil dövlətçiliyin bərpası siyasi dirçəlişə, ardınca da iqtisadi və mədəni yüksəlişə səbəb oldu. Xüsusən də mədəniyyətinin tərəqqisi daha da sürətləndi. XI əsrdə isə Səlcuq türklərinin bir türk və müsəlman olaraq bu əraziləri özünə tabe etməsi, ardınca Eldənizlər (Atabəylər) sülaləsinin hakimiyyət dövrü Azərbaycanın ümumtürk məkanı daxilində inkişafı üçün əlverişli imkan yaratdı. Vahid iqtisadi, siyasi, mədəni birlik XI-XII əsrlərdə öz bəhrəsini verdi.

XI-XII əsrlər Azərbaycan tarixində mədəniyyətin yüksək inkişaf dövrüdür. Bu dövrün görkəmli nümayəndələrindən biri də Məhsəti Gəncəvidir. O, ilk məşhur Azərbaycan şairəsi, ilk şahmatcı qadın, ilk qadın musiqiçimiz və ilk qadın bəstəkarımızdır. 1089-cu ildə Arranın mərkəzində - Gəncə şəhərində anadan olmuş, orada təhsil almışdı. Bir sıra Şərq şəhərlərini - Bəlx, Mərv, Nişapur və Heratı gəzib dolaşmış, sonda Gəncəyə qayıtmış və ömrünün sonuna qədər bu şəhərdə yaşamış, 1181-ci ildə vəfat etmişdir. Onun əsl adı Mənicə idi, Məhsəti adını isə özünə ədəbi təxəllüs kimi götürmüşdü. Məhsəti Gəncəvi Şərq musiqisini və ədəbiyyatını çox gözəl bilirdi.

Məhsəti Gəncəvi Azərbaycan və Müsəlman intibahının parlaq nümayəndəsi olmaqla öz şeirlərində sənətkar, şair, müğənni və mütrib obrazlarını tərənnüm edən yeni şəhər poeziyasının təmsilçisi idi. Məhsəti Gəncəvi öz rübailərində yaşadığı dövrdə üzləşdiyi haqsızlığa, ədalətsizliyə qarşı çıxmış, fanatizmi, mövhumatı tənqid etmişdi. Şairə insan şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Onun rübailərində hakim dini ehkamlara və dövlətin şəxsiyyət azadlığına göstərdiyi təzyiq siyasətinə qarşı gizli bir etiraz əks olunmuşdu.

Məhsəti Gəncəvinin yazdığı əsərlərdə qadın azadlığı ilə bağlı bir sıra məsələlər, bərabərlik ideyaları mühüm yer tuturdu. Qadın hüquqlarının olmadığı dövrdə bir qadın olaraq dövrünün haqsızlıqlarına qarşı çıxması, təzyiqlərə məruz qalmasına baxmayaraq öz əqidəsinə sadiq qalması, mübarizəsini davam etdirməsi diqqətəlayiqdir.

**Açar sözlər:** Siyasi oyanış, Müsəlman intibahı, mədəni birlik, Məhsəti Gəncəvi, gender problemi.

**Ədəbiyyat**

1. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci ilədək). S.Əliyarlının red. B., 1996.
2. Azərbaycan tarixi, 7 cilddə, II c. B., 1998.
3. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrəək). Z.M.Bünyadovun və Y.Yusifovun red.ilə. B., 1994.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 1989.
5. Mahmudov Y. Azərbaycan tarixi. İntibah dövrü. B., 1996.
6. Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, II c. B., 2007.

## MODERN DÜNYA ŞƏRTLƏRİNDƏ CİNSİYƏT PROBLEMLƏRİ

**Gülnarə Qurbanova**
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
e-mail: mirzoyeva_86@mail.ru

Gender bərabərsizliyi, fərqli sosial qrupların (indiki halda kişilər və qadınlar) sabit fərqlərə və nəticədə cəmiyyətdəki qeyri -bərabər imkanlara malik olduğu sosial quruluşun xüsusiyyətidir. Gender problemləri ilə bağlı çoxsaylı tədqiqatlar onların aktuallığı haqqında hər zaman danışmağa imkan verir. Gender araşdırmaları insan şəxsiyyətinin təbiətini dərk etməyə kömək edir. Bu cür araşdırmaların mərkəzində bioloji cinsiyyət (cins) və sosial -mədəni cinsiyyət (gender) haqqında fikirlərindən asılı olaraq kişi və qadın davranışlarını təyin edən sosial, mədəni, dil və digər faktorlar durur. Bu problemlər bir çox humanitar elmlərin astanasında olan yeni bir elmi tədqiqat cərəyanının formalaşmasına təkan verdi. Gender problemləri demək olar ki, cəmiyyətin bütün sahələrində mövcuddur. Gender problemlərinə kişilərin və qadınların cəmiyyətdəki rolu ilə əlaqəli sosial və psixoloji problemlər daxildir, çünki kişilərin və qadınların davranış modellərindəki fərqlər şəxsi, kişilərarası və qruplararası qarşıdurmaların səbəbi ola bilər. Hər şeydən əvvəl, gender bərabərsizliyi gender problemlərinə aid edilə bilər. İlk dəfə olaraq "gender bərabərsizliyi" termini 1980 -ci ildə ortaya çıxdı və bu da cinsiyyət anlayışının ortaya çıxmasıdır. Gender bərabərsizliyi, fərqli sosial qrupların sabit fərqlərə və cəmiyyətdə yaranan qeyri -bərabər imkanlara malik olduğu bir sosial quruluşun bir xüsusiyyəti olaraq təyin edilə bilər.

Qadınlar əsrlər boyu öz hüquqları uğrunda çox mübarizə aparıblar və göründüyü kimi güclü cinslə bərabər bərabərliyə nail olublar. Ancaq buna baxmayaraq, müasir dünyada, bugünkü bazar münasibətləri ilə, gender bərabərsizliyi problemi hələ də aktualdır və bu, ilk növbədə sərt rəqabətlə əlaqədardır. 1960-cı illərdə cinsiyyət araşdırmalarına çevrilən qadın araşdırmaları deyiləndən əvvəl bir çox elm adamı gender bərabərsizliyi problemlərinin həllində bioloji determinizm mövqeyinə sadiq qaldı. XX əsrin 60-cı illərdə gender araşdırmalarına çevrilən qadın araşdırmaları deyiləndən əvvəl bir çox elm adamı gender bərabərsizliyi problemlərinin həllində bioloji determinizm

mövqeyinə sadiq qaldı [1]. Sosial olan hər şeyin bioloji olaraq şərtləndirildiyi güman edilirdi, buna görə də olduqca təbii və normaldır.

Cins bərabərsizliyinin miqyası və səbəbləri aşağıdakı amillərlə müəyyən edilir:

1. Cəmiyyətin inkişaf amili (demoqrafik, texnoloji, sosial-iqtisadi).
2. Cins faktoru (ayrı -seçkilik faktoru).
3. Davranış amili.

Beləliklə, gender bərabərsizliyi probleminə bir çox yanaşma mövcuddur. Ancaq 21 -ci əsrdə belə bu sual açıq qalır. Həyatın bir çox sahələrində qadınlar cinsiyyətləri ilə bağlı olan müəyyən problemlərlə üzləşirlər. Bu sahələrdən biri də siyasətdir. Güc sahəsində qadınların payı hər il artır, zəif cinsin nümayəndələri getdikcə yüksək vəzifələr tutur. Ancaq buna baxmayaraq, siyasi proses iştirakçılarının cins tərkibinin fərqlənməsini əvvəlcədən təyin edən obyektiv şəkildə formalaşmış tarixi və iqtisadi şərtlər mövcuddur. Tarixi şərtlərə Sovet siyasi sistemində mövcud olan qanunverici orqanlarda qadın kvotası daxildir. Üstəlik, namizədlərin özünəməxsus sərt rəqabəti və seçkiqabağı proqramların olması ilə seçkilər yerinə, yuxarıdan təyin olundular. 90 -cı illər hadisələrindən sonra kvotalar ləğv edildi və bu da qadınların siyasətə girməsini daha da çətinləşdirdi. Beləliklə, "böyük" siyasətdə olan qadınlar azlıqda idi. Yalnız sovet sistemini tərk edən və ölkənin yeni parlament korpusunda olan qadınlar, kişi əksəriyyətinin regional və ya federal qanunverici orqanlarda qurduğu qaydalarla oynamaq məcburiyyətində qaldılar [3]. 1990-cı illərin ortalarında ictimai birliklərin qadın liderləri gender bərabərliyi ideyasını fəal şəkildə təbliğ etməyə başladılar. Ancaq bu cür birliklər, əsasən xarici fondlar hesabına maliyyələşdirildikləri üçün siyasi partiyalarla nadir hallarda dialoqa girirdilər və bu da öz növbəsində ictimai birliklərin siyasətə qarışmamasını tələb edirdi. Bizim dövrümüzdə belə bir maneə qorunub saxlanılmışdır. Partiyalarda gender bərabərliyinin demokratikləşməsinin əsas şərtlərindən biri olaraq tanınmasını əngəlləyir. Deməli, 21 -ci əsrdə də bir çox sahədə cinslər arasında tam bərabərlik əldə edilməmişdir. Qadınlara bərabərliklərini sübut etmək çox uzun çəkdi və bu mübarizə bu günə qədər davam edir. Bərabərsizlik cəmiyyətin inkişafına mane olur, sadalanan üç amil bir -biri ilə əlaqəlidir və bir -birindən asılıdır.

Beləliklə, bu əsərdə "cinsiyyət" müəyyən bir təhsil sistemi və mədəni normalar vasitəsi ilə psixoloji keyfiyyətləri, fəaliyyət növlərini və peşə fəaliyyətlərini təyin edən bir sosial-mədəni quruluş kimi başa düşülür.

**Açar sözlər:** cəmiyyət, gender, insan davranışı, qavrayış, sosial cins.

## Ədəbiyyat

1. Коннелл Р. Современные подходы. Хрестоматия феминистских текстов. Переводы / Под ред. Е.А. Здравомысловой, А.А. Темкиной. – СПб.: Дмитрий Буланин, 2000, с. 262.
2. Дюркгейм Э. Об общественном разделении труда [Электронный ресурс]. – Режим доступа: http://socioline.ru/pages/e-dyurkgejm-o-razdelenii-obschestvennogo-truda.
3. Шведова Н.А. Просто о сложном: гендерное просвещение, МГЦИ, М., 2002.
4. Рябова Т.Е. Стереотипы и стереотипизация как проблема гендерных исследований, Личность. Общество. Культура, 2003, Т. V. Вып. 1–2 (15–16), с. 52, 74.

# TÜRK QADIN OBRAZININ BƏDİİ ƏDƏBİYYATDA TƏCƏSSÜM PROBLEMLƏRİ

**Ülviyyə Rəhimova, Samirə Məmmədova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: ulviyya.rahimova@au.edu.az

Təqdim olunmuş məqalədə əsrlər boyu türk qadınlarının bədii əsərlərdə necə təcəssüm olunması prosesi öz əksini tapmışdır. Kölə xisləti olmayan lakin məcburən kölə durumuna düşən türk qadınlarının tabe olmaması bədii əsərlərdə də bu və ya digər formada təqdim olunmuşdur. Nəticə olaraq Azərbaycan ədəbiyyat tarixində qadın obrazlarının zənginliyi onu sübut edir ki, Azərbaycan yazıçıları qadın problemlərini işıqlandırmaqla gender mövzusunun açılmasında böyük bədii ümumiləşdirmələrə nail olublar.

Qeyd etmək lazımdır ki, bədii ədəbiyyatda təsvirin əsas predmeti insan həyatının sosial mahiyyətinin xarakterik xüsusiyyətləridir (ibtidai cəmiyyətin sinkretik söz yaradıcılığından fərqli olaraq) başqa sözlə desək, bu insanların həm xarici təzahürləri, münasibətləri, fəaliyyəti, həm də daxili, mənəvi həyatında onların hiss və həyəcanlarının vəziyyəti və inkişafında büruzə verən sosial xarakteridir. Bu baxımdan hər bir əsər yazıçının dünyagörüşünün, onun ideya-estetik baxışlarının ifadəsidir. Ədəbi inkişafın müxtəlif mərhələlərində yaradılmış ədəbi nümunələri tədqiq edərək, onlarda gender aspektinin olduğunu əyani göstərmək olar.

Xronoloji planda qısa ekskurs deyilənləri aşkar göstərməyə və türk qadınının təcəssüm olunduğu bədii ədəbiyyatın inkişafının ən müxtəlif mərhələlərində gender yanaşmasını qeyd etməyə imkan verər. Bədii ədəbiyyatın bütün dövr və mərhələlərdə insan həyatını və onun sosiumda reprezentasiyasını əks etdirdiyini nəzərə alaraq bu planda gender baxışı məlum ədəbi fakt və hadisələri yeni nəzərlə dərk etməyə imkan verir.

Antik ədəbiyyat nümunələrindən əsrlərə meydan oxuyan əsərlər hesab olunan Homer poemaları, yunan dramları, görkəmli Roma şairlərinin əsərləri kimi antik ədəbiyyat nümünələri təkcə uzaq, əbədi yox olmuş keçmişin tarixi sənədləri deyil, estetik qiyməti olan bədii əsərlər kimi qavranılır. Onların müəllifləri təkcə öz qəhrəmanlarının portret və xarakteristikalarını deyil, həm də öz dövrlərinin ən mühüm, vacib məsələlərini də əks etdirirlər. Bizi maraqlandıran problem nəzərindən Sofokl və Evripid kimi görkəmli qədim yunan şairlərinin yaradıcılığı müəyyən maraq doğurur, belə ki, onların əsərlərində artıq qadın və onun probleminin əks olunması bunun bariz nümunəsidir.

Azərbaycan folklorunda ana və arvadı aqlışlayan çoxlu atalar sözü və məsəllər var. Gender aspekti mahnı folklorunda da gözə dəyir, burada da xalqın şüurunda olan qadın obrazının spesifikliyi üzə çıxır [1].

VII-XI əsrlərə aid olan "Kitabi Dədə Qorqud" dastanı ümumtürk xalqlarının dəyərli ədəbi abidələrindən biridir. Burada orta əsrlər dövrü, oğuzların hərtərəfli həyatı, məişəti, adət və ənənələri, ev quruluşu öz əksini tapmışdır. Əksər dünya xalqlarında kölə xarakterli qadın

obrazlarının təcəssümündən fərqli olaraq "Kitabi-Dədə Qorqud" eposunda kişinin hər işdə yaxın köməkçisi və dostu olan qadın, onun sevgisi və sədaqəti tərənnüm olunub. Burada təsvir olunan türk qadını kişilərlə eyni hüquqa malikdir. Türk qadını həm döyüşdə, həm evdə kişi ilə bərarbərdir. Eyni zamanda abidədə qadınların sədaqəti, fədakarlığı böyük sevgi və ehtiramla tərənnüm olunub [2]. Belə ki, Domrulun arvadı özünü ona qurban verməyə hazırdır, dağ çiçəyinin şirəsinə qarışdırılmış ana südü atası Dirsə xan tərəfindən qəzəb anında ölümcül yaralanmış gənci xilas edir. Qazan xan pərəstiş etdiyi qoca anasının xətrinə bütün dünyanın nemətlərini qurban verməyə hazırdır, bu baxımdan anaya sədaqətdə oğlu Uruz da ondan geri qalmır.

Tarixi hadisələrdən bəlli olduğu kimi orta əsr Azərbaycan tarixində Tomris, Möminə xatun, Sara xatun, Məhinbanu və s. kimi qadınların ictimai həyatda rolu danılmazdır. Adlarını dərin ehtiramla tarixin səhifələrinə yazdırmağı bacaran türk qadınları dövləti idarə etmək qabiliyyətinə malik olduqları kimi ölkənin xeyriyyə, mədəni həyatında da önəmli rol oynamışlar.

Orta əsr Azərbaycan şairlərinin yaradıcılığında qadın obrazlarının təcəssüm olunmasında müxtəlif yanaşmalar müşahidə olunur. Əgər saray şairləri qadını məkrli, yalançı, dəyişkən, şəhvətpərəst təsvir edirdilərsə, şəhər ədəbiyyatında qadın kişinin bütün hiss və həyəcanlarını bölüşdürən köməkçi, sədaqətli rəfiqə, sevgilisi kimi təqdim olunurdu.

XII əsr türk şairəsi Məshəti Gəncəvinin lirikasında gerçəkliyə real münasibəti, azad təfəkkürə, qadını əsarətə salan zəncirləri qırmağa can atması cəhdləri ifadə olunmuşdur.

XII əsrdə yaşamış ilk "Xəmsə" ilə dünya ədəbi fikrinə öz töhfəsini verən türk şairi Nizami Gəncəvinin yaradıcılığında qadın obrazlarının cəsur, mərd, yüksək əxlaq dəyərlərinə malik olması bir daha türk qadın xislətinin kölə təfəkkürə malik olmamasını sübuta yetirir. Hətta qadın hüquqsuzluğundan bəhs edən ərəb əfsanəsi əsasında yazdığı "Leyli və Məcnun" əsərində də Nizaminin yaratdığı Leyli obrazı toy günü İbn-səlama sillə vurmağa qadirdir. Ərəb dünyasında kölə kimi alınıb satılan qadının belə bir cəsarətinin olmaması Füzulinin "Leyli və Məcnun" poemasında aydın şəkildə əks olunmuşdur. Nizami öz dövründə gördüyü, tanıdığı türk qadınlarının məğrur simasını bütün əsərlərində vəsf etmişdir.

Azərbaycan ədəbiyyatı dastanlarından biri olan "Şəhriyar"da (XIII əsr) da qadının öz hüququ uğrunda mübarizə ruhu hiss olunur. Bu sadə qız Pərizad obrazında reallaşır. Pərizad Şəhzriyara olan hisslərinə baxmayaraq, güzəştə getmir, şəriət qanunlarına uyub onun ikinci arvadı olmaq istəmir, bununla da azadfikirliliyi nümayiş etdirir, cəmiyyətin tələblərinə tabe olmur. Bununla da yazıçı o dövrün dünyagörüşünün konsepsiyalarını ifadə edir.

Bədii söz ustalarını həyəcanlandıran qadın mövzusu XIX əsr Azərbaycan ədəbiyyatçılarının yaradıcılığında da əsas yer tutmuşdur. Mütəfəkkir şair Mirzə Şəfi Vazehin "Üzünü aç" şeri təkcə həmvətənləri olan yazıçıların deyil, həmdə rus yazıçı humanistlərinin də diqqətini cəlb etmişdir. Vazehin müasirləri – Q.Zakir, A.Bakıxanov da öz yaradıcılıqlarında qadın hüququ və azadlığına geniş yer ayırırdılar. Q.Zakir bir sıra lirik şer yazmışdır, amma qadın hüququ ilə bağlı olaraq satiralarında köhnəlmiş adətləri, sevgisiz nikahları tənqid etmişdir ("Dərviş və qız", "Zahidin pis əməlləri" və s.). A.Bakıxanovun "Kitabi-Əsgəriyyə", İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" əsərlərinin əsas ideyası olaraq qarşılıqlı və azad sevgi əsasında ailə qurulması irəli sürülür. Başqa mənəvi-əxlaqi düşüncə tərzinin hakim olduğu şəraitdə bu ideya sözsüz çox cəsur və qabaqcıl idi,

maarifçiliyin ilk addımları da məhz qadınların azad, təhsilli olması probleminin önə çıxarılması ilə bağlı idi. Bu əsərlərdə ailə, məhəbbət, qadın bərabərliyinin yeni ideallarını irəli sürərək, köhnə quruluş və təsəvvürlərə meydan oxuyurdu.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbi nümunələrində romantik sənətkarlar tərəfindən yaradılmış qadın obrazları romantik nəsrin qəhrəmanları ya gənc ziyalı və ya böyük həyat təcrübəsinə malik, qadın hüquqsuzluğunun bütün əziyyətlərini çəkmiş savadsız qadınlardır. Bu əsərlərdə xarakterik qadın qəhrəmanları hər bir çətinliyə dözən, doğma evini tərk edərək sevgilisinə qoşulub qaçmağa hazır olan gənc, sevən qadınlardır.

Azərbaycanın maarifçi sənətkarı M.F.Axundovun bədii əsərlərində qadın probleminin özünəməxsus xüsusiyyətlərinin təcəssümü diqqəti cəlb edir. Onun yaradıcılığında zəmanənin və cəmiyyətin tələblərinə boyun əyərək qapalı həyat sürən qadın obrazları təsvir olunur. Öz insani ləyaqətlərini və şəxsi maraqlarını tələb etmək üçün heç bir hüququ olmayan qadınlar ərlərinin qəzəbindən özlərini qorumaq üçün müxtəlif hiylələrə və kələklərə əl atırlar. “Müdafiə vəkillərinin hekayəti” adlı son komediyasında M.F.Axundov öz şəxsi azadlığı, ləyaqəti, məhəbbət və xoşbəxtliyi hüququ uğrunda mübarizə aparan tənha qadının– Səkinə xanımın vəziyyətini göstərir.

Qadının mənəvi durum probleminə Y.V.Çəmənzəminlinin yaradıcılığında da toxunulur. Yazıçının yaradıcılığı XX əsrin əvvəlində azadlıq hərəkatının və sinfi mübarizənin gücləndiyi şəraitdə formalaşmış, 20-30-cu illərdə püxtələşmişdir. Hələ tələbəlik illərində yazdığı “Bizim qadınların vəziyyəti” traktatının adı onun qadın mövzusuna olan marağına parlaq sübutdur. Bu əsərində o, azərbaycanlı qadınların azad olunması ideyasını ardıcıl şəkildə irəli sürür.

Azərbaycan nasirləri tərəfindən yaradılmış qadın obrazları qalereyasında geniş yayılmış fədakarlıq, düzgünlük, sadəlik, zəkalıq kimi müsbət əxlaqi keyfiyyətlərə malik olan savadsız evdar qadındır. Bu Zeynəb, İssət, Şərəf (C.Məmmədquluzadə, “Danabaş kəndlinin əhvalatları”), Yasəmən (S.S.Axundov “Qaraca qız”) və başqalarıdır.

Məşhur Azərbaycan dramaturqu C.Cabbarlının yaradıcılığında qadın mövzusuna həsr olunmuş bir sıra əsərlər var. Diqqətəlayiqdir ki, müəllif əsərlərində göstərdiyi zəmanə problemlərinin ən başına qadınların hal-vəziyyəti problemini qoyurdu və əsərlərinə baş qəhrəman olan qadınların adını verirdi. Onun inqilabdan əvvəl yazdığı erkən pyeslərində “Vəfalı Səriyyə”, “Solğun çiçəklər” müəllif sosial bərabərsizliyə qadın hüquqsuzluğuna geriliyə qarşı çıxır. Sovet dövründə yaradılmış “Qız qalası” poemasının əsasında qadınının faciəli taleyindən bəhs edən əfsanə durur. Məşhur “Sevil” pyesində isə C.Cabbarlı inqilabdan sonra qadının azad olunması, yeni məişət və ailə problemlərini açır. Çadrasını açaraq ona gözünün önündə xəyanət edən ərinin üzünə çırpan Sevil obrazı azadlıq simvolu oldu.

Beləliklə, Azərbaycan realist nəşrində qadın obrazlarının zənginliyi onu sübut edir ki, Azərbaycan yazıçıları qadın problemlərini işıqlandırmaqla gender mövzusunun açılmasında böyük bədii ümumiləşdirmələrə nail olublar. Bu da onlara başqa milli ədəbiyyatlarla müqayisədə öyrənmək üçün zəngin material verən gender tədqiqatının obyekti kimi baxmağa imkan verir.

**Açar sözlər:** gender, qadın, köləlik, qadın hüquqları.

**Ədəbiyyat**

1. Quluzadə Z. Azərbaycan fəlsəfəsi. Qədim dövrdən XX əsrin 20-ci ilinədək. (Oçerk). Azərbaycan Milli Ensiklopediyası. Bakı. 2002. s.218.
2. Bahaeddin Ögel, Türk Kültür Tarihine Giriş (9 Cilt Takım) 2000, 486 s.

# "ZADƏGANLIQ" KONSEPTİNDƏ GENDER MÜNASİBƏTLƏRİNİN REALLAŞMA SPESİFİKASI

**Aynurə Rəhimli**
Bakı Avrasiya Universiteti, Bakı, Azərbaycan
e-mail: aynura.rahimova@gmail.com

İstənilən dilin konseptsferası onun, bir növ, "semantik kainatını" (A.Vejbitskaya) təcəssüm etdirir. Və bu "semantik kainat", məna törədiciliyi matrisası xalqın stereotiplərini, dəyərlər toplusunu, etik kodekslər sistemini əks etdirir. Bununla da həmin "semantik kainat" bu və ya digər xalqın dünənini, bu gününü dolğun şəkildə inikas etdirən verballaşma platformunu təcəssüm etdirmiş olur. Konkret olraq, gender münasibətlərinin dil sistemində həll tapmasının spesifikasını izlədikcə biz, tam əminliklə o qənaətə gələ bilirik ki, xalqın qadın-kişi münasibətləri ilə bağlı, cəmiyyətdə qadına münasibətlə bağlı öngörüşləri, tabuları dilin konseptsferasında öz əksini tapır. Gender münasibətləri həmin xalqın hansı sosial mövcudluq sferaları ilə təmas edirsə, dildə də həmin sferanı inikas etdirən konseptlərdə gender münasibətlərinin bu və ya digər səviyyədə əks olunduğunu görürük. Bu mənada ingilis dilinin konseptsferası da xüsusilə maraq doğurur. Belə ki, burada həm universal, həm də unikal səciyyə daşıyan reallaşma mexanizmlərinin yer tapdığını görə bilərik.

Məsələn, gender münasibətləri zəminində əks cins nümayəndələrinin ideallaşdırmasının zadəganlıq terminləri vasitəsilə həyata keçməsi bir növ semantik universali statusunda dəyərləndirilə bilən məqamdır. Belə ki, təkcə ingilis dilində deyil, bir çox dünya dillərində sevimli qadının, gəncin şahzadə, kraliça statusları ilə təsvir edilməsi və vokativ statusunda müraciət formalarının yaradılması müşahidə edilir. Lakin əminliklə demək olar ki, ingilis dili bu baxımdan daha yüksək işlənmə tezliyi nümayiş etdirən dillərdən sayıla bilər.

***My Princess****...It's Okay to cry* [1] ; "*I shall see you, my beauty,* ***my princess****, my dearest rowan tree, my own heart's blood* [2].

Nümunələrdə princess zadəganlıq termininin romantik məzmunlu vokativ kimi işlədilməsilə qarşılaşırıq. Növbəti nümunələrdə isə princess terminin gender strereotiplərindən qaynaqlanan epitet səciyyələndirməsini müşahidə edirik:

*Cause* ***princesses*** *don't cry*

*Don't cry, don't cry Oh* [3]; *Behaving* ***like a princess*** *is about more than just using your manners.* [4].

Sonuncu iqtibasdan da aydın şəkildə göründüyü kimi, "Zadəganlıq" konsepti çərçivəsində ciddi gender differensiasiyası mövcuddur ki, bu da "əsl ledilər" üçün yasaq sayılan müəyyən davranış biçiminin mövcudluğu haqqında söyləməyə əsas verir. Yəni, zadəganlıq təbəqəsində ənənəvi olaraq, əsrlər boyu formalaşmış stereiotiplərə əsasən, kişi cinsi nümayəndələri üçün icazəli olan bəzi davranışlar, zadəgan xanımlar üçün sosial, əxlaqi, etik tabular kimi dəyərləndirilir. Bu da öz növbəsində ingilis dilinin frazeoloji sisteminə, like a princess, like a lady, like a real lady kimi metafora əsaslı söz birləşmələrinin daxil olmasına icazə tanıyır. Yəni, qadın zadəganlara qarşı qoyulan yüksək əxlaqi-etik tələblər daha sonralar bütün həmcins cəmiyyət üzvlərinin davranış modeli kimi əxz edilir və nümunə, rol-model olaraq qəlibləşir. Dildə bunu, artıq qeyd etdiyimiz kimi, "daşlaşmış ifadələr" formatında mühafizə edib nəsildən-nəsilə ötürür. Məsələn, nümunələrdə olduğu kimi: *Well, apparently there are certain things you should and shouldn't do in order to be a real lady…So, you might want to avoid these common etiquette mistakes if you want to be taken seriously as* ***a real lady like***. [5].

Stereotipik davranış fərqləndirməsindən bəhs edərkən, Britaniya linqvokulturoloji mühiti üçün xarakterik olan paralinqvistik səciyyəli gender asimmetriyasını da xatırlatmaq istərdik. Belə ki, Britaniya zadəgan elitası üçün hələ də yaşadılmaqda olan salamlaşma ritualına görə, kişilərin sadəcə olaraq, yüngül baş əyməklə salamlaşma jestini icra etməsi yetərli sayılır. Bundan fərqli olaraq, qadınlar üçün birmənalı şəkildə "dərin əyilmə", yəni reverans tövsiyyə edilir. Əslində, əsrlər boyu bu tövsiyyə zadəganlıq rutualı tələbi kimi icra edirldiyi halda, müasir Britaniya toplumunda artıq belə bir qəti tələb aradan qalxmışdır. Lakin bununla belə "siyasi korrektəlik" naminə, sadəcə olaraq, tövsiyyə kimi, səsləndirilən ritual icra mexanizmi gününmüzədək kraliçanın, kral ailəsi üzvlərinin istənilən fərdinin salamlanmasında riayət edilir. Maraqlı bir cəhət isə ondan ibarətdir ki, Britaniya "Zadəganlıq" konsepti stereotiplərinə görə, yüksək zadəganlıq titulu olan kişi cinsi nümyəndəsinin həyat yoldaşı müəyyən məclisə tək gəldikdə, artıq onun sosial statusu, bir növ "aşağı düşmüş" sayılır. Yəni, zadəganlıq etiketinə görə, ərinin yanında ona reverans etmiş kral ailəsi nümayəndələri həmin xanım ziyafət və ya tədbirə tək gəldiyində ondan eyni "dərin əyilmə" ritual salamlama jestini gözləməlidirlər. Bu da heç şübhəsiz ki, gender asimmetriyası kimi səciyyələndirilə bilər. Yəni, Britaniya zadəgan mühitinin paralinqvistik işarələr sisteminə görə, zadəgan qadının titulu ərinin onun yanında olub-olmaması ilə öz "dəyər əmsalında" dəyişə bilir.

Xatırladaq ki, gender asimmetriyası dedikdə, kişi və ya qadın cinsi üçün məqbul bilinən, tövsiyyə edilən hər hansı bir davrarış qaydasının, stereotipin digər cins nümayəndləri ilə özləşdirilməməsi nəzərdə tutulur. Yəni kişiyə (və ya qadına) sosial stereotiplər baxımından icazə verilən, davranış normaları baxımından qadağa qoyulmayan və sosial qınaqla qarşılanmayan hər hansı bir rəftar, davranış, digər cins nümayəndəsi üçün yasaq edilir, qınanılır, tövsiyyə edilmir.

**Açar sözlər:** gender münasibətləri, "Zadəganlıq" konsepti, "Gender" konsepti, ingilis dili, verballaşma

**Ədəbiyyat**:

1. https://akinatsukana.wordpress.com/2011/08/16/my-princess-its-okay-to-cry/
2. https://translate.yandex.ru/?lang=en-ru&text=my%20princess

3. Aviva - Princesses Don't Cry Lyrics http://www.songlyrics.com/aviva/princesses-don-t-cry-lyrics/
4. How to Behave Like a Princess https://www.wikihow.com/Behave-Like-a-Princess
5. https://www.gosocial.co/dont-do-these-20-things-if-you-want-to-be-a-real-lady/
6. Brennan B. No handshake? No worries! The best royal curtsies of all time because you need to show The Queen how low you can go // 20 Apr.2021. https://www.nowtolove.com.au/royals/british-royal-family/royal-curtsies-50702

## İNFORMASİYA MƏDƏNİYYƏTİ VƏ GENDER

**Fazil Rüstəmov**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: rustemov_1969@mail.ru

Müasir dövrdə kişi və qadınların mövqelərində və münasibətlərində nəzərə çarpacaq dərəcədə dəyişikliklər baş verir. Demək olar ki, onların cəmiyyətdəki rolları arasındakı fərq kəskin aradan qalxır. Bunun isə səbəbi, son illərdə sosial həyatın bütün sahələrində, o cümlədən gender münasibətlərini özündə ehtiva edən sosial-mədəni dəyişikliklər oldu. Müasir cəmiyyətdə texnoloji proseslər və informasiyalar dominant rol oynamağa başladı. Texnoloji proses çərçivəsində baş verən dəyişikliklər (informasiya texnologiyaları, kompüterlər, süni intellekt və s.) birbaşa cəmiyyətə təsir edir, onun prioritetlərini və sosial mahiyyətini dəyişdirir. Fərdiyyətçilik, rasionalizm və innovasiya prioritet dəyərlərə çevrilir.

İnformasiya sivilizasiyası informasiya mədəniyyətinin formalaşdığı və sürətlə inkişaf etdiyi sosial-mədəni məkanı kökündən dəyişdirdi.

İnformasiya mədəniyyəti- cəmiyyətdəki informasiyaların funksionallaşması və şəxsi informasiya keyfiyyətlərinin formalaşması ilə əlaqəli bir mədəniyyət sahəsidir.

Birincisi, o yeni bir düşüncə növünün formalaşmasına kömək edir, insanın informasiya məkanında sərbəst istiqamətlənmək, informasiya qarşılıqlı əlaqəsini həyata keçirməyə imkan verən bilik almaqdır. İnformasiya mədəniyyəti yeni bir ünsiyyət növü formalaşdırır ki, bu da şəxsin, sosial rolların cinsi determinasiyası istisna olmaqla, həmsöhbətini sərbəst seçməsinə imkan yaradır.

İkincisi, informasiya mədəniyyəti özündə informasiya fəaliyyətini, insanın həyatfəaliyyətində informasiyanın qəbulu, ötürülməsi, saxlanması və istifadəsi sahəsində keyfiyyət xüsusiyyətlərini əks etdirir.

İnformasiya dünyasında insanların bir-biri ilə və bütövlükdə cəmiyyətlə münasibətləri dəyişir. İnformasiya bazasına əsaslanaraq yeni həyat tərzi, yeni növ, şəxsin iştirakı olmadan ünsiyyət formaları meydana çıxır. İnformasiya mədəniyyətinin inkişafı prosesində şəxsiyyətlərarası münasibətlərin miqyası azalır və interaktiv ünsiyyət aparıcı rol oynamağa başlayır. İnternet

mədəniyyəti, şəxsi görüş üçün məsafəni qət etmədən, real vaxtda (onlayn) ünsiyyətə (qarşılıqlı əlaqəyə) girməyə imkan verir.

Müəyyən mədəniyyətə mənsub olan kişi və qadınların davranışlarındakı fərqlər, cəmiyyətdə qəbul edilmiş gender stereotipləri səviyyəsində açıq-aydın özünü biruzə verir.

Gender stereotipləri hər bir cins üçün müəyyən dərəcədə şəxsi azadlıq imkanı verir. Əksər mədəniyyətlərdə kişilər qadınlara nisbətən daha çox azadlığa malikdirlər.Bu, yalnız seksual davranış qaydalarına deyil, həm də müstəqil qərarlar qəbul etmə, sərbəst hərəkət etmə və s. məsələlərinə aiddir. Məsələn, şəriət, bir kişinin dörd arvad almasına icazə verir.Ancaq Misirin müsəlman ölkəsi olmasına baxmayaraq monoqamiya üstünlük təşkil edir.Bəzi mədəniyyətlərdə qadınlar yüksək sosial statusa sahibdirlər. Məsələn, Afrikanın Tuareq köçəriləri üçün cəmiyyətin matrilineal təşkili xarakterikdir.

Son zamanlarda bəzi ölkələrdə gender məlumatlarının geniş yayılması səbəbindən qız və oğlan uşaqlarının stereotip oyun və fəaliyyətlərinə münasibət dəyişməyə başladı. Məsələn, böyüklər qızlara kompüterdə işləməyi öyrədirlər, onlar üçün konstruktorlar alırlar ki, bu da qızların məkan bacarıqlarını inkişaf etdirir.

Hər bir fərqli mədəniyyət üçün maskulinlik və femininlik haqqında özünəməxsus fikirlər və təsəvvürlər üstünlük təşkil edir. Bu cür stereotip fikirlərin quruluşu və məzmunu həm etnomədəni müxtəliflikdən, həm də cəmiyyətin tarixi inkişaf mərhələsindən, onun mədəni səviyyəsindən, dinindən və s. asılıdır. Məsələn, Rusiya, Asiya və Qərb mədəniyyətlərində qadına münasibət fərqli şəkildə özünü göstərir. Tarix boyu Rusiya mədəniyyəti üçün bariz qadın başlanğıcı xarakterikdir. ("Rus", "Vətən-Ana"). İnsanlar arasındakı münasibətlərdə həm ağsaqqalların, həm müdrik insanların, həm də bir evin ocağının qurucusu kimi qadına hörmətlə yanaşılıb. İslam inanclı (Şərq və Asiya) xalqlar üçün isə kişi hər şeydən yüksəkdə qəbul olunur, kişi qadın üzərində hər şeyə qadirdir.

Asiya xalqlarından fərqli olaraq, Avropa və Amerikadakı qadınlar kişilərlə eyni səviyyədədir. Bu, şübhəsiz ki, daha çox rahatlıq və sabitlik üçün cəmiyyətin formalaşmasında müsbət rol oynadı. Lakin, sonradan bu, qadınların seksual münasibətlərinin azad olması, boşanmaların daha tez-tez baş verməsi, evliliyin razılaşma yolu ilə “evlilik müqaviləsi” formasında və ailələrdə məhdud sayda uşaqların olması ilə nəticələndi. Bu deyilənlər isə, əks cinslərin münasibətlərinə mənfi təsir göstərdi.

İnformasiya mədəniyyəti isə mədəniyyətlərdəki gender fərqlərinin bərabərləşməsinə kömək edir, kişi və qadın bir-birini tamamlayır. İnformasiya cinsiyyət münasibətləri sahəsinə nüfuz edib, qadın və kişi arasındakı münasibətlərin anlaşılmasına kömək edir.

İnformasiya cəmiyyətinin formalaşması, cinsi fərqlilikləri aradan qaldırır, əhəmiyyətli sosial-mədəni dəyişikliklərə səbəb olur, mədəniyyətdə maskulinlik və femininlik obrazlarında dəyişiklik baş verir, cəmiyyətdə və ailədə cinslər arasındakı qarşılıqlı əlaqə dəyişir, bir-birilərinə qarşı tolerant münasibətlər müşahidə olunur. Bu cəmiyyətdə kişilər ailəyə daha çox diqqət ayırır, uşaq böyütməkdə və tərbiyə etməkdə fəal iştirak edirlər. Qadınlar üçün də ictimai həyatda özlərinin realizasiyası imkanları açılır. Əgər, əvvəllər kişi və qadının rollarının ciddi bölüşdürülməsi

müşahidə edilirdisə ( qadının işi evdə qulluq etmək və uşaqlara baxmaq idi, kişi isə özünü sosial sahədə reallaşdırmağa çalışırdı), indi qadın kişi ilə bərabər şəkildə cəmiyyətdə bütün istəklərini və bacarıqlarını reallaşdıra bilər. İnformasiya cəmiyyətinin yaranması ilə peşə fəaliyyətlərində cinslər arasındakı sərhədlər yox olur.Kişi və qadın, lazım olan peşəkar biliklərə və fərdi keyfiyyətlərə sahib olaraq eyni işi görə bilirlər.

Təsdiq etmək olar ki, informasiya mədəniyyəti Şərq mədəniyyətindəki gender münasibətlərini daha çox dəyişdirir, çünki bu gün orada qadınların ailədə və cəmiyyətdə rolunun yenidən başa düşülməsində nəzərə çarpan dəyişikliklər baş verir. Şərq ölkələrində iki mədəniyyətin (Qərb və Şərq) ənənələrinin bir-birinə qarışması, qadınların seçim etmək imkanları: ərinə itaət edən mülayim, gözəl bir qadın olaraq qalmaq və ya özlərini kişilər aləmində reallaşdırmaq imkanı müşahidə edilir.

İnformasiya mədəniyyəti Qərb və Şərq mədəniyyətlərini bir-birinə yaxınlaşdırmağa kömək edir. Cəmiyyətin gender münasibətlərində biarxat münasibətlərə doğru irəliləmə müşahidə olunur ki, bu da obyektiv həqiqətdir.

Beləliklə, informasiya mədəniyyəti gender münasibətlərinin qabarıq dəyişilməsinə təkan verdi. Kişi və qadınların qarşılıqlı fəaliyyətində hökmranlıq (patriarxallıq) əvəzinə tərəfdaşlıq, hörmət və razılıq formalaşdı. Onlar bir-birlərini ahəngdar şəkildə tamamlayır və bu birlikdə də istənilən insan cəmiyyəti qurulmalıdır.

**Açar sözlər:** informasiya mədəniyyəti, informasiya cəmiyyəti, gender.

## Ədəbiyyat

1. Mirzəzadə R. Multikulturalizm siyasəti və Şərq-Qərb müxtəlifliyi: gender, din və mənəviyyat. Bakı, Təknur, 2013.
2. Бендас Т.В. Гендерная психология. СПб., 2007.
3. Бутовская М.Л. Тайны пола. Мужчина и женщина в зеркале эволюции. Фрязино, 2004.
4. Гульбин Г.К. Философия гендерологии и мировоззренческие аспекты гендерной культуры. Современные проблемы науки и образования, 2014, № 2.
5. Пурынычева Г.М., Баданова Н.М. Осмысление феномена информационной культуры/ Г.М. Пурынычева, Н.М. Баданова, Общество: философия, история, культура, 2017, №7, с. 13-17.

# ПРОБЛЕМЫ ГЕНДЕРА В ЭКОНОМИЧЕСКОМ РАЗРЕЗЕ

**Наиля Самигулина**
Бакинский Государственный Университет, Баку, Азербайджан
e-mail: snailya1992@mail.ru

На сегодняшний день проблема гендера, в частности, неравенства в некоторых аспектах социально-экономической жизни между женщинами и мужчинами приобретает особую актуальность.

Предметом гендерной экономики считается «исследование источников, масштабов и механизмов проявления экономических различий между мужчинами и женщинами» [2, с.15]. В современных реалиях мы видим новые проявления гендерных различий; в частности, в том, что действуют так называемые ограничения в трудоустройстве для женщин - на определённые должности, в частности, касающиеся высших звеньев управления, для женщин доступ закрыт или ограничен. Либо зарплата женщин составляет, как правило, лишь часть от заработка мужчин; и эта тенденция наблюдается также и в западных странах. Специальное исследование, проводимое британской компанией Reckitt [5], подтверждает это.

На деле, сама экономика страдает из-за того, что гендерные проблемы до сих пор имеют место. Например, в недавнем исследовании Всемирного Банка [6, с.5], «человеческий капитал может увеличиться с 283,6 трлн. долларов до 453,2 трлн. долларов при условии гендерного равенства». Аналогичное исследование проведено и международной консалтинговой компанией McKinsey & Company [7], которое выявило, что «гендерное равенство поспособствовало бы приросту мирового ВВП ещё на 12 трлн. долл.». Схожие исследования можем встретить и у Междунарождной Организации Труда [8], и как цели развития Брисбенского Саммита в Австралии 2014 года группы G-20 [4].

Общим результатом всех исследований является то, что экономика бы значительно выиграла от равномерного вовлечения в процесс производства как мужчин, так и женщин. Женщины благодаря способности к быстрой адаптации, эмоциональному интеллекту и социальным навыкам, из-за отличий в работе полушарий мозга у мужчин, «лучше справляются со своими рабочими обязанностями в компании в кризисный период» [3]. Женщин беспокоит «незаинтересованность коллег-мужчин в их идеях... и то, что их отстраняют от активного участия в жизни и деятельности компании» [1. с.47]. «Мужской стиль управления допускает риск и ориентирован на принятие решений, когда женский более контекстуальный и опирается на налаживание человеческих отношений, он побуждает и поддерживает более активное обсуждение и формирование идей» [1, с.315].

Важно не просто включение в работу женщин - важно отсутсвие сегрегации по принципу - в этом отделе работают только женщины, а в этом - только мужчины.

Необходимо, чтобы мужчины и женщины сотрудничали вместе, и прилагали совместные усилия по решению той или иной задачи. Результаты совместной работы окажутся на уровень выше по качеству, чем если определённую работу выполняли лишь мужчины, а иную - лишь женщины. Актуальность сохраняется лишь в контексте тяжелого физического труда.

В компаниях, которые нацелены на долгосрочное развитие, должны организовываться тренинги и семинары по поводу устранения недопониманий между мужчинами и женщинами в процессе работы, нацеленные на качественное улучшение сотрудничества и взаимоуважения. Не требуется входить в положение женщин - ясно, что они выполняют в обществе незаменимую функцию - деторождение и воспитание будущей молодёжи - которую мужчины по определению не смогут выполнить, хоть и благодаря прогресу - в частности, механизации труда, внедрению технологий, индустриализации и стало возможным сократить время на домашнее хозяйство до минимума. А в условиях меняющихся реалий, когда семейные расходы недостаточно покрываются вкладом одного лишь кормильца, чтобы обеспечить благосостояние семьи, мужчины осознают необходимость включения женщин в рабочий процесс и сами заинтересованы в этом, что является сегодня значительным достижением на пути преодоления гендерных противоречий.

**Ключевые слова:** гендер, неравенство, сотрудничество, Всемирный Банк, Международная Организация Труда, G-20, Брисбенский Саммит.

## Литература

1. Грэй, Д. Аннис, Б. Мужчины с Марса, женщины с Венеры... работают вместе!/ Джон Грэй, Барбара Эннис; пер.с англ. Ирины Павловой. - Москва: АСТ, 2014, 317.
2. Мезенцева Е.Б. Гендер и экономика: мировой опыт и экспертиза российской практики/отв. ред.и составитель, к.э.н. Е.Б.Мезенцева, М.:ИСЭПН РАН-МЦГИ, «Русская панорама», 2002, 352 с.
3. Daring the Difference: The 3 L’s of Women’s Empowerment. Christine Lagarde, Managing Director, International Monetary Fund. National Democratic Institute, Washington DC, May 19, 2014. Дата обращения: 10.11.2021. https://www.imf.org/en/News/Articles/2015/09/28/04/53/sp051914
4. G20 Leaders’ Communiqué Brisbane Summit, 15-16 November 2014, 5p. Дата обращения: 10.11.2021. https://www.consilium.europa.eu/media/23866/g20-leaders-communiqu%C3%A9-brisbane-summit-15-16-november-2014.pdf
5. Gender pay. Our most comprehensive report to date. Gender pay for 10 markets: Brasil, China, India, Indonesia, Mexico, Poland, Russia, Thailand, UK, US by Reckitt, 18 p. Дата обращения: 10.11.2021. https://www.reckitt.com/media/8542/reckitt-gender-pay-report-2020-final.pdf
6. The cost of gender inequality:. Unrealized potential: the high cost of the gender inequality in earnings. May 2018, World Bank Group. 28 p. Дата обращения:

10.11.2021.https://openknowledge.worldbank.org/bitstream/handle/10986/29865/126579-Public-on-5-30-18-WorldBank-GenderInequality-Brief-v13.pdf?sequence=1&isAllowed=y

7. The power of parity: how advancing women's equality can add $12 trillion to global growth. McKinsey&Company. September 2015. 168 p. Дата обращения: 10.11.2021. https://www.mckinsey.com/~/media/McKinsey/Industries/Public%20and%20Social%20Sector/Our%20Insights/How%20advancing%20womens%20equality%20can%20add%2012%20trillion%20to%20global%20growth/MGI%20Power%20of%20parity_Full%20report_September%202015.pdf
8. Women in business and management. Understanding the gender pay gap. International Labor Organization, 8 p. Дата обращения: 10.11.2021. https://www.ilo.org/wcmsp5/groups/public/---ed_dialogue/---act_emp/documents/publication/wcms_735949.pdf

**Xülasə**

Tezisdə gender bərabərsizliyin müasir problemləri öz əksini tapır və bu problemə iqtisadiyyatın itmiş potensialı kimi baxılır və onun kəmiyyət miqdarı da göstərilir. Müəllif tərəfindən vurğulanır kı, təkcə qadınların işə cəlb edilməsi yox, hətta ayrı şöbələrdə kişi və qadın işləməsi - bu seqregasiya tamamı ilə ləğv olunmalıdır (ağır fiziki əməyi istisna olmaqla). İş zamanı hər hansı bir problemlərin həll edilməsi üçün kişi və qadın birgə işləməsi, birgə fəaliyyət göstərməsi zəruridir. Nəticə keyfiyyətcə daha yüksək səviyyəsinə nail olunacaqdır. Uzunmüddətli inkişafa yönəlmiş şirkətlərdə iş prosesində qadın və kişilər arasında yaranan anlaşılmazlıqların aradan qaldırılması məqsədi ilə təlimlər və seminarlar təşkil edilməlidir.

## NİTQDƏ GENDER XÜSUSİYYƏTLƏRİ HAQQINDA

**Yeganə Səfərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: i.yegane90@hotmail.com

Son illər bütün dünyanı öz cənginə almış qloballaşma fonunda genderl məsələləri ilə bağlı müxtəlif səpkili elmi tədqiqatlara maraq xüsusilə artmışdır. Ümumiyyətlə, "gender" termini ingilis dilindən alınıb. Belə ki, bu dildə "gender" qramatik hallardan biri olan cins kateqoriyasının adı kimi çıxış edir. Daha sonralar bu termin sosiologiya, fəlsəfə və digər humanitar elm sahələrinə də nüfuz etmişdir. Gender — ictimai təşkilatçılıq əsasında cəmiyyətin cinsi mənsubiyyətinə, davranışına görə fərqlənən qruplara ayrılmasıdır. İnsanların cinsinə görə təsnif edilməsi əsasında formalaşan gender məsələlərinin əsasında kişi və qadın fenomeni dayanır. Cins kişini qadından fərqləndirən anatomik və fizioloji xüsusiyyətlərin məcmusudur. Təbii ki, "insanlar qadın və kişi olaraq doğulur və yalnız bundan sonra böyümə və sosial öyrənmə prosesində gender kimliyini təşkil edən davranış xüsusiyyətlərini qazanırlar" [3, s.15]. Bu baxımdan qeyd edilməlidir ki, istənilən canlı dil ətraf

aləmdəki gerçəkliyin nitqi təzahürü kimi çıxış etdiyindən bu termin bütün dillərə daxil olmuş və aktuallıq qazanmışdır.

Gender və cins meyarları insan nitqinə təsir edirmi? Bu sualın cavablandırılması, aydınlaşdırılması, izahı və şərhi ilə dilçiliyin ən müasir sahələrindən olan gender dilçiliyi məşğul olur. "Gender dilçiliyi dilçilik və genderologiya adlanan elm sahələrinin kəsişmə sahəsində formalaşmış və sosiologiya, politologiya, sosiolinqvistika və psixolinqvistika kimi elm sahələri ilə sıx əlaqəlidir" [3, s. 13].

Gender dilçiliyi XX əsrin 70-ci illərində ABŞ-da və Almaniyada qadınlar hərəkatının təsiri ilə meydana gəlib. Gender dilçiliyinin təməlində dilin feminist tənqidi və ya feminist dilçilik dayanırdı. Feminist tənqidin formalaşmasına isə Robin Lakoff, Luitza Puş, Senta Treml-Pletsin əsərləri böyük təsir göstərmişdir.

Dilçiliyin bu sahəsi yalnız kişi və qadınların necə danışdığını və ya kişi və qadın haqqında necə danışılması gərəkdiyini deyil, həm də kişi və qadınlıara aid sözlərin bir-birinə nisbətini nəzərə alır. Biz, adətən, gündəlik həyatda istifadə etdiyimiz dilin qrammatik qanunauyğunluqlarına o qədər öyrəşmişik ki, danışıq zamanı kişi və qadınlara ünvanlanan müraciət, sözlər, söz-formaları və s. kimi saysız-hesabsız gender göstəricilərini hiss etmirik belə, və ya fərqinə də varmırıq. Təəccüblüdür ki, dillərin ümumi sayının yalnız 32%-ində əvəzliklərdə cinskateqoriyası öz əksini tapır. Bu, linqvistik nisbilik fərziyyəsinin formalaşmasına, daha doğrusu genderlə bağlı yaranan suallara cavab vermək zərurətini ortaya qoyur: dilimizdə cins kateqoriyası göstəricilərinin olması dünyagörüşümüzə təsir edirmi?

Gender məsələləri ilə bağlı tədqiqatlar ingilis və alman dillərinin materialları əsasında daha geniş və əhatəli şəkildə aparılmışdır. Bu da ondan qaynaqlanır ki, birincidə cinsin kateqoriyası əvəzliklərdə aydın şəkildə ifadə edilir, ikincisində isə bir çoxlarımızın bildiyi rus dili ilə praktiki olaraq eyni olan ümumi bir sistem mövcuddur. Məsələn, rus dilini öyrəndikdə, qadın cinsinə aid sözlərin kişi cinsinin sözlərindən əmələ gəldiyini və ümumiyyətlə, kişi cinsinin əsas olduğunu olduğunu görmək olar. Azərbaycan dilində isə cins kateqoriyası qrammatik göstəriciləri olan müstəqil bir kateqoriya kimi mpvcud deyil. Nitqimizdə işlətdiyimiz müəllim-müəllimə, katib-katibə və s. bu kimi sözlər ərəb dilinin təsirindən qaynaqlanmışdır.

Bu kimi sözlərin nitqdə işlənməsində də maraqlı faktlar vardır. Məsələn, xadimə sözü "təmizlik işinə baxan" anlamında işlədilirsə, "xadim" sözü "daha yüksək rütbəli insan" mənasında işlədilir. Nədənsə dövlət xadimi dedikdə bu normal qəbul edilir, amma eyni prinsipəsadiq qalıb dövlət xadiməsi ifadəsi işlətsək gülüş obyektinə çevrilə bilərik. Eyni halı katib və katibə sözləri haqqında da söyləmək olar. Belə ki, katib (Birinci katib, bitərəf katib, seçki dairəsinin müxalif katibi) leksik vahidinin Azərbaycan dilinin izahlı lüğətində mənası bu şəkildə təqdim edilir: KATİB. — 1. İdarənin, müəssisənin, təşkilatın və ya bir şəxsin yazı-pozu işlərini aparan adam; 2. İclasın və ya s.-nin protokolunu yazan şəxs; 3. Hər hansı bir təşkilatın seçilmiş rəhbəri; 4. Hər hansı bir idarənin təşkilat və s. şöbəsinin başında duran şəxs [2, c. 2, s. 649]. Məntiqlə yanaşdıqda ərəb dilindən dilimizə keçən bu söz kişi cinsinə işarə edirsə, o zaman onun katibə (qadın cinsinə işarə edən soz-forması) forması eyni keyfiyyətləri daşıyan qadına işarəetməlidir. Lakin "katibə" leksik

vahidinin izahında isə belə bir diskriminasiya ilə qarşılaşırıq: KATİBƏ — Qadın (qız) katib [2, c. 2, s. 649].

Bu sözün izahı ilə bağlı verilən nümunələrdə "katibə" leksik vahidi yalnız yazı-pozu işində köməkçi, rəhbər işçinin yazı-pozu işini görən qadın işçi kimi izah edilir. Nitqimizdə bu kimi incə və fərqində olmadığımız məqamlar kifayət qədərdir. Hətta, demək olar ki, azərbaycandilli nitqdə kişi və qadın nitqi arasında da əsaslı fərqli cəhət və əlamətlər mövcuddur. Təbii ki, qadın və kişilər fərqli dillərdə danışmır, qeyd edildiyi kimi "onlar fərqli nitq davranışlarına malikdir" [1, s. 231]. Belə hesab olunur ki, qadınların nitqi əməkdaşlıq və nəzakət prinsipinə riayət olunmasına yönəlib, qadın nitqində həmsöhbətə empatiya və rəğbət hissinin ifadə edilməsində dolayı nitq aktlarından və xüsusi emosional qiymətləndirici lüğət bazasndan istifadə etmək əsas prioritet məsələlərdəndir. Kişi nitqində yer alan söz bazası isə üslubi cəhətdən çox vaxt biganəlik, neytrallıq, sərtlik sərgiləməklə, qısa cümlələr əsasında qurulur. Kişilər ünsiyyət zamanı daha daha qətiyyətlidirlər və əksər hallarda dialoqun mövzusunu idarə etməyə çalışırlar. Kişi nitqində jarqon sözlərdən və ifadələrdən istifadə etmək ehtimalı daha yüksəkdir.

Nitqin gender xüsusiyyətlərinə dair bir çox araşdırmalara nəzər saldıqda şüurumuza nüfuz edən gender stereotiplərinin də nəzərə alınmasının vacibliyi vurğulanmalıdır. Bu stereotiblər mental dəyərlər vasitəsilə təhtəlşürumuzda, genofondumuzda əsaslı şəkildə oturuşmuş və əsrlərdən bəri formalaşmış milli düşüncə əsasında qurulmuşdur. Bu halda biz yenidən linqvistik nisbilik fərziyyəsinə müraciət edərək və belə nəticəyə gələ bilərik ki, milli-mental dəyərlərin təcəssüməsi olan, mədəniyyət daşıyıcısı dilin strukturu bizim təfəkkürümüzü müəyyən edir.

Buna baxmayaraq, kişi və qadın nitqinin simvolizə edilmiş xüsusiyyətləri mütləq meyar olaraq qəbul edilməməlidir, çünki fərd, şəxsiyyətlər arasında mövcud olan fərqlər cinsi mənsubiyyətdən daha vacib ola bilər. Buna görə də müasir gender tədqiqatları bir sıra amillərin məcmusunu, yəni yaş, sosial statusu və nitq aktının baş verdiyi konteksti mütləq şəkildə nəzərə almalıdır.

**Açar sözlər:** gender, nitq, kişi nitqi, qadın nitqi, cinsi mənsubiyyət, cəmiyyət.

## Ədəbiyyat

1. Ağayeva K. Azərbaycan da gender məsələləri. Bakı: Qərb Universiteti, 2014, 437 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, IV cild, Bakı, "Şərq-Qərb".
3. Каменская О.Л. Гендергетика-наука будущего, Гендер как интрига познания. Пилотный выпуск. М.: Изд-во Рудомино, 2002, с.13-20.

# ƏLİLLİK SOSİAL BASQI KİMİ

**Tünzalə Verdiyeva**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan

Əlilliyi olan sosioloq Paul Abberley (1987) əlilliyin social basqı kimi analizini vermək üçün nəzəriyyə irəli sürmüş və xüsusilə vurğulamışdır ki, əlilliklə bağlı istənilən nəzəri əsasın qurulması əlillik təcrübəsinin tarixi spesifikasını nəzərə almalıdır. Onun fikrincə basqı ierarxik social münasibətlərdə və bölgülərdə mövcud olan konsepsiyadır.

Tarixən qadınların və qara dərili insanlara qarşı olan basqıya haqq qazandırmaq üçün bioloji xüsusiyyətlərdən arqument kimi istifadə edilib. XIX əsrdə qadınların təhsil almalırının onların analıq instinktinə mənfi təsir etməsi və qara dərili insanların ağdərililərlə müqayisədə genetic və intellektual cəhətdən aşağı olmasına inanılırdı. Cins və dəri rəngindən fərqli olaraq əlillik fiziki məhdudiyyət yaradır. Əlilliyi olan insanların bir çoxları üçün isə bioloji fərqlilik basqının bir hissəsidir. Beləki, əlilliyi olan insanlar "əlil olmayan" idealına qarşı heç nə edə bilmirlər. Nəticədə onlara qarşı güvənsizlik, daxili basqı və ya psixo-emosional fərqlilik hissləri keçirə bilərlər. Bu isə öz növbəsində əlilliyə qarşı stigmanın yaranmasına gətirib çıxarır və əlilliyi olan insanlar arasında siyasi düşüncənin yaranmasının və inkişafının qarışısını alır. [1]

Abberley (1987) iddia edir ki, əlilliyin social basqı nəzəriyyəsi həmdə aşağıdakı aspektləri əhatə edir.

1. Əlilliyi olan insanlar bir qrup kimi iqtisadi və social deprivasiya yaşayırlar.

2. Bütün bu dezavantajlar (əlverişsiz şərait) müəyyən ideologiyanın nəticələridir (social təcrübənin əsaslandığı bir çox dəyərlər və inanclar).

Abberley əlilliyi olan insanlara qarşı social basqıdan kimlərin yararlanması barədə fikir yürüdərək bildirir ki, əlilliyi olan insanların daha az asılı olmasına imkan yaradılması individuallaşdırma prosesinə ziddir.

Abberley (2002) müasir cəmiyyətlər yerli və beynəlxalq səviyyələrdə həyata keçirilən social siyasətin əsasən təcrid olunmuş qrupların əmək bazarına daxil olmasına xidmət etməsini nəzərə alaraq basqı, eksklyuziya və iş (məşğulluq) arasında əlaqəni öz tədqiqatlarnda təhlil etmişdir. Bəzi əlilliklərin təbiəti və mürəkkəbliyi əhalinin əlilliyi olan qisminin kənarda qalmasına səbəb olur və nəticədə bərabər vətəndaşlıq prinsipləri pozulur. Odur ki, hamı üçün bərabərlik yalnız məşğulluğun bərabər təmin olunmasından asılıdır.

Young (1990) basqının 5 əsas sahəsini ayırd edir:

1. Istismar – Marksın istehsalda siniflər arasındakı əlaqə nəzəriyyəsindən götürülüb. Belə ki, həmin nəzəriyyədə dominant siniflər onlara tabe olan siniflərin əməkləri nəticəsində var-dövlət yığır. Əgər əlilliyi olan insanlar əmək bazarına qismən daxil edilirləsə, istisamar olunan sinifdən mənfəət götürmək mümkün olmaz.

2. Təcrid olunma – social qrupun gündəlik həyatın axarından sistematik şəkildə uzaqlaşdırılmasıdır. Young bunu ən təhlükəli basqı hesab edir, belə ki, bu zaman əlilliyi olan

insanlar təhsildən və yaşayışla təminatdan uzaqlaşdırlılma yolu ilə cəmiyyətin həyatından sıxışdırılırlar. Genetik saflaşdırma və abortlar, Nasist genosidi və s. buna ən bariz nümunələrdir.

3. Gücsüzlük- istisamara və təcrid olunmaya birbaşa əlaqəli olub təsdiq edir ki, insanlar özlərinin həyatlarına nəzarət etməyə və ya qərar verməyə çox az imkanları var.

4. Mədəni imperializm –ideoloji hegemonluğa oxşardır. İdeoloji hegemonluq dominant qrupların fikirlərinin və dünya görüşlərinin üstün gəlməsidir. Beləki, qəbul edilmiş normalardan fərqli düşünənlər ya ümumiyyətlə bu fikirləri qəbul etmirlər, ya da tədricən o fikirləri özününküləşdirilər. Alternativ dəyərlər və mədəniyyətlər bəzən məhv olmayaraq qala bilirlər, lakin bu gələcəkdə hansısa etirazın və pozisiyanın yaranmasına əsas yaradır.

5. Zorakılıq–fiziki zorakılıq, cinsi zorakılıq və təcavüz, hədə-qorxu və lağa qoymaq. Bu cür hərəkətlər çox zaman əlilliyi olan insalara qarşı törədilir və bundan daha çox uşaqlar və qadınlar əziyyət çəkir. Həmçinin hələ doğulmamış əlilliyi olan uşaqlara qarşı olan zorakılıq, yəni abort halının sistematik şəkildə həyata keçirilməsi yolverilməzdir. [2]

Əlillikə bağlı aparılan tədqiqatların böyük əksəriyyəti əlilliyi olan və olmayan insanların social qruplar kimi bölgüsü əsasında aparılmışıdr. Lakin son zamanlar digər social bölgülərin əlilliklə əlaqəsi təhlil edilir. Beləki, əlilliyin genderlə, iqr və etnik xüsusiyyətlərə, cinslə, yaşla və social siniflərlə əlaqəsinin təhlili aparılır.

Əlilliyin genderlə bağlı praktikasının nəzəriyyələşdirilmsi ilk dəfə Michelle Fine və Adrienne Asch (1985, 1988) tərəfindən həyata keçirilib. Onların araşdırmalarının nəticəsində məlum olub ki, əlilliyi olan kişilər qadınlara nisbətən daha rahat şəkildə stigmanı yenə bilirlər və cəmiyyətdəki kişi rollarını öz üzərilərinə götürə bilirlər. Qadınlar ikiqat basqıya məruz qalırlar. Son illərdə əlilliyi olan qadınların vəziyyəti onların iqrinə, yaşına görə daha dərindən araşdırlılmağa başlanıb. Ədəbiyyatlar əlilliyi olan qadınların daha çox əmək bazarından kənarda qalması barədə əsaslanmış fikirlər təqdim edir. Beləliklə, əlilliyi olan qadınlar iqtisadi, soaial və psixoloji baxımdan əlilliyi olmayan kişi və qadınlardan geri qalırlar. Feminist təhlillərdə də əlilliyi olan qadınlar gözardına alınır və passiv qurbanlar kimi təqdim olunurlar. Əlilliyi olmayan feminist qadınlar daha güclü, bacarıqlı və cəlbedici qadın obrazını formalaşdırmaq üçün əlilliyi olan qadınları görməməzliyə vururlar.

**Açar sözlər:** mədəni imperializm, social basqı, təcrid olunma, feminist qadınlar, əlillik.

### Ədəbiyyat

1. Colin Barnes and Geof Mercer (2010). Exploring Disability. Second Edition. Polity
2. Disabling Barriers – Enabling Environments (2011). Edited by John Swain, Sally French, Colin Barnes and Carol Thomas. SAGE Publications Ltd.

# GENDER NEOLOGİZMLƏRİNİN PSİXOLİNQVİSTİK ASPEKTDƏN TƏHLİLİ
## (gender neytraliteti və "üçüncü cins" haqqında)

**Zeynəb Yusifova**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: leylayuzifz@gmail.com

Müasir postmodern dünyada dəyərlər sisteminin yenilənməsi; fikir fərqliliyinə haqq tanınması; dini, irqi, etnik müxtəlifliklərə tolerant münasibətin təşviq edilməsi; dünyagörüşü və dəyərlər sisteminin təkrarsızlığından yaranan polifonikliyin təqdirlə qarşılanması – bütün bu faktorlar son nəticədə yeni "siyasi korrektəlik" doktrinin formalaşmasına yol açmışdı. Əgər artıq alışılmış təfsirində "siyasi korrektəlik" doktrini irqi və etnik dözümsüzlüyün, bir növ, verbal seqreqasiyanın aradan qaldırılmasına xidmət edirdisə, son dövrlər müşahidə olunan tendensiyalar daha çox gender fərqliliyindən qaynaqlanan psixoloji diskomfortun aradan götürülməsini hədəf almaqdadır. Cinsi azlıqlara qarşı dözümsüzlüyü bəyan edən hüquqi aktların, qanun maddələrin ləğv edilməsi ilə başlayan fəaliyyətlər XX əsrin sonlarında fərqli nominasiya vahidlərinin ortaya çıxmasına yol açmış və XXI əsrin əvvəllərindən etibarən bu proses kütləviləşərək bütövlükdə "dildə gender neytrallığı (neytraliteti)" tendensiyasının formalaşmasını mümkün etmişdi.Belə ki, 2017-ci ilin sonlarında Britaniya hərbi qüvvələri tərəfindən açıqlanan tövsiyyələrdə hərbçilərə öz işgüzar ünsiyyət və yazışmalarında az və ya çox dərəcədə gender çalarlığına malik olan sözlərdən imtina edilməsi vacibliyi vurğulanmış və gender neytrallığının bərqərar olunması naminə bəzi söz və ifadələrin əvəzlənməsinin labüdlüyü qeyd edilmişdi [1]. Daha öncə də analoji çağırışlar Britaniya akademik çevrələr tərəfindən, konkret olraq, Universitetlərdə fəaliyyət göstərən intellektual elita nümayəndələri tərəfindən dilə gətirilmişdi. Həmin söz və ifadələr sırasında Britaniya hərbi qüvvələri generaliteti tərəfindən gender semantikasını əks etdirdiyi düşünülən aşağıdakı qrup leksik, frazeoloji, sintaktik vahidlər yer almışdı: **mankind** (**humankind** sözü ilə əvəzlənməsi tövsiyyə edilmişdi), **best man for this job** ("yaxşı namizəd" anlamının ifadəsi üçün artıq: **best person for the job** ifadəsi məsləhət görülmüşdü); **forefathers** ("əcdadlar, ata-babalar" anlamının bundan sonra daha neytral **ancestors** sözü ilə əvəzlənməsi doğru sayılmışdı), **man in the street** ("təsadüfi insan" anlamında artıq **average person/citizen** ifadəsinin işləkliyi məqbul sayılmışdı), **gentleman's agreement** ("centlmen razılaşması" ifadəsinin aşkar gender semantikasını iddia edən mütəxəssislər onun **agreement based on trust** ifadəsi ilə əvəzlənməsini məqsədəuyğun hesab etmişlər). Hətta yeni liberal dəyərlərin mövcudluğundan çıxış edən intellektuallar homoseksual və heteroseksual kimi sözlərdən də, keçmiş (arxaikləşmiş) düşüncə tərzinin qalıqları olaraq, imtina edilməsini də məsləhət görmüşlər [2 ]. Cinsi (seksual) oriyentasiya baxımından qarşılaşdırmadan imtina çağırışları, əslində gender fərqləndirməsindən "imtina" ilə paralel şəkildə səslənir. Yəni, şərti anlamda "imtina" qadın və ya kişi cinsi fərqliliyinin qabardılmasının doğru olmayacağı qənaətinə söykənir. Bu qəbildən neologizm yaradıcılığı, yəni gender dualizminin "ört-basdır" edilməsini hədəf alan yeni söz və ifadələrin yaradılması ilk növbədə, "üçüncü cins"

nümayəndələrinin psixoloji bunalım yaşamaması və ya özlərini cəmiyyətdən dışlanmış hiss etməmələri üçün icra edilir. Xatırladaq ki, görkəmli psixoloq və mütəfəkkir Bert Hallingerin bəyan etdiyi cəmiyyət qanunları sırasında "Aidlik qanunu" xüsusilə yer alır. Belə ki, insan doğulan gündən etibarən özünü aid olduğu sistemin tərkib hissəsi kimi görür və həmin sistemlə hər hansı bir uyğunsuzluq ciddi psixoloji problemlərə yol aça bilir. Məhz, bunun qarşısını almağa çalışan insanlar şüurlu şəkildə və ya təhtəlşüuri olaraq, ümumi sistemin qaydalarına uyğunlaşmaq ehtiyacını duyur. [3]. Əgər müəyyən təbii və obyektiv fərqliliklərə görə (məsələn, cinsi oriyentasiya spesifikliyinə görə) bu və ya digər şəxs ümumi sistem qaydalarından fərqlənirsə, bu zaman (müasir liberal yanaşmalara əsasən) sistem ona qarşı daha öngörüşlü davranmalı və onun psixoloji komplekslərlə yüklənməsinin qarşısını almalıdır. Gender neytraliteti tərəfdarlarının ortaq rəyinə görə isə, bunun ən doğru yolu isə cinsi dualizmin hegemonluğundan imtina etməklə "üçüncü cinsin" mövcudluğunu etiraf etməkdir. Məsələn, dildə gender neytralitetinin bərqərar olmasının tərəfdarlarından biri sayılan İ. Kuzemko Dünya əhalisinin 1,7%-nin öz cinsi oriyentasiyasında qərarsız olan, interseks mahiyyətli insanlar təşkil etdiyini vurğulamış, bu səbəbdən də **third gender marker** neologizminin istifadəsinin tam məqsəduyğun olduğu qənaətindən çıxış etmişdi [5].
Məhz, bu yanaşma sayəsində bir çox Avropa dillərinə **üçüncü cins** anlamını ifadə edən sözlər və ya əvəzliklər daxil edilmişdi. Bu sırada **third gender marker** ifadəsindən başqa**, third gender, third category, option** kimi neologizm analoqları da yer alır. *"Intersex: **Third Gender** in Germany" (Spiegel, Huff Post, Guardian, ...): ...Nowhere there was a '**third category**' or '**option**' mentioned in the law nor in parliament, this part was mere speculation and daydreaming by journalists and pundits*. [6 ]. Göründüyü kimi, müasir gender neologizmləri bilavasitə "gender neytrallığını" bəyan edən siyasi korrektəlik tendensiyasına uyğun şəkildə formalaşmaqdadırlar.

**Açar sözlər:** neologizmlər, gender faktoru, psixolinqvistika, gender neytraliteti, "üçüncü cins".

### Ədəbiyyat

1. Jamieson S. Armed forces told to use gender-neutral language, Telegraph, 2017, 27 Decem, https://www.telegraph.co.uk/news/2017/12/27/armed-forces-told-use-gender-neutral-language/
2. Pells R. University bans phrases such as 'mankind' and 'gentleman's agreement' in favour of gender-neutral terms // Independent, 03 March 2017 https://www.independent.co.uk/student/news/university-cardiff-metropolitan-bans-phrases-mankind-gentleman-s-agreement-genderneutral-terms-free-speech-a7609521.html
3. Закон Принадлежности. Второй из Системных Законов. http://sorazvitie.ru/library/articles/zakon-prinadlezhnosti-vtoroi-iz-sistemnykh-zakonov
4. Почему опция «третьего пола» не поможет интерсекс-людям https://www.wonderzine.com/wonderzine/life/life/240245-third-sex
5. https://stopigm.org/Intersex-3rd-gender-in-Germany-Silly-season-fantasies-vs-reality-of-genital-mutilations/